**AZƏRBAYCAN RESPUBLİKASI**
**TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**FATİH AŞAN YAŞAR**

# YENİYETMƏLƏRİN HUMANİZM TƏRBİYƏSİ

İxtisas: 060119- Pedaqogika nəzəriyyəsi və tarixi

**M A G İ S T R  D İ S S E R T A S İ Y A S I**

Elmi rəhbər: *pedaqoji elmlər doktoru,*
*professor* **E.M.QULIYEVA**

**BAKI – 2017**

# MÜNDƏRİCAT

GİRİŞ ……………………………………………………………………….......3
I FƏSIL. TƏLİM PROSESİNDƏ YENİYETMƏLƏRİN HUMANİSTİK TƏRBİYƏSİNİN VASİTƏ VƏ YOLLARI.................................................8
1.1. Humanistik tərbiyənin rolu, məzmunu və vəzifələri ……………………......8
1.2. Humanitar fənnlərin tədrisi prosesində yeniyetmələrin humanistik tərbiyəsi........................................................................................... 17
1.3.Təbiət fənnlərinin tədrisi prosesində yeniyetmələrin humanistik tərbiyəsi........................................................................................... 26
II FƏSİL. SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR İŞLƏR ZAMANI YENİYETMƏLƏRİN HUMANİSTİK TƏRBİYƏSİNİN TƏŞKİLİ YOLLARI.........................................................................................36
2.1. Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin humanistik tərbiyəsinin təşkili..36
2.2. Məktəbdənkənar tədbirlər prosesində yeniyetmələrin humanistik tərbiyəsinin təşkili yolları.......................................................................46
2.3. Yeniyetmələrin humanistik tərbiyəsində pedaqoji rəhbərliyin rolu............57
NƏTİCƏ…………………………………………………………………........70
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..............…………………………….........75

# GİRİŞ

Müasir dövrdə cəmiyyətin təhsil sahəsində apardığı siyasətin əsas məqsədi şəxsiyyətin perspektiv tələbatlarının, ölkənin demokratik yolu ilə inkişafın əsasında qurulan təhsil sistemini daha yüksək səviyyəyə çatmasına yönəldilməsidir. Bu mühüm işdə xüsusi fikir tərbiyə prosesinə verilir, onun ümumi pedaqoji fəaliyyətin fəal tərkib hissəsi kimi çıxış etməsinə, şəxsiyyətin təlim inkişaf prosesinə məqsədyönlü şəkildə inteqrasiya olunması nəzərdə tutulur. Azərbaycan Respublikasının Təhsil Qanununda gənc nəslin hərtərəfli, ahəngdar şəkildə tərbiyə olunması mühüm bir məqsəd kimi cəmiyyətin qarşısına qoyulur və bir sıra əsaslı vəzifələrin pozitiv həllini daim diqqət mərkəzində saxlayır: gənclərdə vətəndaşlıq məsuliyyəti, hüquqi özünüdərketmə, yüksək mənəviyyat və mədəniyyət, təşəbbüskarlıq, müstəqillik, tolerantlıq, cəmiyyətdə uğurlu şəkildə sosiallaşması, siyasi-iqtisadi həyatda fəal şəkildə adaptasiyası və inkişafı kimi keyfiyyətlərin formalaşması. Belə mühüm məsələnin müsbət, hərtərəfli həllində qarşıya qoyulan vəzifələrin daha sistemli şəkildə həyata keçirilməsində gənc nəslin humanistik tərbiyəsi ön plana çıxarıla bilər. “Humanistik tərbiyə dünya təhsil prosesinin tərkibində olan ən tərəqqi xarakteri daşıyan tendensiyadır və onun əsas məqsədi şəxsiyyətin ahəngdar şəkildə inkişafıdır, pedaqoji proses zamanı iştirakçılar arasında humanitar xarakteri daşıyan münasibətlərin əsasını yaratmaqdır (8, 32).

Yeniyetmələrin humanistik tərbiyəsi ideal şəxsiyyətin formalaşmasına yönəldilir, gənclərin özünüinkişaf və özünüreallaşdırmaq, cəmiyyətlə harmonik münasibətləri qurmaq keyfiyyətlərinin yaranıb fəal inkişaf olunmasına optimal şərait və yolları təklif edir. Yeniyetmələrin humanistlik tərbiyəsinin bu kimi məqsədində cəmiyyətin şəxsiyyətə və özünün gələcəyinə qarşı humanistik, dünyagörüşü xarakteri daşıyan mövqelərin əsasları qoyulur. Belə əsaslar şəxsiyyəti təbiətin unikal bir varlığı kimi qəbul edir, onun subyektivliyinin inkişafını həyatın yüksək məqsədi kimi dəstəkləyir. Gənclərin humanistik tərbiyəsinin məqsədlərindən biri də onların emosional-psixoloji, iradi, intellektual keyfiyyətlərini harmonik şəkildə inkişaf etdirməklir, şəxsiyyətin humanizm ruhunda özünütərbiyə etmək səylərinə təkan

verməkdir. Demək olar ki, müasir dövrün şəxsiyyətin inkişafına verilən tələblər nöqteyi nəzərindən humanistik tərbiyənin məqsədinin əsasında şəxsiyyətin planetar xarakter daşıyan şüurun və ümumbəşəri mədəniyyətin elementlərini formalaşdırmaq öz ərsini tapır. Yeniyetmələrin humanistik tərbiyyəsi onlara cəmiyyətdə pozitiv şəkildə sosiallaşmağa geniş imkanlar yaradır, müsbət şəxsiyyətlərarası münasibətlərin yaranmasına əsaslar verir.

Problemlə bağlı pedaqoji-psixoloji, sosioloji ədəbiyyatın təhlilindən aydın olur ki, yeniyetmələrin humanistik tərbiyyəsi problemin Azərbaycan alimləri N.M. Əhmədov, A.M. Həsənov, İ.R. Talıbov, S.M. Quliyev, Ə.Ş.Həşimov, Ə.Ə.Ağayev, R.A.Abdulov, A.N.Abbasov, Ə.Ə.Əlizadə, H.Ə.Əlizadə, Ə.N.Bayramov, R.İ.Əliyev, R.F.Məmmədov, R.S. Mustafayeva və başqaları öz əsərlərində müraciət etmiş və problemin müsbət şəkildə həll olunmasına aid tövsiyələr vermişlər.

MDB ölkələrinin alimləri də problemi hərtərəfli təhlil edib öz tövsiyələrini elmi ədəbiyyatda işıqlandırmışlar (B.M. Nemenskiy, E.V.Evladova, L.A.Nikolayeva, Ş.A.Amonaşvili, A.İ.Levko, Q.M.Kupçina, T.P.Liznyova, A.S.Metelitsa, T.Q.Masarik, V.T.Kabuş, Q.B.Kornetov, L.Q.Kojevnikova, L.A.Petrovskaya və b.).

Tədqiqatçı B.M. Nemenskiy gənc nəslin humanistik tərbiyəsinin əsas məqsədini onların insan təcrübəsinə yiyələnməsində, həyatı dərindən başa düşməsində başqalarının dərdinə yanmaq qabiliyyəti formalaşdırılmasında görür.

Tədqiqatçı L.P.Bayeva gənclərin humanistik tərbiyəsinin məqsədini gənclərin mənəvi cəhətdən inkişafında, insani xarakter daşıyan dəyərlər sistemini qəbul edib onu real həyatda rəhbər tutmaqda görür.

Tədqiqatçı Q.M.Kupçina yeniyetmələrin humanistik tərbiyəsinin əsas məqsədini tərbiyə prosesininin sosial-mədəni xarakteri daşıyan məzmunu ilə yiyələnmək və bu məzmunu gənclərin tələbatları maraqları, dəyərləri ilə harmonik şəkildə inkişaf etdirməkdə görür.

Tədqiqatçı A.S.Metelitsa gənclərin humanistik tərbiyəsinin məqsədini təhsil ocaqlarında aparılan təlim-tərbiyə prosesini yüksək əxlaqi dəyərlər üzərində qurulması kimi qəbul edir və bu dəyərlərin arasında milli dəyərlərə üstünlük verməyi məsləhət görür.

Yuxarıda sadaladığımız tədqiqatçı alimlərin fikirləri ilə razılaşaraq onların əsas ideyalarını dərindən başa düşüb qəbul edərək, öz fikrimizi də diqqətə çatdırmaq istərdik. Müasir zamanda təhsil ocaqlarında yeniyetmələrin humanistik tərbiyəsinə yetərincə lazimi, ciddi fikir verilmir. Pedaqoji kollektivlər belə hesab edirlər ki, təhsil ocaqlarında aparılan təlim-tərbiyə prosesi zamanı yeniyetmələrin humanistik tərbiyəsi ümumi tərbiyə prosesinin tərkib hissəsi kimi qəbul olunmalıdır. Bu ideya ilə qismən razılaşaraq demək istərdik ki, ölkəmizin demokratik inkişaf yolu seçməsində, həyatın bütün sahələrini demokratikləşdirmədə məhz bu cəmiyyətin ümumbəşəri inkişaf yolu ilə aparmaqda gənclərin üzərinə mühüm bir vəzifələr qoyulur və bu vəzifələrin pozitiv şəkildə öhdəsindən gəlmək üçün, demək olar ki, yeni yüksək insani keyfiyyətlərə malik olan gənc nəslin formalaşdırılması mühüm və şərəfli bir vəzifə kimi qəbul olunmalıdır. "Gənclər müxtəlif mədəniyyətlərin dialoquna hazır olmalıdırlar, tolerantlıq, təşəbbüskarlıq, yüksək əxlaq, fəal yaradıcı fəaliyyət, həssaslıq, qayğıkeşlik və xeyirxahlıq, başqasının fikrini qəbul edib onunla razılaşmaq və sair keyfiyyətlərin real həyatda reallaşdırmağa hazır olmalıdırlar (33, 98).

Bakı şəhərinin bir neçə orta ümumtəhsil məktəblərində apardığımız müşahidəyə əsasən deyə bilərik ki, yeniyetmələrin humanistik tərbiyəsi lazımi qədər sistemli şəkildə qurulmayıb, pedaqoji kollektivdə şəxsiyyətin humanist xarakteri daşıyan keyfiyyətlərin formalaşmasında vahid bir fikir yoxdur. Müəllimlərin, tərbiyəçilərin peşə baxımından şəxsiyyətinin yüksəldilməsini tələb edir, yeniyetmələrin ailə ilə, yaşayış yerlərində ağsaqqallarla sıx əlaqələrinin yaradılmasının zərurəti irəli çıxır. Bunun səbəbini biz tərbiyə işinin məqsədyönlü şəkildə aparılmamasında görürük. Yeniyetmələr arasında apardığımız söhbətlər, müsahibələr və anketləşdirmə zamanı məlum oldu ki, gənclər, humanistik tərbiyənin mahiyyətini, məzmununu, o qədər də yaxşı, aydın təsəvvür etmirlər, humanistik tərbiyənin komponentləri ilə tanış deyillər. Humanitar və təbiət fənlərinin tədrisi, sinifdənxaric və məktəbdənkənar tədbirlər prosesində yeniyetmələrdə humanist keyfiyyətlərinin formalaşması daimi tərbiyəçilərin, məktəb işçilərinin diqqət mərkəzindən qaçır, uşaqların hansı keyfiyyətlərə nail olduqları məqsədyönlü şəkildə təhlil olunmur və bu prosesə ciddi nəzarət olunmur. Gənclərlə apardığımız müsahibələr prosesində məlum oldu ki,

şagirdlərin müstəqilliyini, təşəbbüskarlığını, öz mənəvi sosial mövqeyini arqumentləşdirib irəli sürməsini müəllim kollektivi, tərbiyəçilər lazımi səviyyədə dəstəkləmir. Yeniyetmələrin humanistik tərbiyəsinin uğurla təşkil olunub aparılması "müəllim-şagird" tərəqqi xarakteri daşıyan sistemin qurulmasından asılıdır. Əgər münasibətlər zəifdirsə gənclər öz hərəkətlərini, davranışını xaotik şəkildə qiymətləndirib, çox vaxtı reallıqdan uzaq, şəxsiyyət əleyhinə çıxış edən keyfiyyətlər, hərəkətlər alqoritmi yaranır və yeniyetmələrin inkişafına destruktiv şəkildə təsir edir.

**Problemin aktuallığını**, sosial-mənəvi cəhətdən vacibliyini, problemin təhsil ocaqlarında mövcud vəziyyəti tələb olunan səviyyədə olmadığını, bu problemin daha dərindən öyrənilməsinə böyük ehtiyac olmasını nəzərə alaraq biz tədqiqat işimizin mövzusunu "Yeniyetmələrin humanizm tərbiyəsi" kimi müəyyən etmişik.

**Tədqiqatın obyekti** – yeniyetmələrin humanistik tərbiyəsi prosesidir.

**Tədqiqatın predmeti** – yeniyetmələrin humanistik tərbiyəsidir.

**Tədqiqatın məqsədi -** yeniyetmələrin humanistik tərbiyə prosesini, pedaqoji rəhbərliyin rolunu, mahiyyətini və onun keyfiyyət səviyyəsinin yüksəldilməsi yollarını və imkanlarını araşdırmaq.

**Tədqiqatın vəzifələri:**

- Yeniyetmələrin humanistik tərbiyəsinin rolunu, məzmununu, vəzifələrini araşdırmaq;
- Yeniyetmələrin humanistik tərbiyə prosesində humanitar fənlərin tədrisi imkanlarını araşdırmaq;
- Yeniyetmələrin humanistik tərbiyə prosesində təbiət fənlərin tədrisi imkanlarını araşdırmaq;
- Yeniyetmələrin humanistik tərbiyə prosesində sinifdənxaric və məktəbdənkənar tədbirlərin rolunu, təşkili yollarını və imkanlarını araşdırmaq;

Dissertasiya işində istifadə olunan **metodlar** – problemə aid elmi ədəbiyyatın nəzəri təhlili, pedaqoji müşahidə, müsahibə, anketləşdirmə, söhbətlər, sorğular, analiz və sintez, deduksiya və induksiya.

**Tədqiqatın yeniliyi** – problemin magistr dissertasiyası səviyyəsində ilk dəfə tədqiqi, yeniyetmələrin humanistik tərbiyəsinin rolunu, mahiyyətini, vəzifələrini və keyfiyyət səviyyəsinin yüksəldilməsi yollarının araşdırılması.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** – tədqiqat zamanı əldə edilən elmi nəticələr və qənaətlər yeniyetmələrin humanistik tərbiyəsinin rolunu, mahiyyətini, vəzifələrinin araşdırılması, tərbiyə prosesinin daha təsiredici metod, forma və vasitələrinin müəyyən edilməsi, onların keyfiyyət səviyyəsinin yüksəldilməsi yollarının dəqiqləşdirilməsi orta ümumtəhsil məktəblərin pedaqoji kollektivlərinə, metodistlərə, sinif rəhbəri və fənn müəllimlərinə, tədqiqatçılara, tələbələrə, ailədə valideynlərlə, ictimai təşkilatlarla, müxtəlif yeniyetmə qurumlarıyla faydalı ola bilər.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat haqqında mütəmadi olaraq Bakı Slavyan Universitetinin "Pedaqogika və psixologiya" kafedrasının iclaslarında, müxtəlif konfranslar da məqalələr çap olunub.

Çap olunmuş məqalələr və tezislər dissertasiyanın məzmunu tam əhatə edir. Tədqiqat işinin əsas müddəaları aşağıdakı formalarda aprobasiyadan keşmişdir.

1. Yeniyetmələrin humanistik tərbiyəsi sosial-pedaqoji problem kimi // Magistranların XVI Respublika elmi konfransının materialları. Sumqayıt, SDU, 2016, s. 435-436.

2. Yeniyetmələrin humanistik tərbiyəsində orta ümumtəhsil məktəbin rolu // Problemlər. Axtarışlar. Perspektivlər. Magistranların elmi məqalələr toplusu. Bakı, BSU, buraxılış XX, 2016, s. 286.

3. Yeniyetmələrin humanistik tərbiyəsində ailənin rolu // Problemlər. Axtarışlar. Perspektivlər. Magistranların elmi məqalələr toplusu. Bakı, BSU, buraxılış XXI, 2017 (çapdadır).

4. Yeniyetmələrin humanistik tərbiyəsində pedaqoji ünsiyyətin rolu // Problemlər. Axtarışlar. Perspektivlər. Magistranların elmi məqalələr toplusu. Bakı, BSU, buraxılış XXI, 2017 (çapdadır).

**Dissertasiya işinin quruluşu**. Tədqiqat işi giriş, iki fəsil, altı yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSIL. TƏLİM PROSESİNDƏ YENİYETMƏLƏRİN HUMANİSTİK TƏRBİYƏSİNİN VASİTƏ VƏ YOLLARI

## 1.1. Humanistik tərbiyənin rolu, məzmunu və vəzifələri

Yeniyetmələrin tərbiyəsinin müasir konsepsiyasının əsasında təlim-tərbiyə prosesinin humanistləşdirilməsi və demokratikləşdirilməsi mühüm yer tutur. Ölkəmizin müasir dövrdə apardığı sosial, iqtisadi islahatları gənc nəslin tərbiyəsində humanistik tərbiyə sisteminin daha geniş və ətraflı istiqamət və istifadəsinin zəruriyyətini ön plana çıxarır. Bu baxımdan müasir təlim-tərbiyə prosesinin nəzəriyyəsində və praktikasında humanistik pedaqogikanın müddəalarını inkişaf etdirib tətbiq etmək çox aktual bir məsələ kimi alimlərimizin nəzəriyyələrində öz yerini tutur. Humanistik tərbiyənin əsas məqsədi şəxsiyyətin ahəngdar inkişafı kimi irəli sürülür və bu inkişafın əsasında yeniyetmələrin şəxsiyyətlərarası münasibətlərin humanistləşdirilməsi ilk növbədə nəzərdə tutulur.

Yeniyetmələrin humanisik tərbiyəsi gənclərdə yüksək mənəvi-intellektual hisslərinin inkişafına, dünyagörüşün genişlənməsinə və dərinləşməsinə əsaslı təkan verir, gənc nəslin şəxsi-sosial inkişafı üçün hərtərəfli əlverişli şərait yaradır.

“Humanistik tərbiyə cəmiyyətdə baş verən müxtəlif sosiallaşma aktlarında, gənclərin inkişafında, aparıcı bir mənəvi-sosial qüvvə kimi çıxış etmələrində həyata keçilir” (35, 78). Müasir cəmiyyətdə gənclərin, xüsusən yeniyetmələrin, təcrübəliyi, dinamik şəkildə inkişaf olmaları, intellektual nöqteyi nəzərdən daha yüksək pillələrə, qaxmaları kimi şəxsi keyfiyyətləri onların cəmiyyətin əsaslı bir yaradıcı qüvvəsi kimi çıxış etmələrinə kifayət deyil, bu prosesdə ilk növbədə onların ümumi mədəniyyətinin səviyyəsi, dünyagörüşünün, planetar xarakter daşıması, ziyalılığı, yüksək mənəvi-sosial keyfiyyətlərin inkişafı nəzərdə tutulur. Şəxsiyyətin humanistik tərbiyyəsi dünya təhsil prosesinin ən dərin tərəqqi xarakteri daşıyan tendensiya kimi qəbul olunur və onun əsas struktur vəzifələrindən biri yeniyetmə şəxsiyyətini daha dolğun və ətraflı təhlil etmək, onlarda yüksək mənəvi-sosial, intellektual keyfiyyətlərin yaranmasına hərtərəfli dəstək göstərməkdir. Bu baxımdan

yeniyetmələrin humanistik tərbiyəsində şəxsiyyət idarəolunan bir qüvvə kimi yox, yalnız yaradıcı kimi, sərbəst inkişaf edən bir insan kimi əsaslanır. Ümumiyyətlə, şəxsiyyətin inkişafını və mənəvi-sosial cəhətdən özünüreallaşması iki istiqaməti ilə təhlil olunur. Birinci istiqamət şəxsiyyəti statistik nöqteyi nəzərdən xarakterizə edir və bu da humanistik tərbiyənin əsas məqsədini təsdiq edir - ahəngdar və hərtərəfli inkişaf etmiş şəxsiyyət idealını formalaşdırmaq. Digər tərəfdən, şəxsiyyətin dinamik nöqteyi nəzərdən xarakterizəsı yeniyetmələrin birbaşa özünüinkişaf və özünüreallaşma prosesləri ilə bağlıdır. Bu baxımdan demək olar ki, məhz yeniyetmələrin inkişafında bu kimi proseslər humanistik tərbiyənin məqsədinin xüsusiyyətini müəyyən edir və şəxsiyyətin inkişafına və formalaşmasına, cəmiyyətlə birgə həmahənglik şəklində aparılmasına əlverişli şərait yaradır. Humanizm prinsipləri əsasında təşkil olunub aparılan tərbiyə prosesi yeniyetmələri onların şəxsi-sosial inkişafında qarşıya çıxan çətinliklərdən qoruyur, yəni gənclərə sivilizasiyasının yaranmasına əsaslar verir və şəxsiyyətin cəmiyyətlə həmahəng inkişafını mükəmməlləşdirir. Yeniyetmələrin humanistik tərbiyəsi cəmiyyətin bütün sosial tərbiyə institutları ilə birgə şəkildə aparılmalıdır (ailə, orta ümumtəhsil məktəblər, digər təhsil ocaqları və yaradıcı qurumlar, idman cəmiyyətləri, mədəniyyət ocaqları, müxtəlif və uşaq yeniyetmə birlikləri, ictimai təşkilatlar, inzibati orqanlar və s.). Yeniyetmələrin əsas vaxtları ailədə, orta məktəbdə keçirilir və valideynlərin, məktəbin pedaqoji kollektivinin yüksək səyləri və peşəkarlıqlarından da çox şey asılıdır. Məktəbdə, ailədə aparılan humanistlik tərbiyə yeniyetmələrdə bir sıra vacib şəxsi keyfiyyətlərin formalaşmasına şərait yaratmalıdır. Onlar xeyirxahlıq, qayğıkeşlik, həssaslıq, böyüklərə hörmət kimi keyfiyyətlərə nail olmalıdırlar və eyni zamanda, öz hərəkətlərində qəddarlığa, zorakılığa, yalana, biganəliyə yol verməməlidirlər və öz dostlarını və tanışlarını deviant xarakteri daşıyan hərəkətlərdən çəkindirməlidirlər.

Yeniyetmələrin humanistik tərbiyəsi onları məktəbin, sinif kollektivinin fəal üzvü olmaqlarına yönəldir, ictimai təşkilatların apardıqları tədbirlərində daimi iştirak etmələrinin müsbət əsaslarını yaradır, təlim-tərbiyə prosesi zamanı onların qarşısına qoyulan tələbləri dərindən başa düşüb müsbət şəkildə həyata keçirməyə kömək edir.

“Ailədə, məktəbdə digər təhsil ocaqlarında pedaqoji, psixoloji, sosioloji nöqteyi nəzərdən düzgün qulluq, yeniyetmələrlə aparılan humanistik tərbiyyə və onlardan səmərəli şəkildə yoldaşlıq, dostluq pozitiv şəxsiyyətlərarası münasibətlərin qurulmasında istifadə, insanın insana bəslədiyi ən ülvi hissləri inkişaf etdirir və yeni səviyyəyə yüksəldir” (49, 73). Yeniyetmələrin humanistik tərbiyəsi uşaqlarda belə keyfiyyətləri yaradır, yüksək səviyyəyə qaldıraraq, onlarda özlərinə möhkəm inam hissi, perspektivlilik, major xarakteri daşıyan, ümumi əhval-ruhiyyə şəraitini yaradır, yaradıcılıq potensiallarının dərinləşməsinə imkanlar yaradır. Humanistik tərbiyə yeniyetmələrin daxili azadlıq hissini pozitiv şəkildə real həyatdan nümayiş etdirmələrinə, pedaqoji rəhbərlik altında daha geniş, sosial-mənəvi cəhətdən cəmiyyətin ümumi inkişaf xəttinin fəal bir struktur hissəsi kimi çıxış etmələrinə zəmin yaradır. Bu nöqteyi nəzərdən, yeniyetmələrin humanistik tərbiyəsi onlarda planetar xarakter daşıyan şüurun və ümumbəşəri mədəniyyətin elementlərinin formalaşdırılmasına geniş imkanlar yaradır.

Yeniyetmələrin humanistik tərbiyəsi müəyyən şəkildə müəllim-şagird münasibətlərində yaranan dünyagörüşün xüsusiyyətlərini, pedaqoji kollektivin peşə mövqeyindən asılılığını aradan götürməyə geniş imkanlar verir. Müasir təlim-tərbiyə prosesində müəllim şagird münasibətlərin “obyekt-subyekt” şəklindən “subyekt-subyekt” şəkilinə çevirmək tendensiyası özünü biruzə verir. Humanist tərbiyəsi nöqteyi nəzərindən bu onunla bağlıdır ki, yeniyetmələrə, onların daha dolu özünü reallaşdırma imkanlarını həyata keçirtmək qabiliyyətlərinn formalaşmasında müəllim kollektivinin rolu, əsasən gənclərə onların inkişafında əlverişli imkanlar yaratmasında ibarət olsun. Bu nöqteyi nəzərdən, yeniyetmələrin humanistik tərbiyəsi onların şəxsi-sosial inkişafına qulluq etməsi ilə bərabər onların inkişaf istəklərini hərtərəfli stimullaşdırmaqla müəyyən olunur. Şəxsiyyətin humanistik tərbiyəsində pedaqoji kollektivin üzvləri və valideynlər yeniyetmələrin inkişafına və formalaşmasına zəmin yaradır və pozitiv və insani keyfiyyətlərin dərinləşməsinə təkan verir. “Humanistik tərbiyə yeniyetmələrin mədəniyyət aləminə daxil olmaqlarına və cəmiyyətdə baş verən və formalaşan sosial əlaqələrin daha dərindən başa düşməsinə kömək edir və

nəticədə təlim-tərbiyə prosesində yaranan müxtəlif pedaqoji vəziyyətlərdə özünümüəyyənləşdirmə imkanlarını əldə edir” (4, 112).

Yeniyetmələrin humanistik tərbiyəsinin əsas xüsusiyyətlərindən biri də odur ki, ümumiyyətlə tərbiyənin məqsədi hansısa abstrakt ideallar və sosial məqsədyönlülük əsasında qurulmur, bu proses zamanı humanistik tərbiyə yalnız şəxsiyyətin xüsusiyyətlərindən, onun inkişaf olunmasına dair tələblər üzərində qururlur. Humanistik tərbiyənin məqsədi ətraflı şəkildə təlim-tərbiyə prosesinin dialektikasını nəzərə alır, yeniyetmələrin daxili azadlıq hissiyyətini ahəngdar şəkildə pedaqoji rəhbərlikdə birgə təhlil edir və təhsil ocaqlarında aparılan təlim-tərbiyə işlərinin forma, üsullarını, vasitələrini, məqsədini və mahiyyətini gənclərin humanistik dəyərlərə yiyələnməsi ilə bağlayır. Yuxarıda qeyd olunanları nəzərə alaraq humanistik tərbiyənin ən mühüm vəzifələrini dünya pedaqoji fikri nöqteyi nəzərindən şərti olaraq aşağıdakı şəkildə qeyd etmək olar:

- şəxsiyyətin həyatın mənasını dərindən başa düşməsinin, cəmiyyətdə öz şəxsi-sosial mövqeyinin konkretləşdirilməsinin, özünün şəxsi-mənəvi unikallığını qəbul edilməsinin fəlsəfi dünyagörüşü baxımından oriyentasiyası və şəxsiyyətin inkişaf imkanlarının daha da genişləndirilməsi və dərinləşdirilməsi;
- şəxsiyyətin özünüifadə etmək prosesinin xüsusiyyətlərini dərindən təhlil edib onu humanistik tərbiyənin əsas məqsədinin bir vacib struktur elementi kimi qəbul etmək. Mümkün qədər yeniyetmə şəxsiyyətin mənəvi-intellektual inkişafına təkan vermək, onun yaradıcı potensialının yüksəldilməsinə əlverişli şərait yaratmaq və real həyatda fəal mənəvi-sosial mövqe tutmağa hərtərəfli (bütün sosial institutların köməyi ilə) yardım etmək;
- şəxsiyyətin ümumbəşəri dəyərlərinə dərindən yiyələnməkdə kömək olmaq, milli dəyərləri ətraflı şəkildə qəbul edib öz praktik faliyyətində onları rəhbər tutmaq, inkişaf etmək, cəmiyyətin ümumi mənəvi-sosial dəyərlərinə qiymət vermək bacarığını mükəmməlləşdirmək, həyatdə ən fəal mənəvi-sosial mövqe seçib cəmiyyətin demokratik tərəqqisinə kömək etmək;
- humanistik mənəviyyatın ümumbəşəri normalarının mahiyyətini dərindən təhlil etmək (xeyirxahlıq, qayğıkeşlik, həssaslıq, dostluq, yoldaşlıq, hörmət,

insanların sevincinə, dərdinə şərik olmaq, özünü başqasının yerində hiss etmək, qəddarlıqla fəal mübarizə aparmaq və s.). Ziyalılığı şəxsiyyətin xüsusi bir keyfiyyəti kimi qəbul edib onu hərtərəfli inkişaf etmək;

- vətənpərvərlik hissinin yüksəldilməsi, ümumbəşəri və milli mənəvi-sosial dəyərlərin vəhdətini qəbul edib real həyatda onlarla rəhbərlənmək, ölkənin qayda-qanunlarına dərindən hörmət etmək, yeniyetmələrdə tolerantlıq hissinin səviyyəsini daim yüksəltmək, şəxsiyyətin vətəndaş hüquqlarına hörmət göstərmək və ölkənin inkişafında fəal iştirak etmək;

- əməyə, əmək fəaliyyətinə yüksək səviyyədə hörmət bəsləmək, əməyi ölkənin yüksək dərəcədə inkişaf etmiş maddi-texniki bazanın vacıb bir struktur amili kimi qəbul etmək qabiliyyətinin formalaşdırılması, ölkənin iqtisadi imkanlarının yüksəldilməsi və bu yüksəlişin şəxsiyyətin mənəvi-sosial cəhətdən inkişaf etməsinə birbaşa təsir göstərən amilin paradiqmasını yeniyetmələrdə hərtərəfli inkişaf etdirmək, dərinləşdirmək;

- yeniyetmələr arasında humanistik mədəniyyətin formalaşdırılması, cəmiyyətin və şəxsiyyətin mənəvi-sosial tələbatlarının üst-üstə düşüb bir vəhdətdə çıxış etməsinin yüksəldilməsi yollarının və imkanlarının mükəmməlləşdirilməsi gənclərin sosiallaşma prosesində mühüm yer tutması humanistik tərbiyəsinin dəyərli və tərəqqi xarakteri daşıyan bir xüsusiyyəti kimi qəbul edilsin və cəmiyyətin bütün sosial institutları tərəfindən dəstəklənsin.

Yeniyetmələrin humanistik tərbiyəsi aşağıdakı müddəaları tələb edir.

1. Tərbiyə olunan şəxsə humanizm nöqteyi nəzərindən yaxınlaşmaq və onunla müxtəlif istiqamətdə iş aparmaq;

2. Tərbiyə olunan şəxsin hüquqlarına, onun azadlığına hörmətlə yanaşmaq;

3. Tərbiyə olunan şəxsin qarşısında onun imkanları çərçivəsində tələblər qoymaq və bu tələbləri ona (onun mənəviyyatına toxunmamaq şərti ilə) sadə, başa düşülən formada çatdırmaq;

4. şəxsiyyətin qarşısına qoyulan tələblərin imtinası zamanı onun mövqeyini təhlil etmək və onun mövqe seçiminə hörmətlə yanaşmaq, tərbiyə işini məqsədyönlü şəkildə davam etmək;

5. şəxsiyyətin müxtəlif fikirlərlərinə, maraq dairəsinə, tələblərinə, məktəb kollektivində əldə edilən statusuna, onun daxili aləminə hörmətlə yanaşmaq;

6. şəxsiyyətin humanistik tərbiyəsi zamanı onun qarşısına qoyulan məqsədləri ona aydın, sadə formada çatdırmaq, məktəb kollektivinin imkanlarından geniş istifadə etmək;

7. şəxsiyyətin müxtəlif mənəvi-intellektual, mənəvi-sosial keyfiyyətlərin yaradılması prosesində ona qarşı güc tətbiq etməmək, vəziyyəti səbirlə araşdırmaq;

8. şəxsiyyətin humanistik tərbiyəsində, ümumiyyətlə, cəzalandırmaq ideyası tamamilə aradan qaldırılmalıdır, şəxsiyyətin mənəviyyatını, hörmətini onun gözlərində yüksəltmək və onun kollektivdə tutduğu mövqeyə hörmətlə yanaşmaq;

9. şəxsiyyətin humanistik tərbiyəsi zamanı ona bu və digər keyfiyyətlərin formalaşdırılması prosesi zamanı şəxsiyyət tərəfindən imtina olunarsa (dini, humanitar səbəblər və s.) onu əqidəsinə ziddirsə, şəxsiyyətin mövqeyi qəbul olunmalıdır və hüquqları başa düşülməlidir.

Yeniyetmələrin humanistik tərbiyəsi özünəməxsus iş formaları ilə, üsulları ilə və spesifik xüsusiyyətləri ilə fərqlənir. Bir sıra pedaqogika və psixologiya, sosiologiya sahəsində çalışan alimlər (E.V.Bondarevskaya, B.S.Qerşunskiy, K.V.Qavriloviç, V.F.Volodko, Q.M.Andreyeva, E.N.Soroçinskaya, P.P.Pivnenko, A.V.Mudrik, L.İ.Ruvinskiy, A.N.Leontyev, D.İ.Feldşteyn, D.B.Elkonin və s.) hesab edirlər ki, yeniyetmələrin humanistik tərbiyəsi zamanı altı iş istiqamətindən (şərti olaraq) istifadə etmək məsləhətdir və bu iş istiqamətləri yeniyetmələri humanistik tərbiyəsini daha dolğun, daha məqsədyönlü şəkildə aparmağa geniş şərait yaradır. Bu iş istiqamətləri bunlardır: a) qayğıkeşliklə, hörmətlə, etimad göstərməklə yeniyetmələrin humanistik tərbiyəsini təşkil etmək; b)yeniyetmələrdə məsuliyyət hissini formalaşdıraraq, onların humanistik tərbiyəsini həyata keçirmək; c) yeniyetmələrdə yaradıcı keyfiyyətini formalaşdıraraq onların məqsədyönlü şəkildə tərbiyəsini təşkil etmək; d) həyatın reallığını düzgün, dərindən başa düşməklə yeniyetmələrdə fəal mənəvi-sosial mövqe yaratmaq; e) mənəvi hüquqi, vətəndaş, ekoloji, etik, estetik dəyərlərinə nail olmaqla, yeniyetmələrin dünyagörüşünü dərinləşdirib genişləndirmək; f) yeniyetmələrin təlim-tərbiyə prosesinin səviyyəsini

yüksəltmək ilə onları məktəbin (sinfin) ictimai həyatında fəal iştirak etmələrini təmin etmək.

Yeniyetmələrin humanistik tərbiyəsi özünəməxsus olan xüsusi qanunauyğunluqların əsasında qurulmalıdır. Bu qanunauyğunluqların əsası - şəxsiyyətin inkişafını və formalaşmasını ən yüksək səviyyədə həyata keçirməkdir. Bu baxımdan demək olar ki, nə qədər yeniyetmə şəxsiyyətini ahəngdar şəkildə ümumi mədəni, mənəvi-sosial və mənəvi-intellektual baxımdan inkişaf edibsə, o dərəcədə də o, gələcəkdə yaradıcı bir qüvvə kimi həyatda fəal mənəvi-sosial mövqe tutan mütəxəssis kimi özünü reallaşdıracaq. Hansı dərəcədə yeniyetmələr ümumbəşəri, milli dəyərlərə yiyələniblərsə, mənəvi, insani keyfiyyətlərə nail olublarsa, o dərəcədə humanistik tərbiyənin mədəni-humanistik funksiyası ümimi tərbiyə işində həyata keçirilib və demək olar ki, pozitiv nəticələr əldə olunub. Belə qanunauyğunluq humanistik tərbiyənin meqaprinsipini (şəxsiyyətin inkişafı və formalaşması tərbiyənin əsas məqsədidir) formalaşdırmağa imkanlar verir. Humanistik tərbiyənin əsas prinsiplərindən biri də təbiətə uyğunluqdur. Bu prinsip belə bir fikrin əsasında qurulur ki, tərbiyənin müxtəlif növü (humanistik tərbiyə xüsusən) dünyada baş verən təbii və sosial proseslərin elmi baxımdan dərindən başa düşülməsi əsasında həyata keçir. Yeniyetmələrin humanistik tərbiyəsi mütləq şəkildə şəxsiyyət onun "Mən" çərçivəsində və yaxın sosiun ətrafından çıxarıb, dünyada, planetdə baş verən və insan sivilizasiyasının problemlərini dərindən öyrənməklə, özünün şəxsi-sosial perspektivini aydın təsəvvür etsin, özündə təbiət və cəmiyyətə qarşı məsuliyyət hissi formalaşdırsın (45, 116). Şəxsiyyətin inkişafı və formalaşması onun ümumbəşəri dünya mədəniyyəti ilə ahəngdar şəkildə yüksəldilməsindən asılıdır və aparılan humanistik tərbiyənin dəyərli əsaslarından irəli gəlir. Bu qanunauyğunluq humanist tərbiyəninin digər vacib bir prinsipin əsasında qurulmasını tələb edir - məqsədəuyğunluluq. Yeniyetmələrin humanistik tərbiyəsi bu prinsipə əsaslanaraq onu nəzərdə tutur ki, şəxsiyyətin inkişafı və formalaşması mütləq şəkildə həm ümumbəşəri dəyərlərin, həm də etnik, regional dəyərlərin, mədəniyyətin əsasında aparılmalıdır. Bu səpkidə demək olar ki, şəxsiyyətin humanistik tərbiyəsi, onun forma, üsulları, vasitələri ahəngdar şəkildə dünyada baş verən prosesləri nəzərə alır

və gənclərin sosiallaşma prosesinin xüsusiyyətlərini dünya, planet məsələləri baxımından tarazlayıb həyata keçirməlidir. Ümumiyyətlə, mədəniyyət şəxsiyyətin inkişafı və formalaşması funksiyasını o vaxt daha dolğun şəkildə realizə edir ki, gənc nəsli daxili aləminə elə bir konstruktiv ideyalar yaranır ki, hansılar gəncləri gələcəkdə cəmiyyətin yaradıcı fəal qüvvəsinə çevirə bilər. Başqa sözlə fikrimizi ifadə etsək, nə qədər gənclərin praktik fəaliyyəti, hərəkətləri, həyatda tutduqları mövqe onlara maraqlıdır, müxtəlif istiqamətlərdə onlara ümumbəşəri dəyərlərə yiyələnməklərini təmin edirsə, o qədər gənclərə humanistik inkişafın dəyərlərini dərin qəbul edib mənəvi- sosial, intellektual növqteyi nəzərdən inkişaf edəcəklər. “Yeniyetmələrin humanistik tərbiyəsinin təsiri altında apardıqları praktiki fəaliyyəti, ümumbəşəri və milli dəyərləri ilə zənginləşmiş hərəkətləri onlara cəmiyyət tərəqqi yolunu öz şəxsi sosial yolu kimi qəbul etməyə geniş imkanlar yaradır” (19, 61). Ümumiyyətlə, demək olar ki, yeniyetmələrin humanistik tərbiyəsi məhz “subyekt-subyekt” münasibətləri əsasında olanda daha yüksək nailiyyətlərə yiyələnmək olar. Yeniyetmələrin humanistik tərbiyəsində fərdi-yaradıcı prinsip özünəməxsus vacib yer tutur. Bu prinsip yeniyetmələrin təlim-tədris prosesinə qarşı motivasiyalarını yüksəltməyə qadirdir və ümumiyyətlə, şəxsiyyətin qarşısında qoyulmuş məqsədə qarşı öz hərəkətini motivləşdirir və arqumentləşdirir. Qarşıya qoyulmuş məqsədi pozitiv şəkildə həll edərək yeniyetmələr öz qüvvələrinə inanırlar, çətinliklərdən çəkinmirlər, müxtəlif məsələlərin həlli yolunda öz fikirlərini söyləyirlər. Yeniyetmələrin humanistik tərbiyəsi prosesində istifadə olunan fərdi-yaradıcı iş prinsipi, yeniyetmələrin humanitar baza mədəniyyətinə nail olmaqlarına geniş təkanlar yaradır. Real pedaqoji təcrübədə yuxarıda sadaladığımız prinsiplərdən başqa (meqaprinsiplər) mütləq şəkildə pedaqogikanın ümumi prinsiplərindən geniş istifadə etmək lazımdır. Belə prinsiplərdən biri də yeniyetmələrin humanistik tərbiyəsini məktəb kollektivinin vasitəsilə həyata keçirməkdir. Əlbəttə, yeniyetmələrin humanistik tərbiyəsində kollektiv, qrup, fərdi iş formalarından geniş istifadə olunur, amma sinif kollektivi yeniyetmələrə onlara çox vacib olan şəxsiyyətlərarası münasibətlərin qurulmasına, inkişafına böyük imkanlar yaradır və gənclərin mənəvi cəhətdən dəyərləndirir. Məhz məktəb kollektivinin köməyi ilə yeniyetmələrdə

məsuliyyətlilik hisi, kollektivçilik, dostlara hər vaxt kömək əli uzatmaq qabiliyyəti formalaşır. Kollektiv yeniyetmələrə gözəl bir nümunə kimi çıxış edə bilər, davranışın qaydalarını öyrənirlər, şəxsiyyətlərarası münasibətlər qururlar, təşkilatçılıq vərdişlərinə yiyələnirlər. "Məktəb (sinif) kollektivi yeniyetmə şəxsiyyətin inkişafına, hərtərəfli formalaşmasına kömək edir ki, şəxsi-sosial nöqteyi nəzərindən həyatda reallaşmasına təkan verir" (40, 72).

Yeniyetmələrin humanistik tərbiyəsinin əsasında humanistik dünyagörüşü durur, hansı ki, şəxsiyyətin mənəvi-psixoloji keyfiyyətlərini insanın ən böyük, yüksək dəyərləri kimi qəbul edir. Məktəb (sinif) şəraitində yeniyetmələrin humanistik tərbiyəsi bir neçə istiqamətdə getməlidir və genişformalı nəticəni öz qarşısına qoymalıdır. Alimlərin fikrincə (V.T.Kabuş, L.V.Kondraşova, O.S.Qazman, L.V.Bayborodova, E.N.Şiyanov, İ.V.Kotova) məktəb (sinif) kollektivində aparılan yeniyetmələrin humanistik tərbiyəsi mütləq şəkildə qarşısına bu kimi məsələlərin pozitiv həllini tapmalıdır:

- müəllim və şagirdlər arasında yüksək səviyyədə formalaşmış və özünü birüzə vermiş qayğıkeşlik, emosional həssaslıq, başqalarının fikirlərini, əqidələrini başa düşmək qabiliyyətinin formalaşdırması, xeyirdə, şərdə dostlarından qıraqda qalmamaq, insansevərlik hissinin inkişafı;
- yeniyetmələrdə elə bir şəxsi mənəvi keyfiyyətlər yaradılmalıdır ki, onlar qarşısında duran adama (onun hansı dinə qulluq etməsindən asılı olmayaraq, hansı milliyyətdən aslı olmayaraq, hansı emosional-iradi keyfiyyətlərinə nümayiş olmalarına baxmayaraq) böyük hörmətlə, ehtiramla yanaşsınlar, hər bir insanın özü seçdiyi yolu ilə inkişaf etmək hüququnu inkar etməyib qəbul etsinlər, onun maraq dairəsinə, inkişaf səviyyəsinə hörmətlə yanaşsınlar;
- yeniyetmələrdə əməkdaşlıq qabiliyyətini formalaşdırmaq, birgə iş aparmaq tələbatını inkişaf etdirmək, real həyatda hər-hansı bir çətinlik, konflikt vəziyyəti yaranarkən, vəziyyəti pozitiv şəkildə, insan mənliyini, hüquqlarını inkar etməməklə, sülh yoluyla həll etmək;

- yeniyetmələrin humanistik tərbiyəsi zamanı məktəbdə (sinifdə) emosional baxımdan stimullaşdırıcı mühitin yaranması, konstruktiv şagirdlərarası münasibətlərin qurulması;

- yeniyetmələrin humanistik tərbiyəsi zamanı elə iş formalarından, üsullardan, vasitələrdən istifadə etmək lazımdır ki, onlar vəhdətdə gənclərin yaradıcılıq qabiliyyətinin formalaşmasına təkan versinlər, intellektual potensialı yüksəldsinlər, müəllimlərin, şagirdlərin pedaqoji və humanistik mədəniyyət səviyyəsi daimi yüksəltsinlər və yeniyetmələrin gələcəkdə özlərini şəxsi-sosial baxımdan tam reallaşdirmağa əlverişli şərait yaratsınlar.

## 1.2. Humanitar fənnlərin tədrisi prosesində yeniyetmələrin humanistik tərbiyəsi

İnsan cəmiyyətinin, hər bir ölkənin, millətin gələcəyi gənc nəslin təhsil və tərbiyə sistemindən, onların həyata və fəal praktiki fəaliyyətə hazır olmalarının keyfiyyətindən asılıdır. Müasir dövrdə gənc nəslin təlim-tərbiyə prosesinin mürəkkəbləşməsi, çoxistiqamətliliyi cavanların qarşısına müəyyən vəzifələr və tələblər qoyur. Demokratiya yolu ilə inkişaf edən cəmiyyət gənclərin yüksək bilik səviyyəsinə malik olmalıdırlar, onlar cəmiyyətdə baş verən çoxistiqamətli proseslərin lazımı dərəcədə izləyib, nəticə çıxarmağa malik olmalıdırlar. Təhsil ocaqlarında aparılan təlim- tərbiyə prosesi zamanı gənclər özlərinin bilik potensialını dərinləşdirib genişləndirməlidirlər, yeni biliklərə nail olmalıdırlar və əldə etdikləri məlumatı dərindən təhli etmək bacarığını özlərində formalaşdırmalıdırlar.

“Yeniyetmələr yeni əldə olunmuş bilikləri sintez etməyi bacarmalıdırlar, yaradıcı fəaliyyətə hazır olmalıdırlar, müxtəlif mədəniyyətlərin dialoquna fikir verməlidirlər, şəxsiyyətin özünüreallaşdırmaq və özünümüəyyənləşdirmə proseslərini dərin təhlili edib arqumentləşdirmək bacarığına malik olmalıdırlar” (10, 37). Orta ümumtəhsil məktəblərdə və digər tədris ocaqlarından tədris olunan humanitar fənnlərin məzmunu yeniyetmələrin humanistik tərbiyəsinin düzgün aparılmasına və dərindən başa düşülməsinə geniş imkanlar yaradır. Yeniyetmə şagirdlər humanitar fənlərin tədrisi zamanı yeni biliklər əldə edirlər, şəxsiyyətin inkişafı və formalaşması

proseslərinin xüsusiyyətlərini öyrənirlər, ümumiyyətlə insanın sosial və biososial əsaslarına fikir verirlər, cəmiyyətdə şəxsiyyətə verilən tələblərlə tanış olurlar, gənclərin konstruktiv şəkildə özünüreallaşdırma prosesinin pozitiv yollarını və şərtlərini daha dərindən başa düşüb təhlil edirlər. Yeniyetmələrin humanistik tərbiyəsində, onların mənəvi-intellektual inkişafında, vətəndaşlıq şüurunun formalaşmasında, kommunikativ bacarıqların əsasının müəyyən etməkdə, ətraf mühitə qarşı emosional-dəyərli münasibətin yaranmasında, estetik mədəniyyət səviyyəsinin yüksəldilməsində məktəbdə tədris olunan humanitar fənlərinin böyük potensialı vardır. Nəzəri-ədəbi anlayışlarla tanış olaraq, dil və nitq qabiliyyətinin səviyyəsini yüksəldərək, bədii əsərlərin təhlili zamanı yeniyetmələrin dünyagörüşünün əsasları daha da möhkəmlənmir, onlarda daha ciddi şəkildə şəxsiyyətlərarası və mədəniyyətlərarası dialoqun aparılması üçün lazımi keyfiyyətlər formalaşır.

Humanitar fənlərin tədrisi yeniyetmələrə yüksək mənəvi davranışın nümunələrini təqdim edir, şəxsiyyətin daxili aləminin varlığını göstərir, gənclərin pozitiv sosial təcrübəsini genişləndirir və dünyada ümumbəşəri dəyərlərini dərindən başa düşüb yiyələnməklərinə ciddi bir surətdə kömək edir. İctimai elmlərin əsaslarını mənimsəyərək, yeniyetmələr çox zəngin tarixi, sosial, coğrafi məlumatlarla varlanırlar, bu birliklər, ümumiyyətlə, onların təbiət haqqında ətraflı bilik əldə etməsinə geniş imkanlar yaradır. İctimai birliklər, bəşəriyyət tarixinin əsas mərhələlərindən söhbət açır, ölkələrin tarixi qanunauyğunluqlarındna məlumat verirlər, coğrafi mühitin xüsusiyyətlərini dərindən təhlil edib, yeniyetmə şagirdləri ciddi şəkildə intellektinin səviyyəsini yüksəldirlər. İctimai elmlərin tədrisi zamanı yeniyetmələr insanların keçmiş və bu günün hadisələrinə münasibətlər təcrübəsini daha ətraflı şəkildə mənimsədirlər, demokratik cəmiyyətin dəyərlərini dərindən başa düşürlər, şəxsiyyətdə tolerantlıq, vətəndaşlıq mövqeyinin, vətənpərvərlik kimi keyfiyyətlərin formalaşmasına zərurət kimi qəbul edirlər. İctimai fənlərin tərbiyə potensialı yeniyetmə şagirdlərin sosial adaptasiya məsələləri ilə çox yaxından bağlıdır, belə fənlər yeniyetmələrdə ümumiyyətlə, cəmiyyətin surətlə dəyişən ictimai-

sosial həyatın xüsusiyyətlərinə qarşı sosial mobillik kimi keyfiyyətin yaranmasına təkan verir.

Humanitar fənlərin tədrisi yeniyetmələrin öz vətənpərvər mövqeyini təqdim etmək üçün geniş şəraitlər yaradır və yeniyetmə-şagirdləri məktəbin özünüidarə orqanlarında fəal iştirak etmələrinə təkan verir. Humanitar fənlərin tədrisi yeniyetmələrin insanlararası sosial-iqtisadi, qarşılıqlı fəaliyyətin əsaslarını, parametrlərini dərindən başa düşməsinə imkanlar yaradır. Humanitar elmlərin məktəbdə tədrisi yeniyetmələrdə siyasi diskussiya aparmaq təcrübəsini zənginləşdirir, onlarda sosial mənalı fəaliyyətdə fəal iştirak etmələrinə daxili tələbatlar yaranır. Yeniyetmələr məktəb muzeyinin fəaliyyətində çox həvəslə iştirak edirdilər, tarixidiyar qurumların fəaliyyətində çox məmnuniyyətlə iştirak edirlər, müxtəlif uşaq, yeniyetmə fondları və cəmiyyətin digər sosial institutları ilə, ictimai təşkilatlarla, dövlət müəssisələri ilə sıx əlaqələr yaradırlar. Yeniyetmələrin insanların mənəvi keyfiyyətlərinə göstərdikləri maraq, davranış qaydalarının əsaslarını dərindən öyrənilməsi, istəkləri, insanlararası münasibətlərin xüsusiyyətlərin mənimsənilməsi onlarda yüksək səviyyədə formalaşmış mənəvi idealın əmələ gəlməsinə geniş imkanlar yaradır. “Humanitar fənlərin tədrisi yeniyetmələrdə ən yüksək səviyyəli bədii zövqlərin formalaşmasına səbəb olur, onu daimi inkişaf etdirir, gənclərdə yüksək ictimai estetik ideallarının, gözəlliyin dərindən başa düşməsinə imkanlar yaradır” (38, 125).

Humanitar fənlərin tədrisi yeniyetmələrə insanlararası münasibətlərin estetik mənzərəsini təqdim edir, onları incəsənətin və ədəbiyyatın sirli aləminə aparır, bu gözəlliyin dünyalılığının anlamasına kömək edir, gənclərdə bu gözəlliyi qorumaq, bəsləmək və inkişaf etdirmər kimi hisslərin oyanmasına səbəb olur. Orta ümumtəhsil məktəblərdə humanitar fənlərin tədrisi zamanı aparılan humanistik tərbiyə yeniyetmələrə insanlararası münasibətlərin gözəlliyini, bədii obrazların həyəcan hissi keçirmələrini, gözəlliyin çoxformallığını, həyatın estetikasını başa düşüb mənimsənilməsinə kömək edir. Yeniyetmələrin humanistik tərbiyəsi humanitar fənlərin tədrisinin köməkliyi ilə gənclərdə təbiətə qarşı yüksək və estetik hisslər oyadır, doğma yurdun, yaşadığı ərazinin gözəlliyini pillə-pillə uşaqların şüuruna

çatdırır, gözəlliyi hərtərəfli qorumaq cəhdi yaradır. Humanitar fənlərin tədrisindən məsələn, ədəbiyyat dərsində, yeniyetmələr çoxsaylı bədii obrazlarla rastlaşırlar və onların həyatına, öz hərəkətlərinə münasibətləri uşaqların gözlərinin qabağından keçir. Çox zaman yeniyetmələr bir obrazı üstün tutub, ona öz real həyatında nəyin bahasına olursa-olsun bənzəmək istəyir. Bu cəhətdən demək olar ki, həmin yeniyetmələrdə, onların daxili aləmindən mənəvi motiv yetişib ki, həyatlarını konkret bədii obrazın həyatı kimi qursunlar. Yaranmış vəziyyət o qədərdə sadə deyil, çünki istənilən bədii obraza bənzəmək istəyi, o, mənfi ola bilər, yeniyetmələrin belə bədii obrazları özlərinə həyatda bir nümunə kimi seçmələri onların gələcək həyatlarının çətinliklərlə rastlaşmasından xəbər verir. Məhz məktəblərdə aparılan humanistik tərbiyə belə halların qarşısını ala bilər, pedaqoji kollektiv yeniyetmələrə insanlararası münasibətlərin əsl, real gözəlliyinin əsaslarını çatdırmalıdır, onların səhvlərdən, yaş xüsusiyyətlərinə görə, həyat təcrübələrinin olmaması səbəbindən yalançı iddialara bənzəməkdən qorumalıdırlar.

Humanitar fənlərin tədrisində müəllim şəxsiyyətindən də çox şey asılıdır, əgər müəllim, zəngin bir bədii ədəbiyyatı çox sadə, darıxdırıcı səslə yeniyetmələrə çatdırısa, əsərin əsas qəhrəmanlarının hisslərini, hərəkətlərini uşaqlarla birgə dərindən təhlil etmirsə, yeniyetmələr əsərini gözəlliyini başa düşməyəcəklər, əsərdə göstərilən hissləri, insanı keyfiyyətləri duya bilməyəcəklər. Məktəbin pedaqoji kollektivi belə halların qarşısını almalıdır, yeniyetmələrin estetik bədii tərbiyəsinə ciddi fikir verməlidir, uşaqlarla aparılan humanistik tərbiyənin məzmunu, bədii əsərlərdə göstərilən obrazların davranış hərəkətlərində, münasibətlərində öz müsbət əksini tapmalıdır və gənclərdə daxili ruh yüksəkliyi yaratmalıdırlar.

“Humanitar elmlərin tədrisi prosesində yeniyetmələrin humanistik tərbiyəsi böyük bir tərbiyəvi vəzifələr kompleksinin reallaşmasına şərait yaradır” (30, 92). Yeniyetmələr ədəbiyyat, tarix, coğrafiya dərslərində müxtəlif xalqların mədəni estetik nailiyyətləri ilə tanış olurlar, keçmişdə, müasir dövrdə rəssamların yaratdığı əsərlərli dərindən təlil edirlər. Yeniyetmələr humanitar fənlərin tədrisi zamanı əldə etdikləri bilikləri, ümumbəşəri dəyərlərə yiyələnməklərindən çox faydalı istifadə edə bilərlər. Fəlsəfə, din, incəsənət sahəsində əldə olunmuş biliklər potensialı yeniyetmələrin

humanist dünyagörüşünün formalaşmasına böyük köməklik göstərir. Humanitar fənlərin tədrisi zamanı yeniyetmələrin incəsənətin müxtəlif növləri ilə tanışlıq meyilliyi dünya ədəbiyyatının gözəlliyini dərindən duyması və onlarda sözün əsl mənasında tolerantlıq keyfiyyətini inkişaf etdirir və müxtəlif xalqların milli dəyərlərinə hörmət hissi oyadır. Yeniyetmələrin humanistlik tərbiyəsi prosesində onlara insanpərvərlik, insaniyyətlik, insanın şəxsi mənafeyinə hörmət kimi keyfiyyətlərə nail olurlar və bu keyfiyyətləri gündəlik hərəkətlərində, davranışlarında rəhbər tutaraq real həyatda fəal şəxsi-sosial mövqe tuturlar. Humanistik tərbiyənin əsas məqsədlərindən biri yeniyetmələrdə humanist xarakteri daşıyan şəxsi keyfiyyətlərin formalaşdırılmasıdır və məktəbin pedaqoji kollektivinin, valideynlərin səyi ilə bu keyfiyyətlər şəxsiyyətin təbiətinin ayrılmaz bir struktur hissəsi olmalıdır. Bu baxımından qeyd etmək lazımdır ki, ən yaxşı yaşlı nəslin səyləri ilə birgə yeniyetmələrin özlərinin də daxili səyləri vacib bir tələb kimi qəbul olunmalıdır. Humanitar fənlərin tədrisi zamanı qarşıya qoyulan kiçik məqsədlərdən biri də yeniyetmə-şəxsi yaradıcı təlim fəaliyyətinin fəal subyektinə çevirməkdir. Yeniyetmələrin humanistik tərbiyəsində istifadə olunan humanitar fənnlərin potensialı gənclərdə sülhsevərlik, qardaşlıq, birlik, qarşılıqlı hörmət, qarşılıqlı kömək kimi keyfiyyətlərin formalaşmasına kömək edir, müharibəni ümumiyyətlə, hər hansı bir konfliktin həlledici vasitəsi kimi qətiyyətlə rədd edir, dini, etnik məsələlərin həllində tolerantlıq, insanpərvərlik keyfiyyətləri mütləq şəkildə üstün tuturlar. Yeniyetmələrin humanistik tərbiyəsində pedaqoji kollektivlər, valideynlər, ağsaqqallar, uşaqları geniş miqyasda düşünməyi öyrədirlər. “Yeniyetmələr nəinki hazırda məşğul olan işin mənəvi məqsədinə çatmaq üçün cəhd göstərməlidirlər, eyni zamanda onlar bu məqsədə çatmaqda elə bir hərəkət alqoritmini seçməlidirlər ki, onların səyləri əsas insani dəyərlərə ən yüksək dərəcədə müvafiq olsun və insan şəxsiyyətinin varlığını ən yüksək səviyyəyə qaldırsın” (24, 73).

Humanitar fənlərin tədrisi yeniyetmələrin humanistik tərbiyəsini zənginləşdirir şəxsiyyətin daxili aləminin incəliklərini daha dərin başa düşməyə imkanlar yaradır,insanın təbiətinə, onun emosional-psixoloji dünyasın təhlil etməyə kömək göstərir, mənəvi keyfiyyətlərin insan aləmində vacibliyini gənc nəslin diqqət

mərkəzinə çevirir. Humanitar fənlərin arasında tarix fənninə böyük diqqət yetirilir. Tarix fənni, alimlərin fikrinci, kompleks xarakteri daşıyan bir finndir, hansı ki öz tərkibində demoqrafik məsələlərə toxunur, qgdim, orta əsrlər zamanı, müasir dövrdə insanlararası münasibətləri dərindən təhlil etməyə qadirdir. Qədim və orta əsrin məhşur adamların mənəvi keyfiyyətlərini aşkar edib müasir dövrdə yaşayan gənc nəslin diqqətinə çatdırır. Padşahlar, imperatorlar, varlı vg yoxsul adamların əqidəsini, onların bu və ya digər qərarı qəbul etməsinin əsaslarını təhlil edir, müasir şagirdlərdə o zamanın mənəvi-sosial vəziyyətini araşdırır və şəgirdlərin biliklərini daha yüksək səviyyəyə yüksəldir. Tarix fənni dünyanın sosial mənzərəsini dərindən başa düşmək üçün müəyyən faktoloji əsaslar yaradır, dünyanın sosial mənzərəsini inkişafda, pilə-pillə təhlil edərək yeniyetmələrin şüuruna çatdırır. Tarix fənni cəmiyyətin inkişaf qanunlarını arasında olan əlaqələri dərindən nəzərdən keçirir, hər tarixi zamanın ona məxsus olan mənəvi-sosial dəyərlərini müasir şagirdlərin diqqətinə təqdim edir. Tarix fənni insanın mənəvi-sosial keyfiyyətlərini nə dərəcədə qədim, orta əsr zamanı cəmiyyətin varlığı sayılıbsa, onun əsaslarını təhlil edib yeniyetmələrə təqdim edir. Ədəbiyyat dərslərində yeniyetmə-şagirdlərin qarşısında müxtəlif dünyagörüşü xarakteri daşıyan problemlər qoyur. Yeniyetmələr Nizaminin, Füzulinin, Tusinin, Vazehin, Sabirin, Axundovun, Zərdabinin əsərlərini oxuyub orada qoyulan mənəvi problemlərlə tanış olurlar, müəyyən həyat təcrübəsi yığırlar, marifçilərin qiymətli fikirlərini öyrənib öə praktik hərəkətlərini, davranışlarını yenidən dərindən təhlil edib müsbət bir nəticə əldə edirlər. Yeniyetmələrin humanistik tərbiyəsində humanitar fənlərdən biri «İnsan və cəmiyyət» çox vacib bir məna kəsb edir. Bu fənn insanın cəmiyyətlə müxtəlif istiqamətli, müxtəlif səpkili əlaqələrini təhlil edir yeniyetmələri dünyagörüşü biliklərə yiyələnməyə çağırır, təbiətdə, dünyada baş verən hadisələrin insan aləminə təsirindən danışır, şəxsiyyətin müəyyən mənəvi-sosial keyfiyyətlərinə nail olmağının əsaslarını təhlil edir, mənəvi varlığın yüksəldilməsinə aparan yolları araşdırıb, həyatda fəal sosial mövqe tutulmasına geniş imkanlar yaradır.

Yeniyetmələrin humanistik tərbiyəsində iqtisadi coğrafiya fənni özünəməxsus vacib funksiyaları yerinə yetitirir. Bu fənn müxtəlif sosial, iqtisadi, demoqrafik xarakteri daşıyan suallara toxunur, məsələn, cəmiyyətin sosial strukturunun insanların

emosional-psixoloji aləminə təsirini, cəmiyyətdə mövcud iqtisadi vəziyyətin hansı dərəcədə gənc nəslin mənəvi-sosial formalaşmasına öz təsirini göstərir. İqtisadi coğrafiya dünya ölkələrin problemlərindən, iqlimindən, mənəvi keyfiyyətlərindən, ölkələrin bir-birindən fərqlərini göstərir və səbəblərini araşdırır. Humanitar fənlərin arasında «Konstitusiyanın əsasları» kimi fənn çox vacib bir sosial-hüquqi mahiyyətə malikdir. Yeniyetmələr Konstitusiyanın əsaslarını öyrənirlər,hökümətimizin gənc nəslə qarşı yönəltdiyi diqqəti görürlər, qiymətləndirirlər. Konstitusiyanın, demək olar ki, hər bir bəndi insanın inkişafına, daha da dərin və dolu formalaşmasına qulluq edir. Yeniyetmələr Konstitusiyanın bəndləri ilə tanış olanda görürlər ki insanın ən böyük varlığı onun mənəvi varlağıdır, insaniyyətliyidir, insanpərvərliyidir. Humanitar fənnlər cəmiyyətin maddi və mənəvi dəyərlərini dünyaya gətirən xalqın zənginliyindən, dünyagörüşündən, dirin tarixindən danışır, yeniyetmələri xalqın zəngin ənənələrinə əsaslanıb öz gələcək həyatlarını mənəvi cəhətdən gözəlləşdirməyə çağırır. Yeniyetmələrin humanistik tərbiyəsində öz vacib yerini tutan humanitar fənnlər gənc nəsildə alturizm tendensiyasını formalaşdırır, insan insanın müxtəlif problemlərinə (xeyir, şər) biganə olmamağının əsaslarını möhkəmləndirir. Humanitar fənnlər yeniyetmələri daimi xeyirxah işlər görməyə yönəldir, insanları cəmiyyətin yalnız sosial üzvləri kimi qəbul olmamağını tələb edir, insan insana qardaş, yaxın bir adam olmalıdır.

Humanitar fənnlərin tədrisi yeniyetmələri vətənpərvərlik ruhunda formalaşdırır, hüquqi demokratik cəmiyyətin üəvləri kimi inkişaf etmələrinə geniş imkanlar yaradır, milli, dini tolerantlığa yönəldir, etnik münasibətlərin mədəniyyətini formalaşdırır. Orta ümumtəhsil məktəblərində humanitar fənlərin tədrisi mütləq şəkildə yeniyetmələrin təhsil, tərbiyə vg inkişaf problemlərini vəhdətdə pozitiv şəkildə həll etməlidir və mümkün qədər dərs prosesində yeni, qabaqcıl texnologiyalardan istifadə olunmalıdır. Yeniyetmələrin humanistik tərbiyəsində humanitar fənnlərin tədrisi müəyyən vəzifələri mütləq şəkildə həyata keçirməlidir və gənclərin şəxsi-sosial formalaşmasına böyük kömək göstərməlidir.

Real həyatda rast gələn müəyyən çətinliklərin müsbət həll etmək üçün yeniyetmələrdə daxili mənəvi qüvvənin, bacarıqların, vərdişlərin formalaşması

məqsədyönlü şəkildə aparılmalıdır və məktəbin pedaqoji kollektivi bu işdə səylərini əsirgəməməlidir.

- yeniyetmələrin təbii və sosial mühitə daha ətraflı adaptasiya olmaları üçün onlarda daxili iradəni və mənəvi cavabdehlik keyfiyyətlərin ciddi şəkildə formalaşması;

- yeniyetmələrin gələcək həyatına uğurlu addım atmaları üçün onlara məktəb şəraitində şəxsi və peşə inkişafına çoxistiqamətli imkanlar yaransın və bu işə peşəkarlar cəlb edilsin;

- humanitar fənlərin tədrisi elə şəkildə aparılmalıdır ki, yeniyetmələr kütləvi informasiya vasitələrinə təqdim etdikləri informasiyanın təhlilində və düzgün başa düşməsində çətinliklər çəkməsinlər. KİV məlumatları insanpərvərlik nöqteyi nəzərindən gənclərlə qəbul edilsin;

- yeniyetmələrin humanistik tərbiyəsi zamanı onlar intellektual, mənəvi azadlıq hissinə malik olsunlar, şəxsi-sosial özünüreallaşdırmaqda özlərinəməxsus olan yolları seçsinlər;

- yeniyetmələrin yaradıcısı fərdiliyinin yaranmasına geniş imkanlar yaransın, gənclərin mənəvi potensialının çiçəklənməsinə təhsil ocağının müdiriyyəti əlindən gələni əsirgəməsin.

Humanitar fənlərin tədrisi yeniyetmələrin humanistik idealını formalaşdırır, bu o deməkdir ki, bu idealda şəxsiyyətin mənəvi-sosial tələbləri ahəngdar şəkildə öz əksini tapmalıdır, insanlararası münasibətlər humanist xarakter daşımalıdır. Yeniyetmələrin humanistik tərbiyəsində şəxsiyyətin özü-özünün tərbiyəsi ilə, inkişafı ilə məşğul olması mühüm biri amil kimi qəbul olunmalıdır, özünütərbiyə və özünüinkişaf və özünütəsvir motivləri yeniyetmələrin inkişafında əsas yer tutmalıdır.

“Yeniyetmələrin real həyatda davranışı, hərəkətləri, münasibətləri, istəkləri, arzuları, tələbləri mütləq şəkildə humanitar fənlərin tədrisi zamanı formalaşmış humanizm etalonuna müvafiq olmalıdır” (32, 54). Alimlər belə hesab edirlər ki, müasir dövrdə təhsil ocaqları, ilk növbədə öz yetirmələrini mənəvi müdafiəsinə ciddi fikir verməlidir, çünki real həyatın mənfi mühiti yeniyetmələri insani keyfiyyətlərin qavrayıb həyatda onlarla rəhbərlənmək qabiliyyətini müəyyən şəkildə poza bilər.

Məsələn, əgər məktəb kollektivində çətintərbiyə olunan uşaqların sayı çoxdursa və onların deviant hərəkətlərinin qarşısı alınmırsa, məktəbin ümumi şagird kollektivinə bu çox pis təsir edə bilər. Onlar elə başa düşə bilərlər ki, müəllimlər onlarla humanistik tərbiyə haqqında saysız-hesabsız söhbətlər aparılar, amma reallıqda məktəbin çətintərbiyəolunan uşaqlara heç bir münasibət göstərmirlər, münasibətləri pozmurlar, öz şəxsi həyatlarını mürəkkəbləşdirmirlər. Belə hallara yol vermək olmaz, pedaqoji kollektiv yeniyetmələrin humanistik tərbiyə sistemini qurarkən, onu da nəzərə almalıdır ki, onların uşaqlara dedikləri sözlər real həyatda öz lazımi əksini tapsın. Əlbəttə, ədəbiyyat, incəsənət dərslərində, bütün humanitar fənlərin tədrisi zamanı yeniyetmələrin şüuru aparılan humanistik tərbiyə nəticəsində zənginləşir, amma buna baxmayaraq, real həyatda əks humanitik hallara yol verilməməlidir. Yalnız bədii ədəbiyyatın obrazları bu halın qarşısını ala bilməz. Bəzən belə bir vəziyyətə rast gəlmək olar, müəllimlər humanistik tərbiyəni təşkil edir, həyətə keçirəndə insanın humanistik keyfiyyətlərə mütləq şəkildə nail olmağa çağırırlar və onları ümumiyyətlə şəxsiyyətin ən yüksək səviyyəli varlığı kimi izah edirlər. Lakin məktəbdə elə müəllimlər, şagirdlər var ki, onlar belə söhbətlərə inanmırlar, humanist keyfiyyətləri, heç bir varlıq kimi qəbul etmirlər və həyatda ən böyük varlığı pulda, əşyada, vəzifədə görürlər. Belə iki amilləri qarşı-qarşıya qoymaq olmaz, mütləq şəkildə vəziyyətdən çıxış yolu tapıb yeniyetmə-şagirdləri düzgün istiqamətdə yönəltmək lazımdır. Əlbəttə, humanitar fənlərin tədrisində yeniyetmələrlə aparılan humanist tərbiyəyə uyğun mövzular fənlərin tərkibində öz yerlərini tapmalıdırlar. Nəzərə almaq lazımdır ki, yeniyetmələrin hələ lazımı dərəcədə həyatı və sosial təcrübələri yoxdur. Onlar psixoloji, pedaqoji, sosioloji nöqteyi nəzərdən o qədər də inkişaf etməyiblər və çox dəqiqliyi ilə pisi yaxşıdan ayıra bilmirlər. Əgər ədəbiyyat dərsində hansısa bir bədii əsərin baş qəhrəmanı oğrudursa, cinayətkardırsa, amma müəllif onun hərəkətlərini, davranışını mənfi romantika fonunda veribsə, yeniyetmələr ola bilsin ki, əsərin ideyasını o qədər də dərindən başa düşməyib, məhz bu mənfi romantikanı üstün tutub ona məxsus keyfiyyətlərə yiyələnməyə cəhd göstərəcək. İncəsənət dərslərində həmçinin dəyərli musiqi əsəri iştirak edəndən sonra tamaşaçılarını xüsusən də cavanların rəğbətini yüngül yolla qazanmaq istəyirsə, o

musiqi alətlərini səhnəni döşəməsinə vurur, sındırır, lazım olmayan şüarları uca səslə çığırır. Humanitar fənlərin proqramlarını tutanda belə incəliklərə xüsusən fikir verilməlidir və mövzular daha ciddi xarakter daşımalıdır, əlbəttə, reallıqda bədii əsərdə mənfi obrazlar vardır, bundan baş qaçırmaq olmaz, məhz belə vəziyyətlərdə humanitar fənləri tədris edən müəllimlərin çiyninə məsuliyyətli bir iş düşür. Onlar gərək öz peşəkarcasına yeniyetmələrə əsəri düzgün başa salmalıdırlar, müsbət qəhrəmanları mənfi qəhrəmanlardan seçmək qabiliyyətini uşaqlarda formalaşdırmalıdırlar. Yeniyetmələrin humanistik tərbiyəsində humanitar fənnlərin tədrisi olduqca mühüm bir rol oynayır, demək olar ki, məhz bu fənnlərin tədrisində yeniyetmələrdə əsasən humanist keyfiyyətlər formalaşır və bu səbəbdən təhsil ocaqlarında humanitar fənnlərin tədrisinə çox ciddi yanaşmaq lazımdır.

## 1.3. Təbiət fənnlərinin tədrisi prosesində yeniyetmələrin humanistik tərbiyəsi

Yeniyetmələrin humanistik tərbiyəsində təhsil ocaqlarının təlim-tərbiyə prosesi zamanı tədris olunan təbiət fənnləri özünəməxsus vacib yer tuturlar. Təbiət fənnlərinin tədrisi zamanı yeniyetmələrin fizika, kimya, biologiya, coğrafiya, riyaziyyat, astronomiya sahələrində əldə etdikləri biliklərin səviyyəsi yüksəlir, onlarda təbiətə, biosferaya qarşı emosional-qiymətləndirici münasibətlər dərinləşir, planetin ekoloji sabitliyinə qarşı apardıqları işlərin məsuliyyəti daimi inkişaf edir. Təbiət fənnlərinin tədrisi zamanı yeniyetmələrin təbii mühitin obyektlərinə qarşı estetik münasibəti formalaşır və dərinləşir, onlarda ekoloji mahiyyət daşıyan praktik fəaliyyətin əhəmiyyəti yüksəlir və əldə etdikləri təcrübənin hüdudları genişlənir.

Yeniyetmələrin  orta məktəbin sahəsində bitən bitkilərə qarşı ekoloji fəaliyyətin səviyyəsini yüksəltmək üçün gənclərə aid müxtəlif praktiki (təbii xarakteri daşıyan) hərəkətlərə cəlb etmək lazımdır (məktəbdə ekoloji mərkəzlərin yaradılması, məktəb meşəçiliyin qurulması, təbii mahiyyəti olan proqramların yaradılması və yeniyetmələrin onlara yiyələnməsi, ictimai təşkilatlarla birgə aparılan işlər, gənc texniklər stansiyasının yaradılması və s.). Təbii fənnlərin tədrisi zamanı yeniyetmələrin humanistik tərbiyəsi daha məqsədyönlü şəkildə aparılması üçün

gəncləri planetin ekoloji vəziyyəti ilə geniş şəkildə tanış etmək lazımdır, bu problemlərin pozitiv həllində böyük səylər göstərən məşhur insanların fəaliyyətindən danışmaq lazımdır, biosferanın sağlam olmasında elmin rolunu göstərmək lazımdır. “Təbiət fənnlərinin tədrisi zamanı yeniyetmələr nəinki cəmiyyətin təbii inkişaf qanunları ilə tanış olurlar, onlar özlərinin insani mahiyyətini, keçmişlərini və indiki mövcud vəziyyətlərini öyrənirlər” (44, 127). Gənclər insanlararası münasibətlərin, ictimai şəxsi münasibətlərin təbiətini, onların formalarını, vasitələrini öyrənirlər və özlərini bir şəxsiyyət kimi müəyyənləşdirməyə əsaslar yaradırlar.

Qeyd etmək lazımdır ki, təbii elmlər hər vaxt humanistik xarakteri daşıyırdılar və insanların ümumi dünyagörüşünün əsaslarını formalaşdırırdılar. Məsələn, fizika, riyaziyyat, kimya və digər təbii elmlər fəlsəfənin, sosiologiyanın, tarixin və idrak nəzəriyyəsi kimi fənnlərin inkişafında böyük yer tuturlar. Təbii fənnlərin təhsil ocaqlarında tədrisi yeniyetmələri dünya miqyasında baş verən proseslərin elmi əsasları ilə tanış edir, gəncləri fəal olmağa, yiyələndiyi müxtəlif xalqların mədəniyyətini, elmini, dünyagörüşünü mənimsəməsini təmin edir, latın, yunan elmi terminləri ilə tanış edir, elmin digər sahələrini dərindən başa düşməyə kömək edir. Məsələn, riyaziyyat fənninin tədrisi zamanı yeniyetmələri ətraf mühitin xüsusiyyətlərini dərindən mənimsəməsinə yönəldilirlər, onlar dünyanın, mühitin (yerli, uzaq) inkişafının proqnozlaşdırma qabiliyyətinə malik olurlar, bu inkişafda uğurların, çatışmamazlıqların dərindən təhlil etməyə öyrənirlər. Yeniyetmələrin humanistik tərbiyəsi zamanı təhsil ocaqlarının pedaqoji kollektivləri gənclərə riyaziyyət dərslərin vacibliyini çatdırmalıdırlar, cavanların tədrisi zamanı riyaziyyat biliklərinin mütləq şəkildə inkişaf olunması fikrini daim təsdiqləməlidirlər.

Pedaqoji kollektivlər yeniyetmələrin əldə etdikləri riyaziyyat biliklərin humanistik istiqamətində yönəldilməsini daha aydın, ətraflı şəkildə şagirdlərə çatdırmalıdırlar, onlarda fikrin müstəqilliyi, problemin pozitiv həlli üçün müxtəlif vasitələrin, üsullarının axtarışı kimi keyfiyyətlərin formalaşmasını təmin etməlidirlər. Riyaziyyat fənninin tədrisi zamanı yeniyetmələr əldə etdikləri bilikləri cəmiyyətin təbiətini, konkret şəxsin hərəkətinin alqoritmini daha dəqiq başa düşməyə və təhlil etməyə əsaslı bacarıqlar formalaşdırır və gənclərin yaradıcı idrakın inkişafına

köməklik göstərir. Məktəbin təlim-tərbiyə prosesində təbiət elmlərinin tədrisi və yeniyetmələrin humanistik tərbiyəsi planetin ümumbəşəri mədəniyyətin inkişafında, onun dərindən başa düşüb yiyələnməsində çox vacib yer tutur (təbiət xarakteri daşıyan biliklərin səviyyəsi, təbiətin inkişaf qanunauyğunluqları, onları təsvir etmək üsulları və s.). Riyaziyyat fənnini onun mahiyyətinə görə humanitar xarakteri daşıyan bir elm sahəsi kimi qəbul etmək olar. Bu fənn təbiətin harmonik proseslərini dərindən təsvir etməyə kömək edir, müxtəlif istiqamətli xətlərin fiqurların gözəlliyini başa düşməyə imkan yaradır və məntiqi harmoniyanı daha ətraflı şəkildə mənimsəmək üçün əsaslar yaradır. Riyaziyyat üsulları öz geniş istifadəsini psixologiya, sosiologiya, pedaqogika, arxeologiya, linqvistik və digər elmlər sahəsində tapır.

Qeyd etmək lazımdır ki, təbiət fənnlərinin tədrisində ümumiyyətlə, öyrənilən hadisənin obyektini mütləq şəkildə mənəvi, mədəni, dini, estetik, etik və digər mövqelərdən təhlil etmək lazımdır. Riyazi biliklərin mahiyyəti müxtəlif proseslərin riyaziyyat xarakteri daşıyan təsviri ilə əlaqələnir, qanunauyğunluqlarını təhlil edib, şəxsiyyətin yaradıcı fəaliyyətinə əsaslı təkan verir. Riyaziyyat fənninin tədrisində onun əxlaqi, estetik, etik və digər aspektlərin işıqlanması, bizim fikrimizcə, çox məqsədyönlü olardı. Ümumiyyətlə, təbiət elmlərinin inkişafı müxtəlif ideyaların mübarizəsi ilə, şəxsiyyətin əxlaqi hərəkətləri ilə, dünyanın görkəmli riyaziyyatçıların həyatı və taleyi ilə çox sıx bağlıdır.

Təhsil ocaqlarının təlim-tərbiyə prosesində tədris olunan təbiət fənnləri, onların yeniyetmələrin humanistik tərbiyəsində geniş istifadəsi gənclərin əxlaqi hisslərinə, iqtisadi baxışlarına, estetik zövqlərinə ümumi mədəniyyətinə böyük təsir göstərə bilər. Təbiət fənnlərinin mahiyyəti, onların mənimsənilməsi yeniyetmələrdə məsuliyyətlilik, məqsədyönlülük, qarşıya qoyulan məqsədin pozitiv həllində göstərilən inadkarlıq keyfiyyətlərinin formalaşdırılması ilə çox sıx bağlıdır. Təbiət fənnlərinin tədrisi yeniyetmələrdə etik normaların daha dərin təsəvvürünə kömək edir və bu normalardan qırağa çıxmaq niyyətindən gəncləri əsaslı şəkildə qoyur. "Təbiət fənnlərinin tədrisi zamanı yeniyetmələrin əldə etdikləri biliklər mütləq şəkildə ümummədəni dəyərlər xarakteri daşımalıdır və şəxsiyyətin

özünüreallaşdırılmasına özünüifadəsinə, özünümüəyyənləşdirməsinə geniş imkanlar yaratmalıdırlar" (25, 83).

Fizika, kimya, riyaziyyat, biologiya və digər təbiət fənnləri yeniyetmələrin obyektiv reallığa qarşı münasibətlərini dəqiqləşdirməlidir və müxtəlif hadisələrdə, proseslərdə öz mövqelərini qorumaq keyfiyyətlərinə malik olmalıdırlar. Təbiət fənnlərinin mahiyyətinin humanitar komponenti yeniyetmələrin emosional-dəyərli yönəldilməsinə qulluq etməlidir və gənclərin maraqlarına, onların tələbatları ilə təbii şəkildə vəhdət formada inkişaf etdirməlidir. Demək olar ki, təbiət fənlərinin yeniyetmələrə humanitar aspektdə təqdim olunması təhsil ocağının fəaliyyətinin xarakteri və yönəldilməsindən, pedaqoji kollektivlərin peşəkarlığından, səylərindən sıx asılardır.

Yeniyetmələrin humanistik tərbiyəsi zamanı təbiət fənnlərinin humanitar potensialından istifadəsi insanlararası münasibətlərin gözəlliyini nümayiş etdirir, dünyaya etik, estetik münasibətin formalaşmasına kömək edir, insanlara humanistlik nöqteyi nəzərindən ən yüksək mövqedən yanaşmağın əsaslarını qoyur.

Yeniyetmələrin humanistik tərbiyəsi zamanı təbiət fənnlərinindən istifadəsi eyni zamanda iki mühüm problemin müsbət həllinə yönəldilməlidir:

a) yeniyetmələrin sosiallaşması (cəmiyyətin sosial standartlarının, normalarının başa düşüb qəbul edilməsi);

b) şəxsiyyətin formalaşmasına fərdi yanaşma (yeniyetmələrin özünəməxsus və təkraredilməz şəkildə formalaşması).

Şəxsiyyətin sosiallaşması onun müəyyən tələbatlarının formalaşması zamanı baş verir, şəxsiyyətin fərdiləşməsi ilə cəmiyyətdə ictimai inkişafın əsasında reallığa çevrilir. Təbiət fənnlərinin tədrisi bu iki prosesin vəhdəti şəklində inkişaf etməsindən qulluq etməlidir və yeniyetmələrin həyatı xarakteri daşıyan özünümüəyyənləşdirmə probleminin geniş inkişaf yollarını təqdim etməlidir. Bu baxımdan demək olar ki, məktəbdə təbiət fənnlərinin tədrisi zamanı yeniyetmələrə təqdim olunan biliklərin, birinci növbədə, mənəvi mənası izah olunmalıdır və şəxsiyyətin sosial və daxili aləminin tələbatlarını əsaslı şəkildə inkişaf olunması hərtərəfli stimullaşdırılmalıdır.

Yeniyetmələrin humanistik tərbiyəsi təbiət fənnlərinin tədrisi zamanı özünəməxsus xüsusiyyətlərə malikdir. Yeniyetmələrin humanistik keyfiyyətlərinə yiyələnməsi, dünyanı, onun gözəlliyini qəbul etmək bacarığı ilə bağlıdır, bu səpkidə demək olar ki, təbiət fənlərinin yeniyetmələrə təqdim edən biliklərin əsasında onlardan müəyyən dünyəvi xarakter daşıyan əsərlərin yaradılması, ümumbəşəri mədəniyyətin ayrılmaz bir hissəsi kimi qəbul edilməlidir. Təbiət fənlərinin tədrisi yeniyetmələrin yalnız humanitar xarakteri daşıyan biliklərlə zənginləşdirmir gənclərdə yeni təfəkkür qabiliyyətini formalaşdırır, müxtəlif dünyəvi xarakter daşıyan hadisələri və prosesləri dərindən təhlil etmək qabiliyyətinin əsaslarını qoyur. Yeniyetmələrin humanistik tərbiyəsi onlarda mədəniyyətarası dialoqun dərindən başa düşüb aparılmasının hazırlığına səbəb olur, özlərini “insan-dünya” yeni münasibətlər sistemində özünütəhsilləndirmə, özünüreallaşdırma keyfiyyətlərini inkişaf etdirir.

Təbiət fənnlərinin tədrisinin əsas məqsədi yeniyetmələrin daxili aləminin zənginləşdirir, etik dəyərləri rəhbər tutmağa yönəldir, mənəvi cəhətdən xasiyyətlərini, davranışlarını müsbət cəhətdən təkmilləşdirməlidir. Müasir dövrdə təbiət elmlərini əsas məqsədlərindən biri fənnlərin əsaslarını öyrənməklə eyni zamanda yeniyetmələrin pozitiv şəkildə sosial adaptasiyalarının kömək göstərən yolları və vasitələrini axtarıb tapılması və dərs prosesində onlardan geniş istifadə olunmasıdır. Təbiət fənnlərinin tədrisində məktəbin təlim-tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan istifadə olunması fənnlərin tərbiyəedici, inkişafedici vəzifələrini mürəkkəbləşdirir və eyni zamanda onların yeniyetmə şəxsiyyətin daha ətraflı, hərtərəfli formalaşmasına böyük imkanlar yaradır.

Təbiət fənnlərinin tədrisi zamanı yeni pedaqoji texnologiyalardan istifadə olunması yeniyetmələrin öz mənəvi vətənpərvər mövqelərinin dəqiqləşdirilməsinə, sosial təcrübələrinin genişlənməsinə, idrak fəallığının inkişafına səbəb olur. Yeniyetmələrin humanistik tərbiyəsi şəxsiyyətlə bağlı bütün problemləri öz tərkibində əhatə edir, onun ictimai elementi kimi inkişaf olması, mədəniyyəti, özünüanlama qabiliyyəti və s.

Müasir məktəbin təlim-tərbiyə prosesində tədris olunan təbiət fənnləri yeniyetmələri dünya və milli mədəniyyətin inkişafı kontekstində formalaşdırılmalıdır,

ümumiyyətlə, təhsilin kulturoloji roluna yüksəltməlidir. Yeniyetmələrin humanistik tərbiyəsində təbiət fənnlərinin potensialından istifadə etmək o deməkdir ki, ümumiyyətlə, gənclərə təqdim olunan təlim materialları şəxsiyyətyönəldici xarakter daşımalıdır və şəxsiyyətin inkişafı üçün mahiyyətdaşıyıcı bir amil kimi özünü göstərməlidir.

"Orta ümumtəhsil məktəbdə tədris olunan təbiət fənnlərinin əsas məqsədlərindən biri də yeniyetmələrdə əldə etdikləri bilikləri, müxtəlif təlim proseslərini dərindən təhlil etmək qabiliyyətini formalaşdırmaqdır" (34, 103). Gənclərin aldıqları biliklər bir sistemə çevrilməlidir və bu biliklər sistemi müxtəlif fənnlərinin xüsusiyyətlərini geniş şəkildə təsəvvür etmək bacarığının əsaslarının formalaşdırmalıdır, uşaqlar öz fikirlərini, mövqelərini müstəqil şəkildə irəli sürüb, təhlil etməyi bacarmalıdırlar.

Yeniyetmələrin humanistik tərbiyəsində fizika təbiət fənninin rolu çox böyük və vacibdir, şagirdlər fiziki qanunlarla, qanunauyğunluqlarla, fiziki cərəyanlarla yaxından tanış olurlar. Fizika elminin nailiyyətləri ümumelmi və texniki sahəsində çox geniş formada istifadə olunur və demək olar ki, hər hansı bir təbiət fənnin inkişafını dərindən təhlil etsək, nəticədə onu görürük ki, bu fənnlərin hamısı bu və ya digər dərəcədə fizika elmi ilə sıx bağlıdır. Fizika fənninin tədrisində yeniyetmələri dünyanın məşhur fizika aləmində dərin iz qoyan alimlərinin həyatı ilə, tədqiqat axtarışları ilə, rast gəldikləri çətinliklərlə, bu çətinliklərin həlli yollarından, alimlər mənənəvi keyfiyyətləri ilə tanış etmək lazımdır. Dünya şöhrətli fizik-alimlər (Nyuton, Eynşteyn, Amper, Volt, Watt, Boyl-Mariott, Ladıqin, Stoletov, Popov, Lebedev və b.) həyatı, əxlaqi keyfiyyətləri, real həyatı mənimsəmə qabiliyyəti, əqidələri, estetik zövqləri yeniyetmələr üçün çox maraqlı ola bilər və gənclər bu məşhur insanların həyatından, fəaliyyətindən layiqi ibrət götürə bilərlər. Yeniyetmələrin bu kimi məşhur alim insanların şəxsi obrazlarından, həyat səviyyəsindən, şəxsi-mənəvi keyfiyyətlərindən əldə etdikləri biliklər onların dünyagörüşünün sərhədlərini genişləndirir, dünyanın fiziki mənzərəsi təsəvvürlərini dərinləşdirir. Təbiət fənnlərinin tədrisinin ən vacib şərtlərindən biri də odur ki, yeniyetmələr əldə etdikləri bilikləri, fizika qanunlarını təcrübədə, real həyatda istifadə edib sınaqdan keçirsinlər. Dünyanın fiziki mənzərəsinin evolyusiyası təbii qanunların və hadisələrin dərindən

və daha geniş əhatə olmaqla mənimsəmə qabiliyyət yeniyetmələrin intellektual bazasını zənginləşdirir və insanlararası münasibətlərin daha yüksək səviyyəyə qalxmasını əsaslandırır.

Bizim fikrimizcə, yeniyetmələrin humanistik tərbiyəsi təbiət fənnlərinin tədrisi zamanı, məsələn, fizika elminin tədrisi zamanı daha səmərəli, daha uğurlu ola bilər, əgər gənclərin nəzərinə və diqqətinə aşağıdakı sualların məna və vacibliyi müəllim tərəfindən çatdırılarsa:

1) Yeniyetmələrin dünyagörüşünün formalaşmasında və inkişafında fizika fənninin əsaslı rolu;

2) Dünyanın fiziki mənzərəsinin evolyusiyası və onun fəlsəfi nöqteyi nəzərindən mənimsənilməsi;

3) Dünyaşöhrətli fizik alimləri, onların həyatı, əxlaqi keyfiyyətləri, çətin vəziyyətlərdən optimal çıxış yollarını tapmaq qabiliyyəti, alimlərin insanı və elmi keyfiyyətlərin real tərəqqisi;

4) Müasir dünyanın fiziki mənzərəsi. Fizika sahəsində Nobel laureatların elmi ixtiraları;

5) Müasir məktəb şəraitində fizika fənnin tədrisi, onun xüsusiyyətləri, problemləri, onların həlli yolları.

Yeniyetmələrin humanistik tərbiyəsi kimya təbiət fənninin tədrisi zamanı həyata keçirilir. Uşaqlar bu fənnin tədrisi zamanı təbiətin inkişaf qanunları ilə yaxından tanış olurlar, cəmiyyətin biososioloji əsaslarını öyrənirlər, elmi dünyagörüşünün əsaslarını daha da dərinləşdirirlər. Kimya elmi gənclərə mikroaləmin dərin qanunauyğunluqlarının axtarışlarından, inkişafından, maddələrin kimyəvi hərəkət qanunlarının əsaslarını öyrədir. Kimya dərsinin tədrisi zamanı yeniyetmələr elementlərin dövri sistemi ilə, kimyəvi əlaqələrin və onların həyata gəlmək mexanizmləri ilə yaxından tanış olurlar və bu mikroaləmdə baş verən hadisələri və prosesləri daha mükəmməl mənimsəyir. Gənclər dünyaşöhrətli məşhur alimləri (M.V.Lomonosov, A.M.Butlerov, D.İ. Mendeleyev və b.) elmi ixtiraları ilə yaxından tanış olurlar, kimya elmi sahəsində yaranan qanunlarla, elmi fərziyyələrlə, müəyyən elmi yaxınlaşmalarla maraqlanırlar. Kimya fənninin tədrisi zamanı yeniyetmələrə

alimlərin həyatından məlumat vermək, onların elmə verdikləri qurbanlardan, insani, əxlaqi keyfiyyətlərindən, həyatda tutduqları mənəvi-sosial mövqeydən ətraflı informasiyanın təqdim olunması, pozitiv bir amil kimi qarşılanmalıdır. Alimlərin tərcümeyi-halını öyrənəndə onların dünyagörüşünə nəzər salanda ictimai-siyasi, etik əqidələrini, əxlaq simalarına dərindən təhlil edəndə yeniyetmələr şüuraltı şəkildə öz həyatlarını, hətta tutduqları mövqelərini belə məşhur insanların həyatı və mövqeləri ilə müqayisə edəndə dərim fikirlərə malik olurlar, həyatlarını bu kimi müsbət obrazların həyatına bənzətmək istəyirlər. “Yeniyetmələrin humanistik tərbiyəsinin səviyyəsini yüksəltmək üçün gənclərə elmin və istehsalatın qarşılıqlı əlaqəsinin vacibliyindən və vəhdətindən geniş məlumat vermək lazımdır” (19, 63). Cəmiyyətin maddi-texniki bazasını yaradarkən onu da inkişaf etdirərkən və mükəmməlləşdirərkən insanların həyat səviyyəsi qat qat yüksəlir, onlar özlərinin müstəqil və azad məqsədyönlü bir şəxslər kimi hiss edirlər, əxlaqi-sosial nöqteyi nəzərdən mükəmməlləşməyə real imkanları əldə edirlər. Qeyd etmək lazımdır ki, müasir dövrdə yeniyetmələrin kimya dərslərinə daha dərin maraqla mənimsənilməsi, get-gedə artır və bu da məktəbin təlim-tərbiyə prosesi zamanı qabaqcıl pedaqoji texnologiyalardan istifadəsinin nəticəsidir şagirdlərin, ümumiyyətlə, idrak fəaliyyətinin səviyyəsi yüksəlir, həyatla bağlılığı mükəmməlləşir.

Yeniyetmələrin humanistik tərbiyəsində biologiya fənninində rolu böyükdür. Bu fənn biologiya elminin inkişaf mərhələləri ilə gəncləri tanış edir, elmi dünyagörüşün formalaşmasına kömək edir, həqiqətdə, makro və mikroevolyusiyanın qarşılıqlı əlaqələrini dərindən başa düşməyə geniş imkanlar yaradır. Bioloji proseslərin molekulyar səviyyədə öyrənilməsi, genetika elminin qanunlarına dərindən mənimsənilməsi və yeniyetmələrin intellektual potensial çərçivəsini genişləndirir, ətraf mühitin xüsusiyyətlərini daha optimal şəkildə təsəvvür etməyə əsaslar yaradır. Biologiya fənninin tədrisi zamanı yeniyetmələr dünya şöhrətli alimlərin ixtiraları ilə, onların tədqiqatları ilə, elmi fərziyyələri ilə elmin düzgün tərəqqi yolu ilə inkişaf etməsinə göstərən səyləri ilə, apardıqları mübarizə ilə dərindən tanış olur, dünyanın inkişafı barədə özlərinin müstəqil fikirlərini söyləməyə qadir olurlar. Gəncləri məşhur alimlərinin təcümeyi halı ilə yaxından tanış olurlar, alimlər həyat mövqelərini

nəzərdən keçirirlər, əxlaqi, şəxsi-sosial keyfiyyətlərini dərindən təhlil edirlər, dünya elminə gətirdikləri yeniliklər ilə tanış olurlar. Yeniyetmələr, ümumiyyətlə həyatın, insanın dünyaya gəlməsinin bir neçə fərziyyəsini təqdim edəndə onların maraq dairələrinin sərhədlərini genişləndirməyə gözəl imkanlar yaranır. Gənclər özləri onlara təqdim olunan insanın dünyaya gəlməsi fərziyyələrini dərindən təhlil edib müstəqil fikir söyləməyə can atırlar. Biologiya fənninin tədrisi zamanı yeniyetmələr insanların əxlaqi, şəxsi keyfiyyətlərini, onun inkişafı prosesini nəzərdən keçirirlər, hər bir tarixi dövrün xüsusiyyətlərini qeyd edirlər, ümumiyyətlə, insanın bir bioloji aləm kimi yaranmasının səbəblərini dərindən təhlil etməyə maraq göstərirlər. Biologiya fənninin tədrisi zamanı qarşıya qoyulan əsas məqsədlərdən biri də elm sahəsində geniş yer tutan qarşılıqlı münasibətlər problemləri ilə tanış etməkdir, hadisələrin dialektik şəkildə inkişaf olunması məsələləri, evolyusiyanın hələ dəqiq qanunlarının şagirdlərin faktiki bilik bazasının tərkib hissəsi etməkdir.

Yeniyetmələr biologiya fənninin tədrisi zamanı genetika elmi sahəsində baş verən qanunauyğunluqların fərdi və tarixi inkişafını öyrənirlər, şəxsiyyətin inkişafında irsi keyfiyyətlərin nəsildən-nəsilə ötürülmə fərziyyəsini başa düşməyə çalışırlar. Biologiya fənninin tədrisi zamanı yeniyetmələr şəxsiyyətin inkişafına təsir edən üç amili (ətraf mühit, irsiyyət, tərbiyə) dərindən mənimsəyirlər, xarici alimlərin hansı amil öndədir kimi müxtəlif fərziyyələri ilə tanış olurlar və özlərinəməxsus nəticələrə gəlmək qabiliyyətini əldə edirlər. Yeniyetmələrin humanistik tərbiyəsində fiziki coğrafiyanın özünəməxsus yeri və rolu vardır. Coğrafiyanın məktəb kursu öz tərkibində həm iqtisadi, həm də fiziki coğrafiyanın tədrisini təmin edir.

Fiziki coğrafiya yeniyetmələrə yer kürəsinin strukturundan, tərkib hissəsindən, onların inkişafında mövcud olan qanunauyğunluqlardan, təbiətdə baş verən təbii fəlakətlərin səbəblərindən ətraflı məlumat verir. Uşaq və yeniyetmələrə insanların müxtəlif coğrafi mühitində yaşamaları xüsusiyyətləri ilə onların adətləri ilə, özlərini vəhşi heyvanlardan qorumaq, onları bu kimi məlumatlarla zənginləşdirirlər. Məsələn, fiziki coğrafiyanın tərkibində olan iqlimə aid biliklər, yer kürəsinin ən böyük dərinliklərində baş verən proseslərdən (vulkanlar, qeyzerlər, maqmanın axımı, isti lavanın yaranması, isti su mənbələrinin yaranması, yeraltı çayların axımı, müəyyən

partlayıcı xarakteri daşıyan hadisələr) yeniyetmələr məlumatlanıb yer kürəsinin mürəkkəb bir qurum olmasını özlərinə dərinəndən təsəvvür edirlər. Gənclərin əldə etdikləri coğrafi xarakterli işlər onları gələcəkdə təbiətə xeyirxah yanaşmasının əsaslarını formalaşdırır, təbiətin varlığından səmərəli münasibət göstərmənin vacibliyini bir də dəstəkləyir. Fiziki coğrafiyanın tədrisi zamanı gənclərdə təbiətə amansızcasına yaxınlaşan adamlara qarşı ciddi mübarizə aparmaq hissi bəslənir, təbiətin varlığını daha da inkişaf edib, bu varlığın insanların gələcəyində böyük mənəvi dəyər rolu oynamasının ideyası göstərilir. “Yeniyetmələrin humanistik tərbiyəsində, onların dünyagörüşünün formalaşmasında və genişlənməsində astronomiya təbizt fənni ciddi rol oynayır və öz qarşısında geniş vəzifələr qoyur” (17, 91). Bu fənnin əsas məqsədlərindən biri də yeniyetmələrə dünyanın əmələ gəlməsindən dərin biliklər verilməsidir, dünyada mövcud olan müxtəlif astrofiziki hadisələrin təbiətini başa salmaqdır. Yeniyetmələr planetlərdən, ulduzlardan, kometalardan, meteorlardan, günəş sistemindən, günəş sistemində baş verən proseslərdən (partlayışlar, günəş tutulması) göy cisimlərinin yaranması və inkişafından məlumatı alırlar. Gənclər kosmosa uçan adamların həyatı ilə tanış olurlar, Rusiya, Amerika, Avropa ölkələrinin astronavtlarının tərcümeyi-halları ilə tanış olurlar, nailiyyətlərə gəlib çatmalarının yollarını öyrənirlər, kosmonavt və astronavtların insani, əxlaqi keyfiyyətlərini nəzərdən keçirib, gələcək həyatda uğurlu olmaq üçün nəticələr çıxardırlar. Ayrı planetlərə göndərilmiş aparatların (Venera, Mars, Soyuz, Discovery) xüsusiyyətləri ilə tanış olub, insan faktlarının yüksəkliyini, dərinliyini bir də vurğulayırlar, ayrı planetlərin kəşfində, ölkələrarası əməkdaşlıqdan məlumatlanırlar. Insanlararası münasibətlərin gözəlliyini daha dərin və ətraflı şəkildə başa düşüb təsdiq edirlər.

# II FƏSIL. SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR İŞLƏR ZAMANI YENİYETMƏLƏRİN HUMANİSTİK TƏRBİYƏSİNİN TƏŞKİLİ YOLLARI

## 2.1. Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin humanistik tərbiyəsinin təşkili

Yeniyetmələrin humanistik tərbiyəsində təhsil ocaqlarında təşkil olunub həyata keçirilən sinifdənxaric tədbirlər xüsusi yer tutur. Məhz sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin hərtərəfli, ahəngdar inkişafı müvəffəqiyyətlə həyata keçirilir, gənclərin fəal həyat mövqeyi formalaşır, humanistik keyfiyyətlər dərinləşir və real həyat şəraitində sınağdan keçirilib şəxsiyyətin dəyərlər sistemində özlərinə məxsus yer tuturlar. Sinifdənxaric tədbirlərin uğurla aparılması, onların yeniyetmələrə maraqlı olması, gəncləri maraqlandıran problemlərə cavab verməsi təhsil ocaqlarının pedaqoji kollektivlərinin peşəkarlığından, səyylərindən birbaşa asılıdır.

Yeniyetmələrlə sinifdənxaric tədbirlər zamanı aparılan humanistik tərbiyənin müvəffəqiyyətliliyi hər bir müəllimin, tərbiyəçinin, ictimai təşkilatların üzvlərinin öz rolunu əsaslı şəkildə bilməsindən asılıdır. «Yeniyetmələrin asudə vaxtında onlarla aparılan sinifdənxaric xarakter daşıyan tədbirlərin forma və üsulları daimi inkişaf edilməlidir, dərinləşməlidir, gənclərin maraq dairəsində əmələ gələn suallara hərtərəfli cavab verməyə yönəldilməlidir» (27, 49).

Sinifdənxaric tədbirlər zamanı yeniyetmələ daha geniş sosial-mənəvi təcrübəyə yiyələnirlər, müəyyən bacarıq və vərdişləri real həyatda istifadə etməyin yollarını dəqiqləşdirirlər. Qeyd etmək lazımdırki, sinifdənxaric tədbirlərin təşkil olunub aparılmasının səviyyəsi nə qədər də yüksək olsa da, bu tədbirlər özləri yeniyetmələrin humanistik keyfiyyətlərinin formalaşmasını hərtərəfli apara bilməz.

Alimlərin fikrincə (V.O.Kutyev, M.Q.Yanovskaya, T.P.Qavrilova, T.V.Aleksandrova, L.V.Kadraşova, İ.A.Kolesnikova, V.V.Abramenkova və b.) yeniyetmələrlə aparılan sinifdənxaric tədbirlərin müvəffəqiyyəti yalnız o vaxtı müşahidə olunur ki, nə zaman ki bu tədbirlər gənclərin özlərinin daxili fəallığının yüksəlməyinə geniş şərait yaradır.

Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin ictimai-təşkilati, idraki, əmək, estetik, etik, idman xarakteri daşıyan fəaliyyətində çoxsaylı tərbiyəvi və inkişaf istiqamətləri ilə fərqlənən problem xarakteri daşıyan vəziyyətlər meydana çıxır və bu geniş suallar kompleksinin uğurlu şəkildə yeniyetmələrin humanistik tərbiyəsi zamanı istifadəsi məktəb pedaqoji kollektivinin məqsədyönlü tərbiyə işinin aparılmasından, inkişafından aratıq dərəcədə asılıdır.

Yeniyetmələrin psixoloji-pedaqoji, sosioloji nöqteyi nəzərindən hərəkətlərinə, davranışına diqqətlə nəzər salsaq, məlum olunur ki, gənclər dərsdə bir simadadırlar, ailədə, küçədə ayrı simadadırlar, şəxsiyyətlərarası münasibətlərdə tamamilə ayrı bir insan görmək olar. Belə hallar çox təbiidir, çünki yeniyetmələr özlərinin yaş dövründə müxtəlif insanların mənəvi-humanistik keyfiyyətlərinə dərindən maraq göstərilir, onların davranışına, şəxsiyyətlərarası münasibətlərinə, hərəkətlərinə fikir verirlər. Yeniyetmələrin belə xarakter daşıyan müşahidələri zamanı onlarda mənəvi-humanistik idealın formalaşmasının əsasları qoyulur və bu idealı onlar müxtəlif insanların mənəvi simasında, hərəkətlərində, davranışında axtarırlar. Belə ideallar yeniyetmələrin nəinki birbaşa düşünülmüş obyektiv xarakter daşıyan etik bir kateqoriyadır, bu ideallar gənclərin daxilindən qəbul olunmuş, emosional nöqteyi nəzərindən rənglənmiş bir obraz kimi qarşıya çıxır. Bu obrazları yeniyetmələr öz həyatlarında rəhbər tuturlar, onlara bənzəməyə can atırlar, hərəkətlərinin tənzimləmə vasitəsi kimi qəbul edirlər, başqalarının hərəkət davranışının qiymətləndirməsində əsas meyarlarından biri kimi qəbul edirlər. Yüksək səviyyəli mənəvi-humanistik idealın yeniyetmələr tərəfindən axtarıb tapılması onlarda bu ideal obraza bənzəmək üçün, onun keyfiyyətlərini özlərində formalaşdırmaq üçün onlarda daimi dərinləşən və inkişaf edən daxili mənəvi-humanistik xarakteri daşıyan motivləri formalaşdırır. Bunu da qeyd etmək lazımdır ki, alimlərin müşahidəsinə əsasən (A.P.Smantser, E.V.Bondarevskaya, Q.B.Kornetov, M.A.Stancits, A.K.Markova, M.Q.İvanov, M.N.Berulova və b.) çox vaxtı yeniyetmələr real həyat şəraitində özlərinə (özləri dərk edən kimi) ideal tapmaqda çətinlik çəkirlər və, əsasən, öz ideallarını bədii ədəbiyyatdan, kinofilmlərdən, teatr tamaşalarından formalaşdırırlar.

Sinifdənxaric tədbirlər zamanı, real həyat şəraitində yeniyetmələrin mənəvi-humanistik idealın axtarışı onların özləriniqiymətləndirmə hissinin intensiv şəkildə inkişaf etməsindən, özlərinitəsdiqləməyə can atmasından irəli gəlir. Bu da yeniyetmələrin mənəvi-humanistik inkişafında şəxsiyyətin daxili amillərin ön plana çıxmasından xəbər verir və yeniyetmələrin mühitlə daha mürəkkəb qarşılıqlı münasibətlərin yaranmasına səbəb olur.

«Sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin uğurlu şəkildə humanistik tərbiyəsini təşkil edib aparmaq üçün, gənclərin müxtəlif xarakteri daşıyan praktiki fəaliyyətin istiqamətlərini məktəb (sinif) kollektivində mövcud olan mənəvi-humanistik münasibətlərini, şəxsiyyətin inkişafına təsir edən amillərin öyrənilib təhlil olunması ümumi tərbiyə işinin tərkib hissəsi kimi qəbul olunmalıdır» (21, 108). Belə işin məqsədyönlü şəkildə aparılması yeniyetmələrdə humanistik keyfiyyətlərin olmasının obyektiv mənzərəsini təsəvvür etməyə kömək edir və humanistik tərbiyənin düzgün, məqsədyönlü şəkildə təşkil olunmasının əsaslarını qoyur. Bakı şəhəri orta ümumtəhsil məktəblərin yeniyetmə şagirdləri ilə görüşlərimiz və apardığınız işlər zamanı (müxtəlifsahəli söhbətlər, mənəvi-humanistik xarakteri daşıyan mövzulara verdiyimiz üstünlük, müsahibələr, müşahidələr, müəllimlərlə, tərbiyəçilərlə görüşlər, onlarla yeniyetmələri ətraflı şəkildə xarakterizə edən söhbətlər, məktəblərin humanistik tərbiyə sahəsində apardıqları işlərin xüsusiyyətlərini öyrənmək, anketləşdirmə və s.) yeniyetmələrin humanistik keyfiyyətlərinə nail olmaqlarını özümüzdə qeyd edib tövsiyələrimizi verirdik. Çoxsaylı anketlərimizin birini diqqət nəzərinizə çatdırırıq.

Anket №1

1. Humanistik tərbiyə dedikdə nə başa düşürsünüz?
2. Humanitar dərslərin tədrisi zamanı hansı humanistik keyfiyyətləri əldə etmisiniz?
3. Təbiət dərslərin tədrisi zamanı hansı humanistik keyfiyyətləri əldə etmisiniz?
4. Qayğıkeşlik hissini nesə başa düşürsünüz?
5. Həssaslıq hissini nesə başa düşürsünüz?
6. Xeyirxahlıq hissini nesə başa düşürsünüz?

7. Əgər Siz hansısa bir şəxsdə özündənrazılıq kimi keyfiyyət müşahidə edirsiniz, buna necə qiymət verirsiniz?
8. Ailədə, yaşayış ərazisində humanistik keyfiyyətlərə nail olmağa geniş şərait yaradılırmı? Sizin valideynləriniz Sizinlə humanistik xarakteri daşıyan münasibətlər qururlarmı?
9. Sinifdənxaric tədbirlərdə şagirdlərin humanistik tərbiyəsi prosesi necə qurulur? Bu işin səviyyəsini yüksəltmək üçün hansı təklifləri irəli sürə bilərdiniz?
10. Məktəbin (sinfin) ümumi abu-havası, psixoloji-pedaqoji, sosioloji şəraiti şagirdlərdə humanistik keyfiyyətlərin formalaşmasına təkan verirmi? Cavabınızı əsaslandırın.

Tanınmış rus alimi A.V.Mudrik öz pedaqoji əsərlərində qeyd edirdi ki, tərbiyə prosesinin müvəffəqiyyəti o vaxtı diqqət nəzərinə çatdırılır ki, müəllimlər, tərbiyəçilər yeniyetmə-şagirdlərin ümumiyyətlə, inkişaf, tərbiyə səviyyəsinin parametrlərini qabaqcadan müəyyən edərkən şagird kollektivinin inkişaf dinamikasını nəzərdə tutaraq tərbiyə işini müəyyən istiqamətə yönəldirlər. Bir sıra alimlərin fikrincə, gənclərin müəyyən mənəvi-humanistik keyfiyyətlərə yiyələnməsi problemini bir neçə araşdırılmış tərbiyə və inkişaf olunma səviyyələrinin dəqiqləşdirilməsi yolu ilə həll etmək olar. Məsələn, tədqiqatçı M.N.Şults beş səviyyənin araşdırılmasını müəyyən edir, tədqiqatçı İ.İ.Noskov – dörd səviyyənin araşdırılmasını məqsədə uyğun bilir, tədqiqatçı N.İ.Monaxov üç səviyyənin dərindən araşdırılmasını kifayət hesab edir. Biz belə bir qərara gəlirik ki, tədqiqatçı N.İ.Monaxovun yeniyetmə-şagirdlərin müəyyən mənəvi-humanistik keyfiyyətlərinə nail olması məsələsini üç səviyyə sistemindən araşdırılması daha məqsədə uyğun olar. Əlbəttə, bu səviyyələr çox şərti baxımdan verilir, səviyyələrin sayı arta bilər, onların tərkibinə müəyyən əlavələr etmək olar.

Yeniyetmələrin humanistik keyfiyyətlərə nail olması mənzərəsini və bu keyfiyyətlərin sinifdənxaric tədbirlər zamanı istifadə edilməsi və real həyatda onları özlərinə rəhbər tutaraq parametrlərinin üç səviyyəli sistemini diqqət nəzərinə

çatdırırıq (bu parametrlər müəyyən dərəcədə əlavə oluna bilərdi: (yuxarı səviyyə; orta səviyyə; aşağı səviyyə).

Yuxarı səviyyə – bu səviyyəyə əsasən yeniyetmələr humanistik hərəkətləri, fəaliyyəti özlərinin davranış normasına çevirirlər, belə fəaliyyətin real həyatda əks olunması gənclərin daxili mənəvi tələbatına çevrilir. Bu səviyyəyə aid olunan yeniyetmələr öz dostları, yoldaşları, tanışları ilə sözün əsl mənasında humanistik xarakteri daşıyan münasibətlər qururlar, buk imi münasibətlərin qurulması onların həyat tərzinə çevrilir. Yeniyetmələr təhsil ocağın təlim-tərbiyə prosesi zamanı əldə etdikləri biliklərə əsaslanaraq xalqın humanistik ənənələrinə yüksək hörmət göstərirlər, onlara yiyələnirlər, özlərinə rəhbər tuturlar.

Gənclər qeyri-humanistik keyfiyyətlərə öz münasibətlərini sərt formada ətrafdakılara çatdırırlar (hiddətlənirlər, narazılıqlarını bildirirlər, qeyri-humanistik keyfiyyətləri nümayiş edən gənclərlə barışılmaz intellektual şəkildə mübarizə aparırlar). Bu səviyyəyə aid olunan yeniyetmələr insanlara şüurlu şəkildə xeyirxahlıq nöqteyi nəzərindən yanaşırlar ətraf mühiti insan cəmiyyətinin əvəzedilməz bir dəyəri kimi qəbul edib ona artıq dərəcədə hörmət hissi göstərirlər.

«Yeniyetmələrin humanizm sahəsində əldə etdikləri biliklər əsasən düzgün istiqamətdə toplanır və sistem şəklində şəxsiyyətin mənəvi potensialının vacib tərkib hissəsi kimi öz əksini tapır» (20, 104). Demək olar ki, bu səviyyəyə aid olunan yeniyetmələr humanizm keyfiyyətinin şəxsi və ictimai mənasını dərindən başa düşürlər və ətraf mühitdə müşahidə edilən humanistik əməllərə, onları öz fəaliyyətində rəhbər tutaraq insanlara emosional-müsbət münasibəti göstərirlər. Praktik baxımdan bu səviyyəyə aid olan yeniyetmələr həyatın ən çətin şəraitində, vəziyyətində humanistik xarakteri daşıyan əməlləri, hərəkətləri öz fəaliyyətlərində üstün tutmaq üçü şüurlu şəkildə iradi keyfiyyətlərdən fəal istifadə edirlər. Bunu da qeyd etmək lazımdır ki, reallığa əsaslanaraq demək olar ki, hətta təhsil ocaqlarında məqsədyönlü şəkildə aparılan pedaqoji prosesin, təlim-tərbiyə işlərinin yüksək səviyyədə aparılmasının nəticəsində yeniyetmə-şagirdlər əsl mənada humanistik tərbiyə olunmalarının yüksək səviyyəsinə çatması çox çətin bir vəzifədir. Bu mürəkkəb prosesdə yalnız təhsil ocaqlarının (məktəblərin) səyyləri kifayət deyil, bu

prosesdə mütləq şəkildə cəmiyyətin digər sosial tərbiyə institutları da yaxından iştirak etməlidirlər (ailə, yaradıcı qurumlar, idman cəmiyyətləri, yaşayış ərazisində fəaliyyət göstərən ağsaqqallar şurası, hüquqi, qanunverici orqanlar və s.).

Müşahidəmizə əsasən biz yeniyetmələrin orta səviyyədə humanistik keyfiyyətlərinə nail olduqlarının xüsusiyyətləri ilə rastalaşıb onları dərindən təhlil etdik. Bu səviyyəyə aid olan yeniyetmələr (humanistik keyfiyyətlərdən xəbərləri ola-ola, onlara nisbətən nail olduqları halda) həmin humanistik keyfiyyətlərin dostları, yoldaşları, ətrafda olan insanlarla çox qeyri-ardıcıl şəkildə biruzə verirlər. Yeniyetmələrin həyatda humanistik keyfiyyətləri rəhbər tutması, demək olar ki, qeyri-stabil xarakter daşıyır, onlar qohumları, dostları ilə, şəraitindən asılı olaraq, düzgün, humanizm əsaslarında qurulmuş münasibətləri yarada bilirlər, humanistik keyfiyyətlərin mənasını, demək olar ki, ətraflı şəkildə başa düşürlər. Buna baxmayaraq, bu (orta) səviyyəyə aid olan yeniyetmələr müəyyən hallarda kobudluq və qeyrixeyirxahlıq hisslərinə yol verirlər, pislik, yamanlıq halların qarşısında aciz qalırlar, özlərini itirirlər, praktik hərəkətlərində qeyri-əminlik hiss olunur.

Qeyd etmək lazımdır ki, bu səviyyəyə aid olan yeniyetmələrin arasında özlərinə (sözün yaxşı mənasında) güvənən uşaqlar da az deyil, onlar lazım vaxtda, şəraitdə özlərini ələ alıb fəaliyyətlərində humanistik xarakteri daşıyan keyfiyyətləri rəhbər tuturlar, yüksəksəviyyəli humanistik addımlar atırlar. Biz belə bir xüsusiyyətə də fikir verdik.

Orta səviyyəli humanistik keyfiyyətlərə nail olan yeniyetmələr xalq ənənələrini bilsələr də, onlarla sistemli şəkildə real həyatda rəhbərlənmirlər, gənclərin humanizm sahəsində əldə etdikləri biliklər düzgündür, amma ətraflı, dərin, sistemli xakter daşımırlar. Demək olr ki, humanistik keyfiyyətlərin şəxsi və ictimai baxımdan qəbul olunması və rəhbərlənməsi çox vaxtı abstrakt xarakter daşıyır. Yeniyetmələrdə yüksəksəviyyəli humanistik keyfiyyətlərin əldə olunması və real həyatda əks olunmasına qarşı emosional-müsbət xarakterli daşıyan münasibət qeyd olunur, amma gənclər sistemli şəkildə öz üzərində çalışmaqdan, humanistik keyfiyyətlərini özündə tərbiyə etməkdən, müəyyən hallarda, boyun qaçırırlar. Bu səviyyəyə aid etdiyimiz yeniyetmələrin iradi keyfiyyətləri lazımi olan səviyyədə inkişaf etməyib və gənclər

özlərini humanistik tərbiyə nöqteyi nəzərindən humanistik keyfiyyətlərini real həyatda nümayiş etdirməyə müəyyən hallarda səfərbər edə bilmirlər. Yeniyetmələr humanistik keyfiyyətlərə real həyatda sistemli şəkildə rəhbərlənmirlər.

Aşağı səviyyə – əsasən seçilmə xarakteri daşıyır. Bizim müşahidəmiz, yeniyetmələrlə apardığımız işlərə əsasən belə bir məlumat toplamışıq. Bu səviyyəyə aid etdiyimiz yeniyetmələr yalnız onlarayaxın olan adamlarla (qohumları ilə, yaxın dostları ilə) ehtiramla münasibətlər qururlar və əks hallarda bu münasibətlər eqoistik xarakter daşıyan niyyətlərdən irəli gəlir. Yeniyetmələrin müsbət hərəkətləri müstəsna olaraq şəxsi simpatiyanın əsasında qurulur və belə hallarda şəxsiyyətə göstərilən subyektiv münasibətin rolu çox olur, gənclər öz şəxsi müvəffəqiyyətlərinə çatmağı hər şeydən üstün tuturlar, emosional baxımdan çox vaxtı nytral, indifferent şəklində təqdim olunurlar.

Qeyd etmək lazımdır ki, bu səviyyəyə aid etdiyimiz yeniyetmələr nəinki pisliyə, yamanlığa qarşı mübarizə fəal şəkildə aparmırlar, onlar özləri də praktiki fəaliyyətdə qeyri-humanist xarakteri daşıyan addımlara yol verirlər. Xalqın çoxsaylı ənənələrdən, demək olar ki, ətraflı xəbərləri yoxdur, əyər nə isə bu sahədə bilirlərsə, onunlada rəhbərlənmirlər, yaxud nadir halda fikir verirlər və bunu da xüsusi qeyd etmək lazımdır, şəraitdən, öz mənafelərindən, öz xeyirləri olmasından asılı olur. Yeniyetmələrin humanistik keyfiyyətlərin mənasını bilmək səviyyəsi aşağıdır, pis, yaxşı meyarlarını səf başa düşürlər, ümumiyyətlə humanizm hissinin olmasını, insanın hərtərəfli inkişafında əsas meyyar olmağının vacibliyini başa düşmürlər.

Aşağı səviyyəyə aid olan yeniyetmələr humanistik və ya qeyri-humanistik keyfiyyətlərin arasında çox zaman fərq görmürlər, ümumiyyətlə insanın hər addığı addımlarına biganə olurlar, humanistik keyfiyyətlərə nail olma istəyinin səviyyəsi çox aşağıdır, humanist hərəkətləri öz praktiki fəaliyyətində əsas mənəvi norma etmək motivasiyası, demək olarkı, aşağı səviyyədədir, öz üzərində çalışmaq istəkləri epizodik xarakteri daşıyır. Yeniyetmələrin iradi keyfiyyətləri lazımi səviyyədə inkişaf etməyib, praktiki fəaliyyətin necəsə nizamlanması görünmür, çox zaman şəraitdən asılı olaraq indifferent xarakter daşıyan addımlara yol verirlər.

Qeyd etmək lazımdır ki, yuxarıda təhlil etdiyimiz yeniyetmələrin humanistik tərbiyəsi sahəsində çatışmamazlıqlar genişşəkildə gənclərə xas olan xarakteristika deyil, belə hallar yeniyetmələrin ümumi sayından çox cuzidir və əksəriyyətlə çətintərbiyəolunan uşaqlara xas oluna bilər. Təhsil ocaqlarının pedaqoji kollektivləri yuxarıda təhlil etdiyimiz yeniyetmələrin humanistik keyfiyyətlərinə nail olmaqlarının xüsusiyyətlərini ətraflı şəkildə müzakirə edib, Sinifdənxaric tədbirlərin həyata keçirilmə zamanı nəzərə almalıdırlar və ümumiyyətlə, aparılan təlim-tərbiyə prosesinin istiqamətlərini, vasitələrini daha ciddi dəqiqləşdirməlidirlər. «Yeniyetmələrin daha ahəngdar, hərtərəfli inkişafı üçün tədris prosesində yiyələndikləri bilikləri həyatda daha dolğun şəkildə istifadə etmək üçün, sosial-mənəvi baxımdan daha yüksək inkişaf səviyyəsinə çatmaq məqsədi ilə təhsil ocaqlarında tədris prosesinin davamı kimi sinifdənxaric tərbiyə işi aparılır» (46, 123).

Sinifdənxaric tədbirlər müxtəlif formada keçirilə bilər (müəyyən dərs fənlərini daha dərin mənimsəməsi üçün aparılan fakültativ məşğələlər, dərnəklər, bölmələr, müxtəlif istiqamətdə fəaliyyət aparan situasiyalar, özfəaliyyət kollektivlərin işi, muzeylər, klublar, disputlar, konfranslar, müxtəlifsahəli görüşlər, məhşur adamların məktəbə dəvət edilməsi, şifahi jurnallar, viktorinalar, müxtəlif mövzulara aid olan gecələr, dairəvi massa arxasında görüşlər, söhbətlər, kitabların müzakirəsi, polemika gecələri, məktəbin akt zalında kinofilmlərə baxmaq, məktəbin qüvvəsi ilə müxtəlif teatr səhnəcikləri göstərmək, etik söhbətlərin aparılması və s.).

Sadaladığımız sinifdənxaric tədbirlər yeniyetmələrin dünyagörüşünü genişlədir, dərinləşdirir, onlara həyatı, sosial təcrübənin toplaması üçün geniş imkanlar yaradır, mənəvi-etik, humanistik keyfiyyətlərin yaranmasına və onların əqidəsinə çevrilməyə böyük kömək göstərir. Sinifdənxaric tədbirlərin aparılması zamanı yeniyetmələr şəxsiyyətlərarası münasibətlərin düzgün qurulmasını öyrənirlər, bir-birilə daha sıx münasibətlər yaradırlar,dostlarının mövqelərinə hörmətlə, ehtiramla yanaşırlar. Sinifdənxaric tədbirlər yeniyetmələrin humanistik keyfiyyətlərinə yiyələnməsində çox vacib bir rol oynayır. Müəllimlərin, tərbiyəçilərin hazırladıqları etik söhbətlər, şəxsiyyətin mənəvi keyfiyyətlərini daha yüksək səviyyədə formalaşdırmaq məqsədilə ali məktəblərin müəllim heyətinin qabaqcıl üzvlərini məktəbə dəvət etmək,

ağsaqqallarla görüşlər yeniyetmələrdə böyüklərə, yaşlı nəsilə, kiçikyaşlı uşaqlara hörmət hissini möhkəmləndirir. Bəzən müəyyən təhsil ocaqlarında belə bir fikirlə rastlaşmaq olar ki, tərbiyə prosesinin müvəffəqiyyətli, yeniyetmələrdə humanistik keyfiyyətlərin formalaşması əsasən keçirilən sinifdənxaric tədbirlərin həcmindən, uşaqların dərs və sinifdənxaric tədbirlərin aparılması zamanı nizam-intizamdan, sinifdənxaric tədbirlərin zaman baxımdan davamlı olmasından asılıdır. Bu yanlış bir fikirdir, belə parametrlər sinifdənxaric tədbirlərin yalnız xarici xarakteristikasını verə bilər, bu parametrlər yeniyetmələrin daxili aləmində gedən proseslərin xüsusiyyətlərini, müəyyən humanistik keyfiyyətlərinə yiyələnməsinin artım dinamikasını obyektiv şəkildə göstərə bilməzlər.

Yeniyetmələrin humanistik tərbiyəsinin müvəffəqiyyətliliyi, onların humanistik keyfiyyətlərə yiyələnməsi, mənəvi-sosial təcrübə səviyyəsinin yüksəldilməsi yalnız keçirilən sinifdənxaric tədbirlərin keyfiyyətindən, məqsədyönlülüyündən, pedaqoji təsirin dərinlikliyindən asılıdır. Məsələn, Sinifdənxaric tədbirlərin belə formaları fənn və yaradıcılıq dərnəklərinin, elmi-idraki dərnəklərin, yeniyetmə-şagirdlərin elmi cəmiyyətləri gəncləri məqsədyönlü şəkildə humanistik keyfiyyətlərin mənimsənilməsi təşkil edir (humanitar, təbiət fənnlərinin tədrisi zamanı müxtəlif obrazların, dünya xarakteri daşıyan hadisələrin daxili aləminin dərindən başa düşməyə geniş imkanlar yaradır). Yeniyetmələr kütləvi informasiya vasitələrinin təqdim etdiklərimaterialları dərindən təhlil etmək qabiliyyətini dərinləşdirirlər, əxlaqı xarakteri daşıyan materialların mənimsənilməsində polemika formasından geniş istifadə edirlər. Orta ümumtəhsil məktəblərdə «mədəniyyət universitetləri», «lektoriyalar», «press-byuro» kimi sinifdənxaric tədbirlərin formalarından istifadə edirlər. Belə iş formalarının əsas məqsədi yeniyetmələri dünya, mili dəyərlərin mənimsənilməsinə yönəldilməsidir, gənclərin mənəvi-sosial maraqlarının sərhədlərini genişləndirilməsidir, ictimai-faydalı işə cəlb etməsidir, yeniyetmələrin mədəni-maarif xarakteri daşıyan fəaliyyətinə dərinləşdirilməsidir. Gənclərin milli ənənələr ruhunda formalaşması, inkişaf olunması, onların etik-humanistik şəxsiyyət potensial səviyyəsinin yüksəldilməsinə təkan verir.

Yeniyetmələrin humanistik tərbiyəsi prosesində ağsaqqallarla görüşlər sinifdənxaric tədbirlər forması özünəməxsus yer tutu rvə geniş tərbiyəvi imkanlara malikdir. Yaşlı nəslin nümayəndələri (yaşayış ərazisində, məktəbin qocaman müəllimləri, validеynlər, icra hakimiyyətin nəzdində fəaliyyət göstərən rayon acsaqqallar şurasının üzvləri və s.) uşaqlarla məmnuniyyətlə görüşürlər, həyatdan keçdikləri yollardan, çətinliklərdən, onların aradan qaldırılması yollarından, hörmətdən-izzətdən, insanın əxlaqi keyfiyyətlərindən söhbət açırlar və gənclərin diqqətini özlərinə birbaşa yönəldirlər. Bu kimi görüşlər yeniyetmələrə dərindən təsir edir (bir var əxlaqi problemlərdən kitablardan məlumat toplayasan, biri də var hörmətli insanın həyatı sənə bir nümunə kimi təqdim olunsun). Yeniyetmələr belə görüşlərdən sonra humanistik keyfiyyətlərin (xeyirxahlıq, qayğıkeşlik, həssaslıq, hörmət, ehtiram, başqasının dərdinə kədərlənmək, şadlığına, sevincinə təkan vermək, diqqətlilik, nəzakətlilik, təmənnasız kömək əlini uzatmaq və s.) mənasını daha dərindən başa düşürlər, onların mili mentalitetin tərkib hissəsi olmaqlarını daha ətraflı şəkildə təsəvvür etməyi öyrənirlər. Ağsaqqalların həyatı, insaniyyətliyi, alicənablığı, tolerantlığı yeniyetmələri həyatda belə nümunələrə uyğun olmağa yönəldirlər, müsbət keyfiyyətlərin yaranmasına səbəb olurlar.

«Yeniyetmələrin humanistik tərbiyəsində sinifdənxaric tədbirlərin kütləvi formaları ilə (olimpiadalar, müsabiqələr, müxtəlif turnirlər, festivallar, şərqilər, ictimai baxışlar, fənn həftələri və s.) yanaşı fərdi iş formaların imkanları çox genişdir» (50, 74). Sinifdənxaric tədbirlərin fərdi formaları mütləq şəkildə yeniyetmələrin maraq dairələrini, tələbatlarını, hazırlıq səviyyəsini nəzərə almalıdır vətədbirin gediş formasını şəxsiyyətin keyfiyyətləri ilə sıx bağlamalıdır.

Fərdi xarakter daşıyan sinifdənxaric tədbirlər yeniyetmələrdə maraq hissi oyatmalıdır, uşaqların tələbatlarını, suallarını mümkün qədər geniş əhatə etməlidir. Fərdi sinifdənxaric tədbirlərin əsas məqsədi yeniyetmələrin yaradıcı qabiliyyətlərini aşkara çıxarmaq və bu qabiliyyətləri uşaqların fərdi keyfiyyətlərinə əsasən inkişaf etdirməlidirlər.

Yeniyetmələrin humanistik tərbiyəsi sahəsində aparılan sinifdənxaric tədbirlərin fərdi formaları onlarda özünütərbiyə,özünüifadə, daxili aləmlərini təkmilləşdirmə

hissləri və tələbatlarını formalaşdırmalıdırlar, əxlaqi keyfiyyətləri uşaqların əqidəsinə, davranış normalarına çevirməlidirlər. Sinifdənxaric tədbirlər yeniyetmələrin humanistik keyfiyyətlərinin formalaşmasına, inkişafına geniş imkanlar yaradırlar, gəncləri humanistik keyfiyyətlərin onların həyati, əxlaqi normaları, tutduqları fəal sosial-mənəvi mövqeyin əsas tərkib hissələri kimi qəbul olunmasına təkan verirlər və insanlarla yüksək humanizm nöqteyi nəzərdən münasibət qurmasının əsaslarını təkmilləşdirirlər.

## 2.2. Məktəbdənkənar tədbirlər prosesində yeniyetmələrin humanistik tərbiyəsinin təşkili yolları

Məktəbdənkənar tədbirlərin təşkili və həyata keçirilməsi yeniyetmələrin humanistik tərbiyəsinin ayrılmaz bir komponentidir. Məktəbdənkənar tərbiyə işinin əsas məqsədi gənclərin müxtəlifistiqamətli maraqlarını və qabiliyyətlərini inkişaf etdirmək, onlara ictimai fəaliyyətdə daha fəal iştirak etmələri üçün bacarıqlarını formalaşdırmaq, müstəqillik, cavabdehlik, biliklərin səviyyəsini yüksəltmək tələbatını dərinləşdirmək, daxili aləmlərini daha da zənginləşdirmək, asudə vaxtlarını daha səmərəli keçirməkdir. Təhsil ocaqları (otra ümumtəhsil məktəb) məktəbdənkənar tədbirləri məktəbdənkənar təşkilatlarla planlaşdırıb müəyyən istiqamətdə həyata keçirir. Qeyd etmək lazımdır ki, məktəbdənkənar təşkilatlar (musiqi, idman, yaradıclıq məktəbləri, uşaq kitabxanaları, teatrlar, kinoteatrlar, mədəniyyət sarayları, gənc texniklər stansiyaları, xoreoqrafiya məktəbləri, stadionlar, üzgüçülük hovuzları, müxtəlifistiqamətli klublar, uşaq-yeniyetmələr qurumları və s.) eyni zamanda cəmiyyətin sosial tərbiyə institutlarıdır və gənclərin təlim-tərbiyə prosesinin müvəffəqiyyətlə aparılmasının əvəzedilməz bir hissəsidir.

Məktəbdənkənar təşkilatların fəaliyyətinin pedaqoji əsasları pedaqogika, psixologiya, sosiologiya sahəsində çalışan alimlərin (M.M.Mehdizadə, M.A.Muradxanov, Ə.Ə.Ağayev, A.N.Abbasov, R.Ş.Mustafayeva, N.M.Kazımov, Ə.X.Paşayev, Y.K.Talıbov, S.Quliyev, H.Ə.Əlizadə, R.İ.Əliyev, İ.S.Mariyenko, L.İ.Novikova, M.B.Koval, T.E.Konnikova, E.Q.Kostyaşkin) tədqiqatlarında və elmi

əsərlərində öz geniş əksini tapmışdır. «Məktəbdənkənar tədbirlərin planlaşdırıb həyata keçirilməsinin əsas tələblərindən biri odur ki, bu tədbirlər mütləq şəkildə məktəbin apardığı tərbiyə işləri ilə sıx əlaqədə olsun» (43, 74).

Yeniyetmələrin humanistik tərbiyəsində məktəbdənkənar tədbirlər üç formada aparılır: kütləvi; qrup şəklində; fərdi. Məktəbdənkənar tədbirlərin kütləvi formaları (mühazirə şəklində müxtəlif təşkilatlarda aparıla bilər, incəsənət aləmində müvəffəqiyyətlə çıxış edən müğənnilərlə, kinoteatr aktyorları ilə, qabaqcıl elm xdimləri ilə görüşlər uşaq-yeniyetmələr yaradıcılığının sərgisi, müxtəlifistiqamətli dərnəklər, bölmələr, briqadalar, studiyalar, qurumlar, yaradıcı qaleriyalar, lektoriyalar, müxtəlifistiqamətli elmi-praktiki cəmiyyətlər və s.).

Məktəbdənkənar tədbirlərin fərdi formaları (yeniyetmələrin fərdi yaradıcı tapşırıqların yerinə yetirilməsi, bədii studialarda aparılan işlər, musiqi alətlərdən istifadə etməyin öyrənməsi, müxtəlif məruzələrin hazırlanması, kompyuter əsaslarının öyrənilməsi, fərdi tapşırıqların yerinə yetirilməsi və s.). Bütün bu sadaladığımız məktəbdənkənar tədbirlərin formaları yeniyetmələrin humanistik tərbiyəsində özünəməxsus yer tutular, bu tədbirlər gənclərdə xeyirxahlıq, qayğıkeşlik, həssaslıq, hörmət-izzət, ehtiram, qəddarlığı, zorakılığa qarşı barışmazlıq, ədalətlilik, başqasına fəal kömək, doslarının, yoldaşlarının fikri ilə razılaşmaq, tolerantlıq, təmənnasız kömək kimi humanistik keyfiyyətlərin yaranmasına və inkişafına böyük kömək göstərir. Məktəbdənkənar tədbirlərin planlaşdırılması və keçirilməsi məsələləri ilə məşğul olan müəllimlər, tərbiyəçilər mütləq şəkildə apardıqları humanistik tərbiyə prosesində fəaliyyətlərinin üsullarını və formalarını daimi genişləndirib inkişaf etdirməlidirlər. «Tərbiyə prosesində elə üsullardan, vasitələrdən istifadə etmək lazımdır ki, onlar daha optimal və geniş şəkildə yeniyetmələrin humanistik keyfiyyətlərin inkişafına təkan versinlər» (23, 81). Orta ümumtəhsil məktəblərində apardığımız tədqiqat iş zaman müşahidəmiz onu göstərdi ki, yeniyetmələrin humanistik tərbiyəsi prosesində məktəbdənkənar tədbirlərin planlaşdırılması, təşkil olunub həyata keçirilməsi zamanı pedaqoji kollektiv öz fəaliyyətini inkişaf etdirir və yeniyetmələrin bu prosesdə müəyyən həyatı və sosial təcrübəsinə yiyələnməsinə kömək göstərirlər. Belə müsbət halları nəzərə alaraq,

bununla belə qeyd etməliyik ki, yeniyetmələrin humanistik tərbiyə prosesi zamanı istifadə olunan məktəbdənkənar tədbirlərin təşkil olunmasında və həyata keçirilməsində müəyyən çatışmamazlıqlar gözə çarpır. Məsələn, məktəbdənkənar tədbirlərin müxtəlif məktəbdənkənar təşkilatları ilə aparılması zamanı məqsədyönlülük prinsipi bir qədər arxa plana çəkilir, tədbir öz davamı iləgedir, amma sırf humanistik keyfiyyətlərin yaranıb formalaşmasına xüsusi diqqət az verilir. Tədbirləri hazırlayarkən, gənclərlə tərbiyəvi iş apararkən, bizim fikrimizcə, çox zaman ikincidərəcəli sözlərə geniş meydan verilir, humanistik keyfiyyətlərin konkret adlarını çəkməkdənsə «gənclər özlərini yaxşı aparmalıdırlar», «həyatda əyri-əskikliklərə yol verməməlidirlər» kimi ümumi söz konstruksiyalarından istifadə edirlər. Bu səbəbə görə apardığımız çoxsaylı anket sorğusu zamanı yeniyetmələr humanistik keyfiyyətlərin konkret mənasını açıb bizə çatdırmaqda müəyyən çətinliklər çəkirdilər. Digər gözə çarpan çatışmamazlıqlardan biri də məktəbin və məktəbdənkənar təşkilatlar arasında yaranmış münasibətlər kifayət qədər sıx deyil. Məsələn, biz məktəb dərnəklərinə rəhbər etmək üçün məktəbdənkənar təşkilatlardan dəvət edilən mütəxəssislərin çox az bir sayını gördük. Məktəbdənkənar tədbirlərin hazırlanmasında valideynlərin, yerli inzibati orqanların fəaliyyəti bir qədər məhdud xarakter daşıyırdı, məktəbin valideynlər komitəsinin işi, məktəbin ağsaqqallar şurasının fəaliyyəti yeniyetmələrin humanistik tərbiyəsinin müvəffəqiyyətli, tərəqqi yolu ilə aparılması üçün bizim fikrimizcə, daha fəal, məqsədyönlü şəkildə planlaşdırılıb aparılmalıdır.

Yeniyetmələrin humanistik tərbiyəsində Məktəbdənkənar tədbirlərin təşkil olunub həyata keçirilməsi və bu tədbirlər zamanı gənclərin humanistik keyfiyyətlərə yiyələnməsi səviyyəsini öyrənmək məqsədi ilə biz yeniyetmə-şagirdlərlə çoxsaylı anketlər payladıq. Bu anketlərin birini nümunə məqsədi ilə diqqətə çatdırırıq. (Anketlər qarışıq formada hazırlanmışdır.).

Anket №2

1. İnsanın mənliyini dəstəkləyən humanistik ənənələrdən bilikləri hansı mənbələrdən toplayırsınız?

   a) məktəbdən

b) ailədən

c) məktəb və ailədən kənar

d) yadıma sala bilmirəm

2. Hansı mənbələrdən yüksək səviyyəli humanistik keyfiyyətlərə nail olan obrazlardan məlumat toplayırsınız?

   a) kitablardan

   b) radioverilişlərdən

   c) televiziya verilişlərdən

   d) kinofilmlərdən

   e) teatr tamaşalardan

3. Sizin yaxın dostunuz ağır xəstələnib və məktəbə getməyə imkan yoxdur. Siz ona nə kimi köməklik göstərə bilərsiniz?

   a) hər gün onu məktəbə aparıb gətirə bilərəm

   b) onun ev tapşırıqlarını onunla birlikdə edə bilərəm

   c) dostumu sağlam olana kimi narahat etmərəm

4. Necə bilirsiniz «məğrur» olmaq insanın müsbət və ya mənfi keyfiyyətidir?

   a) yaxşı keyfiyyətdir

   b) pis keyfiyyətdir

   c) cavab verməyə çətinlik çəkirəm

5. Necə bilirsiniz «məğrur» insanın diqqətli, təvazökar ola bilər?

   a) ola bilər

   b) ola bilməz

   c) cavab verməyə çətinlik çəkirəm

6. Necə bilirsiniz məktəbinizlə digər məktəbdənkənar təşkilatının hazırlayıb həyata keçirdiyi tədbirlər Sizdə humanistik keyfiyyətlərin inkişafına təkan verirmi?

   a) təkan verir

   b) təkan vermir

   c) cavab verməyə çətinlik çəkirəm

7. Yaşlı nəslin nümayəndələrinə hər zaman hörmət, ehtiram göstərirsiniz?
   a) hər zaman
   b) hərdən
   c) vəziyyətdən asılıdır
8. Sizdə humanistik keyfiyyətlərin inkişafı üçün müəllimlərin, tərbiyəçilərin məktəbdənkənar tədbirlərin hazırlanması və həyata keçirilməsi zamanı səyylərindən razı qalırsınız?
   a) razı qalıram
   b) razı qalmıram
   c) bu barədə heç vaxt düşünməmişəm
9. Ümumiyyətlə məktəbdənkənar tədbirlərin hazırlanması və həyata keçirilməsi səviyyəsindən razısınızmı?
   a) razıyam
   b) razı deyiləm, çox maraqsızdır
   c) bu barədə heç fikirləşməmişəm, tədbir tədbirdir də
10. Deyə bilərsinizmi, məktəbdənkənar tədbirlər Sizdə humanistik keyfiyyətləri inkişaf etdirib və Sizin daxili aləminizin vacib bir tərkib hissəsi kimi formalaşdırıb?
   a) bəli, deyə bilərəm
   b) yox, deyə bilmərəm
   c) cavab verməyə çətinlik çəkirəm
11. Məktəbdənkənar tədbirlər Sizin sinifinizdə humanistik şəxsiyyətlərarası münasibətlərin əsasını müvəffəqiyyətlə yaradıb inkişaf etdirməyə imkanları nə qədər genişdir?
   a) imkanları genişdir
   b) düşünürəm ki, imkanları məhduddur
   c) bu barədə heç fikirləşməmişəm

Anketlərin cavablarını alaraq, söhbətlərimizə, müşahidəmizə əsaslanaraq belə bir fikrə gəlmək olar ki, yeniyetmə-şagirdlərin humanist tərbiyəsində müəyyən çatışmamazlıqla bərabər bui şin səviyyəsini yüksəltmək üçün geniş rezrv və imkanlar

vardır. Anketlərin cavabları onu göstərdi ki, bəzən hansısa bir məktəbdənkənar tədbirin hazırlanıb həyata keçirilməsində müəllimlər, tərbiyəçilər tərəfindən yeniyetmə-şagirdlərin psixoloji, fərdi, yaş xüsusiyyətlərini diqqət mərkəzindən uzaqlaşır. Qeyd etmək lazımdır ki, bəzən müəllimlərin, tərbiyəçilərin peşəkar qabiliyyətin aşağı səviyyədə olması yeniyetmələrin humanistik tərbiyəsi, demək olar ki, sistemsiz, xaotik şəkildə aparılır. Bu hallarda yeniyetmələrə pedaqoji təsirin azalması nəticəsində, gənclər ətrafdakı mənfi keyfiyyətləri götürürlər və nəticədə şəxsiyyətlərarası münasibətlərdəbiganəlik, kobudluq, eqoizm, zorakılığa üstünlük vermək keyfiyyətlərin əsasında qurulmuş ünsiyyət yaradırlar. Bəzi hallarda müəllimlər, tərbiyəçilər yeniyetmələrin humanistik tərbiyəsində fərdi iş formalarından tamamilə istifadə etmirlər, kütləvi iş formaları ilə kifayətlənib aldıqları yekun nəticəni obyektiv şəkildə qiymətləndirə bilmirlər. Nəticədə yeniyetmələrdə inamsızlıq, apatiya, qeyritəşəbbüskarlıq, maraqsızlıq hissləri əmələ gəlir.

«Müşahidələrimiz göstərir ki, bəzi hallarda şagird kollektivi ilə müəllim, tərbiyəçi kollektivi arasında sıx əlaqələrin olmaması, bir məqsədə qulluq edən ideyanın olmaması, ümumiyyətlə «şagird-müəllim» münasibətlərinin düzgün qurulmaması birgə aparılan işlərin uğursuzluğuna gətirir» (6, 143). Münasibətlər tam şəkildə pozitiv xarakteri daşımalıdır (subordinasiya qaydalarını pozmamaq şərti ilə) yeniyetmələrdə optimizm hissi oyanmalıdır, humanistik keyfiyyətlərə yiyələnməsi onların daxili aləmlərini təsiredici səviyyədə zənginləşdirməlidir. Bəzən sinidənxaric, məktəbdənkənar tədbirlər o qədər nadir hallarda keçirilir ki, yeniyetmələrin nəinki humanistik keyfiyyətləri formalaşır, əksinə, onlar bütün asudə vaxtlarını küçə şəraitində keçirirlər, küçə jarqonuna yiyələnirlər, küçənin abu-havasını götürüb, ümumiyyətlə insanlarda humanistik keyfiyyətlərin olub-olmamasına şübhə ilə yanaşırlar. Ailədə tərbiyə işinin qurulmasından da çox şərtlərdən asılıdır. Əgər valideynlər gündə bir-birilə mübahisə edirlərsə, bir-birinə nəlayiq sözlər deyirlərsə, içki içirlərsə, uşaqların tərbiyəsinə heç bir fikir vermirlərsə, yeniyetmələrin hansı humanistik keyfiyyətlərinin formalaşmasından söhbət açmaq olar. Bu çox ciddi bir amildir və bir məktəbin nə qədər də uğurlu tərbiyə işi aparılmırsa, yeniyetmələrin sosiallaşma prosesini tam pozitiv şəkildə apara bilməz, onların humanistik

keyfiyyətlərə yiyələnməsi çox böyük bir çətinliklərlə rastlaşa bilər. Bir vacib müddəanı diqqət mərkəzində saxlamaq lazımdır - məktəbdənkənar və sinifdənxaric tədbirlər zamanı yeniyetmələrin humanistik keyfiyyətlərin formalaşması və inkişafı mütləq şəkildə öz əsaslı əksini valideynlər, məktəbin pedaqoji kollektivi və ictimaiyyət tərəfindən tapmalıdır və bu vahidlik hər bir zaman gözlənilməlidir. Məktəbdənkənar tədbirlərin əsas məqsədlərindən biri orta ümumtəhsil məktəblərində aparılan təlim-tərbiyə prosesinin səviyyəsini yüksəltmək, yeniyetmələrin dünyagörüşünü zənginləşdirmək, onları humanistik keyfiyyətlərin yiyələnməsinə yönəltmək və sözün əsl mənasında cəmiyyətə yararlı, insani keyfiyyətlərilə zənginləşmiş şəxsiyyət formalaşdırmaqdır. Ümumiyyətlə, əgər məktəbdənkənar tədbirləri məqsədyönlü şəkildə hansısa bir problemin müsbət həllinə yönəldilərsə, bu tədbirlərin şəxsiyyətin tərbiyə-formalaşma prosesində imkanları genişdir və yeniyetmə-şagirdlər tərəfindən çox maraqla qəbul olunur. Məsələn, bizim köməyimiz ilə tədqiqat işini apardığımız məktəblərdə yeniyetmələrin humanistik tərbiyəsini daha məqsədyönlü şəkildə təşkil etmək üçün müxtəlif mövzularla bağlı etik söhbətlərin toplusunu hazırladıq. Bu topluya belə mövzular daxil lunmuşdur (mövzuları hər bir vaxt tələblərə əsasən dəyişmək olardı).

1. Şəxsiyyətin humanistik tərbiyəsi – ümumi tərbiyə prosesinin ayrılmaz bir hissəsidir.
2. Kollektivdaxili humanistik şəxsiyyətlərarası münasibətlərin yaranması yolları.
3. Şəxsiyyətin humanistik keyfiyyətlərlə zənginləşməsi onun cəmiyyətin aparıcı konstruktiv yaradıcı bir qüvvəsi kimi çıxış etməsi deməkdir.
4. Şəxsiyyətin humanistik tərbiyəsində ailənin, məktəbin, ictimaiyyətin birgə işinin rolu.
5. Sinifdənxaric və məktəbdənkənar tədbirlər prosesində yeniyetmələrin humanistik tərbiyəsinin təşkili və həyata keçirilməsi xüsusiyyətləri
6. Şəxsiyyətin humanistik tərbiyəsində mili ənənələrin, folklorun, xalq yaradıcılığın rolu
7. Şəxsiyyətin humanistik tərbiyəsində yaşayış ərazidə fəaliyyət göstərən ağsaqqallar şurasının vəzifələri və imkanları

8. Yazıçılar, Rəssamlar İttifaqlarının, idman klublarının, ictimai təşkilatların gənclərin humanistik tərbiyəsində rolu

9. Şəxsiyyətin humanistik keyfiyyətlərə yiyələnməsi vətənpərvərliyin ayrılmaz bir hissəsidir.

10. Şəxsiyyətin humanistik keyfiyyətlərə yiyələnməsi dünyavi tərəqqi prosesinin əsas şərtlərindən biridir.

Bu etik söhbətləri yeniyetmələrlə aparanda müxtəlif çıxışlara qulaq asdıq, fikir mübadiləsi apardıq, gənclərin mövqeləri ilə tanış olduq, onlarınarahat edən, tələblər dairəsində öz yerini tapan suallara cavab verdik, müxtəlif həyati vəzifələri birgə dərindən təhlil etdik. Məktəbdənkənar tədbirlərin arasında yeniyetmələrin kütləvi şəkildə kinofilmlərə tamaşa etməsi böyük pedaqoji təsir qüvvəsinə malikdir və gənclərin humanistik tərbiyəsində özünəməxsus yer tutur. Məsələn, yeniyetmə-şagirdlərin humanistik keyfiyyətlərinə nail olmaq üçün biz məktəblərin pedaqoji kollektivləri ilə kinoklub yaratdıq (Sinematoqraf) və bu kinoklubun repertuarlarını hazırladıq (repertuar şərti xarakter daşıyır və bir vaxt dəyişə bilər).

1. Onu bağışlamaq olarmı?
2. Uzaq sahillərdə
3. Böyük dayaq
4. Bizim Cəbiş müəllim
5. Gün keçdi
6. Uşaqlığın son gecəsi
7. Axırıncı aşırım
8. Dəli Kür
9. Yeddi oğul istərəm
10. Fəryad
11. Bizi bağışlayın
12. Təmiz səma
13. Mən sizi öz həyatımdan artıq sevirdim
14. Don Kixotun uşaqları
15. Bizim küçə

16. Durnalar uçur
17. Ögey ana
18. Bir ilin doqquz günü
19. Dədə Qorqud
20. Teymur və onun komandası
21. Nəsimi
22. Qanun naminə
23. Bir qalanın sirri
24. Vasyuk Trubaçyov və onun dostları.

Bu kinofilmlərə tamaşa edəndən sonra onun geniş müzakirəsi təşkil olunurdu. Çox gözəl bir amildir ki, bu kinofilmlərin əsas ideyası insani keyfiyyətlərin həyatda hər bir şərtdən üstünlüyünü göstərirdi və əsas qəhrəmanların hərəkətləri, davranışları yeniyetmələr üçün əvəzedilməz bənzəmə nümunəsi olmuşdur. Bu kinofilmlərdə yeniyetmələr xeyirxahlıq, həssaslıq, qayğıkeşlik, hörmət-ehtiram, zorakılığa qarşı barışmamazlıq, diqqətlilik, nəzakətlilik, insanların sevincinə, dərdinə şərik olmaq kimi keyfiyyətlərin əsil nümayişinin şahidi oldular, yüksək insani keyfiyyətlərin həyatda ən böyük varlığı olduğunu dərindən qəbul etdilər və qəhrəmanların hisslərinə şərik oldular.

Yeniyetmələrin humanistik tərbiyəsində məktəbdənkənar tədbirlərin arasında ciddi yer tutan rəsam sərgilərinə ekskursiyalar böyük pedaqoji təsir qüvvəyə malikdir. Şəhərimizdə nümayiş olan Azərbaycan rəssamları (Tahir Salahov, Fgrhad Xəlilov, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə) əsərlərinə diqqət yetirəndə, hiss olunur ki, bu əsərlər insanın ən yüksək, ən varlı hisslərin (humanistik hisslərin) formalaşmasına qulluq edir. Şəkillərdə əks olunmuş insanların nürani sifətləri, gözlərin işiltısı, təbiətin bir fon kimi verilməsinin gözəlliyi yeniyetmələrdə özlərinə inam, həyatda perspektivlik hissi, cəmiyyətə lazımi olmaq hissləri oyanır, gənclər humanistik keyfiyyətlərin əsas mənasını daha dərindən və ətraflı başa düşürlər, həyatda bu kimi hisslərlə rəhbərlənməyə çalışırlar. Rəsam sərgilərdə qərb ölkələrin, dünya şöhrətli rəssamların əsərlərinə nümayiş olunur (Rembrandt, Van Qoq, Tisian, Karavadjo, B.Kustodiyev, M.Vrubel, M.Şaqal, V.Vasnetsov, Rotari,

F.Buşe, V.Perov, O.Krauz, O.Renuar, İ.Repin, İ.Etti və s.). Sadaladığımız rəssamların əsərlərində insanın unikallığı,müstəqilliyi, onun dünyavi bir dəyər olmağı təsdiq olunur, şəxsiyyətin humanistik keyfiyyətləri dünyavi xarakter daşıyan proseslərin əvəzedilməz, sarsılmaz bir əsası kimi nəzərə çatdırılır.

Yeniyetmələrin humanistik tərbiyəsi prosesində istifadə olunan məktəbdənkənar tədbirlərin arasında uşaq evlərinə getmək kimi iş forması böyük əhəmiyyət kəsb edir. Yeniyetmələr qabaqcadan belə tədbirə hazırlıq görürlər, kitablar, müxtəlif məktəb ləvazimatları, oyuncaqlar alıb hazırlayırlar, səbirsizliklə tənha uşaqlar ilə görüşləri gözləyirlər. Yeniyetmələrin uşaq evlərinə getməsi, demək olar ki, onların daxili aləmlərini alt-üst edir – uşaqların tənhalığını, valideyn tərəfindən diqqət mərkəzində olmamaqlarını, uşaqlıq ərəfəsini, sözün əsl mənasında, lazımi səviyyədə duymamadıqları çox vaxtı gülüşə aciz qaldıqlarını göröndə, dünyada öz hisslərini cilovlaya bilmirdilər. Uşaq evlərinə getmə yeniyetmələrdə humanistik keyfiyyətlərə nail olmaq hissi qat-qat artır, onlar sözün əsl mənasında, qayğıkeşliyi, xoşbəxtliyi, həssaslığı, xeyirxahlığı, insanın dünyavi varlığını, unikallığını dərindən başa düşürlər və özlərinin praktik fəaliyyətini humanist olmaq çərçivəsində aparırlar və başqalarına nümunə olurlar.

«Yeniyetmələrin humanistik keyfiyyətlərə yiyələnməsi müxtəlif təşkilatların nəzdində fəaliyyət göstərən musiqi-yaradıcı studiyalarda məqsədyönlü şəkildə aparılır» (28, 106). Belə studiyaların devizi böyük rus yazıçısı F.M.Dostoyevskinin sözləriilə əhatə olunur «Gözəllik dünyanı xilas edəcək». Əlbəttə, söhbət yalnıx xarici gözəllikdən getmir, birinci növbədə insanın daxili gözəlliyi nəzərdə tutulur. Əgər insan daxili gözəlliyə malikdirsə, o heç vaxt zorakılığa, qəddarlığa yol verməz, müharibəni, insanların bədbəxtliyini, zülmünü sakit ürəklə qəbul edə bilməz, hər bir vaxt belə mənfi hadisələrlə, keyfiyyətlərlə amansız mübarizə aparar. Musiqi-yaradıcı studiyalar ölkəmizin yaradıcı adamları ilə, onların fəaliyyəti ilə, nailiyyətləri ilə yeniyetmələri tanış edir, onların həyatından ibrət dərsi götürməyi gənclərə məsləhət görür. Studiyalarda yeniyetmələr Ü.Hasıbəyovun, F.Əmirovun, D.Hacıyevin, X.Şuşinskinin, D.Qaryağdının, S.Rüstəmovun, Ə.Tağıyevin gözəl musiqi əsərlərinə qulaq asırlar, bu əsərlərin insanda yüksək ruh hissinin əmələ gəlməsinə, humanist

nöqteyi nəzərindən formalaşmasına böyük imkanlar yaradır. Əsərləri dinləyəndə yeniyetmələr insanlararası münasibətlərin gözəlliyini duyurlar, insanların bir-birinə kömək əli uzatmaqları, dərdinə sevincinə şərik olmaqları kimi qabiliyyətin yüksək səviyyədə təqdim olunmasının nümunəsini görürlər. Musiqi-yaradıcı studiyaların fəaliyyəti yeniyetmələrdə vətənə, millətinə məhəbbət, mili dəyrlərə böyük hörmət, ehtiram, yaşlı nəslin nümayəndələrinə lazımi səviyyədə göstərilən münasibət kimi hisslərin daha da inkişaf etməsinə böyük zəmin yaradır. Musiqi-yaradıcı studiyalar yeniyetmələrin daxili aləmlərini zənginləşdirir, emosional-psixoloji baxımdan dərinləşdirir, humanistik keyfiyyətlərin gənclərin əqidəsinə çevrilməsinə ciddi təkan verir.

Məktəbdənkənar tədbirlərin yeniyetmələrin humanistik tərbiyəsinə təsir edən çoxsaylı iş formalarından biri də Azərbaycan Milli Kitabxanasının nəzdində təşkil olunan kitab sərgisidir. Bu sərgidə iştirak edərək, yeniyetmələr milli bədii ədəbiyyatın nümunələri ilə yaxından tanış olurlar, onların səhifələrində qaldırılan əxlaq problemlərini dərindən təhlil edirlər, əsərlərin qəhrəmanlarına (müsbət nümunələrinə) həyatda bənzəmək istəyirlər. Müəlliflərin (A.Şaiq, S.Rüstəm, M.İbrahimov, Ə.Vəliyev, S.Ordubadi, M.Sabir, F.Qoca, M.Rəsulzadə və s.) qaldırdıqları əxlaqi problemlər, onların müsbət həlli yollarının dərin təhlili və kompozisiyanın gedişi yeniyetmələri biganə qoymur, fəal şəkildə bədii əsərlərdə qaldırılan problemlərini məktəbdə, kitabxanada, ayrı-ayrı yaradıcılıq xarakteri daşıyan tədbirlərdə müzakirə edirlər. Bədii əsərlərdə qaldırılan əxlaqi, humanistik problemlər yeniyetmələrə, ümumiyyətlə humanistik keyfiyyətlərə nail olmaqlarına əsaslı zəmin yaradır, inkişaf edir. «Yeniyetmələr humanistik keyfiyyətlərin müsbət nümunələrini Gənc Tamaşaçılar teatrında görə bilərlər» (47, 109). Tamaşalar əsl insanın mənəvi cəhətdən böyüklüyündən, onun unikallığından, humanistik keyfiyyətlərin insanın mənəvi simasına əsa sbir amil kimi çıxış etməyindən danışır. Yeniyetmələr tamaşadan sonra gənc aktyorlar ilə görüşürlər, onların səhnədə nümayiş etdirilən həyatı vəziyyətləri, sualları, problemləri, münasibətləri geniş şəkildə təhlil edib fikir mübadiləsi aparırlar. Tamaşalar gənc nəsli sözün əsl mənasında maraqlandıran problemlərə toxunurlar (şəxsiyyətin müstəqilliyi, onun

özünüreallaşdırma, özünüifadə, özünümüəyyənləşdirmə, mənəvi-sosial baxımdan təkmilləşdirmə, idrak fəaliyyətin səviyyəsinin yüksəldilmə yolları, ahəngdar inkişafın meyyarları və s.). Bu problemlərlə yaxından tanış olması, onların həyatda reallaşdırma yollarının axtarışına ciddi fikir verilməsi, yeniyetmələrin humanistik tərbiyəsinin daha səmərəli şəkildə aparılmasına geniş zəmin yaradır.

Qeyd etmək lazımdır ki, hansı bir təşkilatın ərazisində məktəbdənkənar tədbirlər keçirilirsə, müəllimlər, tərbiyəçilər o təşkilatın təhsilverici-mədəni mühitini qabaqcadan öyrənməlidirlər, bu mühitin yeniyetmələrə təsirinə müəyyən etməlidirlər, gənclərin humanistik tərbiyəsini müvəffəqiyyətlə həyata keçirilməsi üçün təşkilatın sosial, psixoloji-pedaqoji amillərini peşəkar nöqteyi nəzərindən müəyyənləşdirməlidirlər. Məktəbdənkənar tədbirlərin səmərəli şəkildə aparılmasının əsas şərtlərindən biri də yeniyetmələrin humanistik keyfiyyətlərə yiyələnməsi fəallığını onların şəxsi mədəniyyətinə çevirmək və bu çoxaspektli yaranmanı gənclərin daxili əqidəsinə çevirməkdir.

### 2.3. Yeniyetmələrin humanistik tərbiyəsində pedaqoji rəhbərliyin rolu

Gənc nəslin hərtərəfli, ahəngdar inkişafında, onların sosiallaşma prosesində, mənəvi-intellektual nöqteyi nəzərindən daha dərin formalaşmasında, özünüreallaşdırmanın yollarını, imkanlarını axtarmasında, cəmiyyətin fəal, konstruktiv-yaradıcı qüvvəsi kimi çıxış etmələrinə can atmasında, bu kimi proseslərin pedaqoji rəhbərliyin problemi daimi ictimaiyyətin, pedaqoji elmin diqqət mərkəzində olub. Gənclərin sosial formalaşması, onların daxili aləminin inkişafı, milli və dünyavi dəyərlərə yiyələnməsi həyatda fəal mənəvi-sosial mövqeyin tutmasının müvəffəqiyyəti məhz düzgün təyin edilmiş pedaqoji rəhbərliyin istiqamətindən, üslubundan və bu rəhbərliyin daha səmərəli yollarının axtarışından və həyata keçirilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Gənc nəslin sosial formalaşmasında pedaqoji rəhbərliyin rolu dünyaşöhrətli pedaqoqlar-klassiklərin (A.S.Makarenko, K.D.Uşinskiy, V.A.Suxomlinskiy, S.T.Şatskiy və b.) əsərlərində öz əksini tapmışdır. Alimlərin fikrincə, gənclərin (yeniyetmələrin) hərtərəfli inkişafında pedaqoji

rəhbərliyin səmərəliliyin əsas şərtindən biri də şagird və müəllim kollektivləri arasında mütləq şəkildə mənəvi-psixoloji pedaqoji təmas yaratmışdır. «Yeniyetmələrin humanistik tərbiyəsində, onların insani keyfiyyətlərə yiyələnməsində, təlim-tərbiyə prosesinin səviyyəsinin yüksəlməsində pedaqoji rəhbərliyin əhəmiyyətli rolu sarsılmazdır» (26, 135). Bizim fikrimizcə, yeniyetmələrin humanistik tərbiyəsinin pedaqoji rəhbərliyin daha səmərəli səviyyədə təşkil olunub həyata keçirilməsində bir neçə şərtləri mütləq şəkildə gözlənilməlidir. Şagird və müəllim kollektivlərin təhsil ocağında aparılan tərbiyə işinin məqsədini, vəzifələrini, məzmununa dərindən anlamağı; şagird və müəllim kollektivinin praktiki fəaliyyətin düzgün koordinasiyası; yeniyetmələrin səmərəli pedaqoji rəhbərliyində müvəffəqiyyətli və arqumentləşdirilmiş iş üslubunun seçilməsi; şagird və müəllim kollektivlərin arasında sıx pozitiv münasibətlərin yaradılması; təhsil ocağının (məktəbin) ümumi psixoloji şəraitinin pozitivləşdirilməsi; respublikada qabaqcıl müəllimlərin təcrübəsinə əsaslanaraq, yeniyetmələrin pedaqoji rəhbərliyin yeni, daha səmərəli formaların və üslubların axtarışı. Yeniyetmələrin humanistik tərbiyəsində məqsədyönlü və arqumenrtləşdirilmiş pedaqoji rəhbərliyin təbii tələbatları obyektiv və subyektiv amillərlə diktə olunur. Çox vaxtı yeniyetmələr hansısa bir sualın pozitiv həllinin tapmasında, mənəvi-sosial nöqteyi nəzərindən formalaşmasında müəyyən çətinliklərə rast gəlirlər və belə hallarda müəllim kollektivinin yüksəkixtisaslı köməklərinə ehtiyac duyurlar.

Təhsil ocaqlarında (orta ümumtəhsil məktəblərində) yeniyetmələrin humanistik tərbiyəsinin pedaqoji rəhbərliyi təşkilati-pedaqoji və psixoloji-pedaqoji səviyyələrdə həyata keçirilir. Pedaqoji rəhbərliyin təşkilati-pedaqoji səviyyəsi müəllimlərin, tərbiyəçilərin, valideynlərin tərəfindən yeniyetmələrin humanistik tərbiyəsinin müvəffəqiyyətini yüksəltmək üçün gənclərin həyatında, davranışında, praktiki fəaliyyətində daha səmərəli, təsirli şərtlərin yaradılmasıdır. Bu şərtlərin bir neçə istiqamətini diqqət nəzərinə gətirək:

– təlim-tərbiyə prosesinin müxtəlif növlərində (sinifdənxaric, məktəbdənkənar) həmsiniflərin pozitiv qarşılıqlı münasibətlərin yaradılması;

– kollektivdaxili ünsiyyətin mənalı şəkildə yaradılması;

– «şagird-kollektiv», «şagird-müəllim», «şagird ailə» münasibətlərin korreksiya olunması;

– yeniyetmələrin ailədaxili, məktəbdaxili münasibətlər səviyyəsinin yüksəldilməsi üçün müxtəlif istiqamətli tədbirlərin keçirilməsi;

– müəllim kollektivinin üzvləri arasında humanistik münasibətlərin inkişafını «müəllimlər-şagirdlər», «müəllimlər-valideynlər» münasibətlər mədəniyyətinin səviyyəsinin yüksəldilməsi;

– məktəb kollektivinin həyatında müxtəlifistiqamətli ictimai-faydalı əmək fəaliyyətin yaradılması və geniş şəkildə həyata keçirilməsi (məktəbdə ictimai-faydalı əməyin lazımi səviyyədə təşkil olunub aparılmaması yeniyetmələrin özünüreallaşdırma, özünüifadə imkanlarını ciddi şəkildə məhdudlaşdırır);

– şagird kollektivinin özünüidarə orqanlarının yaradılması yeniyetmələrin ictimai həyatında yaradıcı şəkildə iştirak etmələrinin şərti kimi qəbul olunmalıdır və yeniyetmələrdə insanlara qarşı yüksək humanistik keyfiyyətlərin təqdim olunması tələbatların yaranması;

– yeniyetmələrin humanistik tərbiyəsində qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi və hərtərəfli təlim-tərbiyə prosesində istifadə edilməsi;

Təhsil ocaqlarında yeniyetmələrin humanistik tərbiyəsinin pedaqoji rəhbərliyinin digər səviyyəsi – psixoloji-pedaqoji səviyyədir. Pedaqoji rəhbərliyin bu səviyyəsinin obyekti yeniyetmələrin motivasiya sahəsidir. Gənclərin hərəkət, fikir motivlərinə rəhbərlik etmədən onların davranışına, praktiki fəaliyyətinə pedaqoji nöqteyi nəzərdən rəhbərlik etmək mümkün deyil. Gənc nəsildə (yeniyetmələrin) humanistik motivasiyasının formalaşmasında müəllimlər, tərbiyəçilər səviyyəsini əsirgəməməlidirlər, əks təqdirdə təhsil ocaqları (orta ümumtəhsil məktəbi) cəmiyyətin onların qarşısına qoyduğu əsas sosial missiyasını yerinə yetirə bilməzlər. «Yeniyetmələrin humanistik tərbiyəsini səmərəli şəkildə həyata keçirmək üçün müəllimlərin, tərbiyəçilərin, valideynlərin, gənclərin humanistik keyfiyyətlərə yiyələnməsinin real vəziyyətini özlərinə dərindən təsəvvür etməlidirlər və fəaliyyətlərinə düzgün korrektə etməlidirlər» (9, 37).

Biz yeniyetmələrlə çoxsaylı söhbətlər, diskussiyalar aparmışıq, müsahibələr təşkil etmişik, uzunmüddətli müşahidələr keçirmişik, çoxsaylı anket sorğuları təşkil etmişik və aparmışıq. Bizim tədqiqat işimizin aparılması zamanı çoxsaylı anket sorğularının birini diqqət nəzərinə çatdırırıq.

Anket №3

1. «Pedaqoji rəhbərlik» deyəndə nəyi nəzərdə tutursunuz, onu necə başa düşürsünüz?

2. Necə bilirsiniz, yeniyetmələrin humanistik tərbiyəsində bu prosesə pedaqoji rəhbərlik əsas şərtlərdən biridirmi?

3. Sizin fikrinizcə, pedaqoji rəhbərlik hansı formada təşkil olunmalıdır?

4. Yeniyetmələrin humanistik tərbiyəsi zamanı aparılan pedaqoji rəhbərliyin səviyyəsini yüksəltmək üçün nə kimi fikirlər irəli sürə bilərsiniz?

5. Necə bilirsiniz, yeniyetmələrin sosial formalaşmasında pedaqoji rəhbərliyin rolu mühümdür?

6. Deyə bilərsinizmi, şagird kollektivi pedaqoji rəhbərliyin səviyyəsini yüksəltmək üçün müəllim, tərbiyəçilər kollektivinə nə kimi kömək göstərə bilər?

7. Siz «rəhbərlik» və «pedaqoji rəhbərlik» sözlərinin arasında fərq görürsinizmi? Cavabınızı arqumentləşdirin.

8. Necə bilirsiniz, pedaqoji rəhbərliyin düzgün seçilmiş üslubu yeniyetmələrin humanistik tərbiyəsinin səmərəliliyinə qulluq edirmi?

9. Necə bilirsiniz, pedaqoji rəhbərlik yeniyetmələrin yaş və fərdi xüsusiyyətlərini, maraq dairələrini, təşkilatlarını nəzərə almalıdır?

10. Necə bilirsiniz, pedaqoji rəhbərlik yeniyetmələrin yaradıcı nöqteyi nəzərindən özünüifadə etməyə kömək edirmi?

11. Deyə bilərsinizmi, yeniyetmələrin humanistik tərbiyəsi zamanı təşkil olunan pedaqoji rəhbərlik gənclərin dünyagörüşünü genişləndirir, dərinləşdirir, milli və ümumdünya mənəvi-sosial dəyərlərinə yiyələnməsinə ciddi təkan verir?

12. Yeniyetmələrin humanistik tərbiyəsi zamanı təşkil olunan pedaqoji rəhbərlik gənclərdə vətənpərvərlik, daha dərin insani keyfiyyətlərin formalaşmasına kömək

edir. Bu cümləni necə başa düşürsünüz? Cavabınızı arqumentləşdirin və daha ətraflı şəkildə təhlil edin.

Gördüyümüz kimi, anketlər açıq xarakter daşıyır və yeniyetmələrin ətraflı, dərindən fikirləşib cavab verməyə hər cür imkanlar var idi. Anket sorğusunun cavablarına əsasən dörd şərti xarakter daşıyan qruplar təşkil etdik (uşaqlar öz fikirlərini sərbəst izah edirdilər).

I qrup – bu qrupa aid etdiyimiz yeniyetmələr, demək olar ki, humanistik keyfiyyətlərin mənasını düzgün başa düşürdülər, insanlararası münasibətləri humanistik əsasları nöqteyi nəzərindən qururdular. Yeniyetmələr dostlarına, sinif yoldaşlarına çox hörmət hissi ilə yanaşırdılar, müəllimlərlə münasibətlərini pozitiv şəkildə qururdular, yeniyetmələrin humanistik tərbiyəsində pedaqoji rəhbərliyin mütləq şəkildə təşkil olmasına heç bir şübhələri yox idi. Bu qrupa aid etdiyimiz yeniyetmələr onların sosial formalaşmasında pedaqoji rəhbərliyin zəruriyyətini qeyd edirdilər, mili və ümumdünya dəyərlərinə yiyələnməsində pedaqoji rəhbərliyin rolunu çox yüksək qiymətləndirirdilər və dəstəkliyirdilər.

II qrup - bu qrupa aid etdiyimiz yeniyetmələr humanistik keyfiyyətlərə yiyələnmək istəklərini fəal şəkildə təqdim edirdilər, amma bu təqdim hər bir vaxt ardıcıl xarakter daşımırdı və qeyd etmək lazımdr ki, şəxsiyyətlərarası münasibətləri, müəyyən hallarda, humanistik normalara əsaslanaraq yox, dar qrup maraqlarına əsasən qururdular. Pedaqoji rəhbərliyin mahiyyəti, demək olar ki, düzgün başa düşüb qiymətləndirirdilər, bununla belə, müəyyən hallarda pedaqoji rəhbərliyin mütləq şəkildə olmasını şübhə altına qoyurdular. Bu qrupa aid olan yeniyetmələr belə hesab edirdilər ki, müəyyən hallarda şagirdlərin humanistik keyfiyyətlərə yiyələnməsi pedaqoji rəhbərlik altında yox, xaotik hadisələr təsiri altında formalaşa bilər və gənclərin əqidəsinə çevrilə bilər. Bu qrupa aid olunan yeniyetmələr sərbəst inkişaf yolunu dəstəkləyirdilər və bu yolla müsbət cəhətlərini, özləri anladığı formada arqumentləşdirib müəllimlərə çatdırırdılar.

III qrup - bu qrupa aid etdiyimiz yeniyetmələr humanistik keyfiyyətlərə çox passiv formada yiyələnirdilər, məqsədyönlü pedaqoji təsirdən boyun qaçırırdılar, pedaqoji rəhbərliyin olub-olmaması onları çox da maraqlandırmırdı. Humanistik

keyfiyyətlərin mənasını, demək olar ki, aşağı səviyyədə başa düşürdülər, sözün əsl mənasında humanistik keyfiyyətlərə məqsədyönlü şəkildə yiyələnməkdən imtina edirdilər, pozitiv şəxsiyyətlərarası münasibətləri yalnız ən yaxın dostları ilə, ya da onlara lazımi olan adamlarla qururdular. Pedaqoji rəhbərliyin məzmununu, demək olar ki, bilmirdilər «rəhbərlik» və «pedaqoji rəhbərlik» ifadələri arasında heç bir fərq görmürdülər, ümumiyyətlə, pedaqoji rəhbərliyin səviyyəsini yüksəltmək üçün heç bir fikir söyləmirdilər, humanistik keyfiyyətlərin məqsədyönlü şəkildə formalaşmasına ciddi fikir vermək istəmirdilər.

IV qrup - bu qrupa aid etdiyimiz yeniyetmələr, əsasən öz eqoistik hərəkətləri ilə, humanistik keyfiyyətlərinin, demək olar ki, çox aşağı səviyyədə olması ilə fərqlənirdilər, onlar humanistik keyfiyyətlərin mənasını açıqlayarkən çox dolaşıqlıqlara yol verirdilər. Bu qrupa aid etdiyimiz yeniyetmələr sinif yoldaşları ilə kobud rəftar edirdilər, məktəbin qocaman müəllimlərinə, işçilərinə, bəzi hallarda, gizli formada hörmətsizlik göstərirdilər. «Pedaqoji rəhbərlik» ifadəsinin mənasını müəllimlərin, tərbiyəçilərin gündəlik apardığı işlərlə qarışıq salırdılar, ümumiyyətlə, humanistik tərbiyənin nə olduğunu aydın şəkildə təsəvvür etməkdə çətinlik çəkirdilər və xalqımızın adət-ənənələrindən humanistik davranış misallarını çəkməkdə aciz qalırdılar. Yeniyetmələrin sosial formalaşmasında məktəbin, ailənin, ictimaiyyətin rolunu açıqlayıb dərindən təhlil edə bilmirdilər, mili, ümumbəşəri dəyərlərdən, onların şəxsiyyətin inkişafına təsirindən səthi təsəvvürləri vardır. Yeniyetmələrin pedaqoji rəhbərliyə münasibətlərinin səviyyəsini, səthi olsada, aid eləməklə, biz onlarla humanistik tərbiyə sahəsində apardığımız işlərin istiqamətlərini dəqiqləşdiririk, bu prosesə pedaqoji rəhbərliyin xüsusiyyətlərini aydınlaşdırıb mövcud vəziyyətə uyğunlaşdırırıq. Apardığımız tədqiqat zamanı biz yeniyetmələrin humanistik tərbiyəsi prosesinə pedaqoji rəhbərliyin bir neçə istiqaməti ilə rastlaşdıq və bu istiqamətlərin (üsulların) spesifik xüsusiyyətlərini və müəllim-tərbiyəçi kollektivi tərəfindən arqumentləşdirilməsini dərindən təhlil etdik.

Yeniyetmələrin humanistik tərbiyəsi zamanı üç əsas pedaqoji rəhbərliküsullarını müşahidə etdik: a) avtoritar üslub; b) şagird kollektivinin işlərinə, tərbiyə prosesinə qarışmamaq üslubu; c) məsləhətçi-koordinasiyaedən (demokratik) üslub. Qeyd

elədiyimiz kimi, bu üç üslubun özlərinə əsasən xüsusiyyətləri var və yeniyetmələr təlim-tərbiyə prosesində bu üsullar daha geniş istifadə olunur. Yeniyetmələrin humanistik tərbiyəsinin yüksək səviyyəyə çatdırmaq məqsədimizlə rəhbərlənərək, onlara bu prosesdə pedaqoji rəhbərliyin müxtəlif istiqamətlərini (üslublarını) dərindən təhlil edilməsi mühüm bir amil kimi nəzərə alınmalıdır. Yeniyetmələrin təlim-tərbiyə prosesində, xüsusən də, humanistik tərbiyəsi zamanı formalizm, xırdaçılıq, gipertəşkilatçılıq kimi iş hallarına yer vermək olmaz, amma, bunu da qeyd etmək lazımdır ki, bəzi təhsil ocaqlarında yeniyetmələrin humanistik tərbiyəsi prosesi zamanı müəllim-tərbiyəçi kollektivi tərəfindən açıq-aşkar pedaqoji rəhbərliyin avtoritar üslubu müəyyən yer tutur. Bizim fikrimizcə belə hallar müəllim-tərbiyəçi kollektivi tərəfindən şagird kollektivinin özünün tərbiyəvi imkanlarına inamsızlıqdan irəli gəlir. Tədqiqatçı E.V.Andrienko öz elmi çap əsərlərində dəfələrlə qeyd edirdi ki, yeniyetmələrlə müəllim-tərbiyəçi kollektivinin münasibətində pedaqoji rəhbərliyin avtoritar üslubu istifadə olunursa, belə tərbiyə prosesi şagirdlərin passivliyinə, tədbirlərə formal yanaşmalarına, müəllimlərə, tərbiyəçilərə qarşı ikiüzlülük kimi mənfi keyfiyyətlərin yaranmasına səbəb olur. «Pedaqoji rəhbərliyin avtoritar üslubu, ümumiyyətlə, şagird kollektivinin özünüifadə imkanları məhdudlaşdırır, uşaqlarda qeyri-təşəbbüskarlıq, amorfluq, apatiya kimi keyfiyyətlərin əmələ gəlməsinə şərait yaradır» (14, 87). Glbəttə, belə hallarda, şagird kollektivinin öz üzvlərinə təsiri azalır, yeniyetmələrin humanistik keyfiyyətlərə yiyələnməsində müxtəlif çətinliklər yaradır. Tədqiqat zamanı bizim müşahidələrimiz göstərdi ki, pedaqoji rəhbərliyin avtoritar üslubunu müəllim-tərbiyəçi kollektivi həyata keçirəndə, yeniyetmələr, əsasən öz hərəkətlərində, fəaliyyətində mənfi motivlərlə rəhbərlənirdilər – əsasən cəzalanmaqdan nəyin bahasına olursa olsun boyun qaçırmaq. Yeniyetmələr çalışırdılar öz rəhbərlərində asılı olsunlar, onlarla münasibətləri yalnız rəsmi şəkildə qırmaq, ünsiyyət əlaqələrini çox aşağı səviyyədə qurmaq. Yeniyetmələrin humanistik tərbiyəsi zamanı pedaqoji rəhbərliyin avtoritar üslubundan istifadə edərək, müəllim-tərbiyəçi kollektivi gənclər şəxsiyyətinin formalaşmasına, demək olar ki, heç bir təsir göstərə bilmirlər, bu proses xaotik şəkildə yeniyetmələrin sosial, həyatı təcrübəsi əsasında baş verir və, sözsüz ki, gənclərin inkişafında qarşıya müəyyən çətinliklər

çıxır. Biz müəllim-tərbiyəçi kollektivin üzvlərinə çoxsaylı söhbətlərimiz zaman onların həyatda keçirdikləri pedaqoji rəhbərliyin avtoritar üslubunun söhbətlərini öyrənmək üçün suallar vermişdik: a) «Nə üçün yeniyetmələrin tərbiyə prosesində yalnız pedaqoji rəhbərliyin avtoritar üslubundan istifadə edirsiniz?»; b) «Yeniyetmələrin tərbiyə prosesində (humanistik tərbiyə) digər pedaqoji rəhbərliyin üslubundan istifadə edə bilərsinizmi?»; aldığınız cavablarla tərbiyə prosesinin müəyyən çatışmamazlıqları arqumentləşdirmək olar. Cavablar: 1) «Mən bir müəllim (tərbiyəçi) kimi uşaqlara öz üstünlüyünü mütləq şəkildə nümayiş etməliyəm»; 2) «Uşaqlarla ayrı cürə işlərimi qursam, demək olar ki heç bir müsbət nəticə əldə edə bilmərəm»; 3) «Uşaqların hələ o qədər də yüksək intellektual-mənəvi səviyyəsi yoxdur, mən dediyimi eləsələr, peşiman olmazlar, irəli gedərlər».

Tədqiqatımız zamanı biz yeniyetmələrin humanistik tərbiyəsi zamanı müəllim-tərbiyəçilər tərəfindən istifadə edilən pedaqoji rəhbərliyin digər üslubunu da gördük və bu üslub yeniyetmələrin tərbiyə prosesinə tamamilə qarışmamaq ilə xarakterizə olunurdu. Müəllim-tərbiyəçi kollektivi bu üslubun həyata keçirilməsi zamanı sadəcə uşaqların tərbiyəsi prosesinə passiv formada müşahidə edirdilər.

Qeyd etmək lazımdır ki, pedaqoji rəhbərliyin belə üslubunu həyata keçirərkən (uşaqların işlərinə tamamilə qarışmamaq) müəllim-tərbiyəçi kollektivi şagirdlər kollektivindən çox-çox aralı düşür, gənclər müəllimlərlə məsləhətləşmirlər, onları maraqlandıran suallara cavab tapmaq üçün çətinliklər çəkirlər, müəllimlərin onlara kömək etmələrinə inanmırlar. Tədqiqatçı M.Q. İvanov öz elmi əsərlərində qeyd edirdi ki, yeniyetmələrin tərbiyə prosesində pedaqoji rəhbərliyin uşaqların işlərinə tamamilə qarışmamaq üslubu nəticədə çox mənfi bir vəziyyətin əmələ gəlməsinə çıxara bilər. Belə hallarda «müəllim-şagird» münasibətləri kəskin şəkildə ucuzlaşır, onların arasında sosial məsafə azalar, «müəllim-şagird» münasibətlərində familyarlıq əmələ gəlir, tərbiyə prosesi zamanı qarşıya qoyulan məqsədin mənası itir, yeniyetmələrin humanistik keyfiyyətlərə yiyələnmə cəhdləri və səyyələri arxa plana çəkilir. Yeniyetmələrin humanistik tərbiyə prosesi zamanı müəllim-tərbiyəçilər tərəfindən həyata keçirilən pedaqoji rəhbərliyin bu üslubunun səbəbləri öyrənmək üçün bir pedaqoji kollektivlə apardığımız çoxsaylı söhbətlər zamanı onlara müstəqil suallar

verirdik: a) «Uşaqların tərbiyə işinə məqsədyönlü şəkildə qarışmamaq pedaqoji rəhbərlik üslubuna nə üçün üstünlük verirsiniz?»; b) «Necə bilirsiniz, bu kimi pedaqoji rəhbərlik üslubu yeniyetmələrin humanistik tərbiyə səviyyəsini yüksəldə bilər?». Aldığımız cavablar tərbiyə prosesində irəli gələn çətinlikləri müəyyən dərəcədə əsaslandırır: 1) «Yeniyetmələrin tərbiyə prosesi öz-özü ilə gedir, müəllim-tərbiyəçilər qarışsada, qarışmasada, məqsədyönlü işin aparılması o qədər də vacib deyil»; 2) «Onsuzda uşaqlar öz bildiklərini edirlər, nə qədər də səyylər göstərsən, nəticədə onlara heç kim fikir vermir»; 3) «Demək olmaz ki, biz uşaqların tərbiyəsinə heç bir fikir vermirik, uşaqların özlərindən çox asılıdır, əgər istəyirlərsə, biz onlara kömək edirik, istəmirlərsə onların öz işləridir».

Tədqiqat prosesində yeniyetmələrin humanistik tərbiyəsi zamanı müəllim-tərbiyəçilər tərəfindən həyata keçirilən pedaqoji rəhbərliyin məsləhətverici-koordinasiedici (demokratik) üslubunu da müşahidə etmişdir. Qeyd etmək lazımdır ki, pedaqoji rəhbərliyin demokratik üslubu ən məqsədyönlü və tərəqqi xarakteri daşıyırdı. Yeniyetmələrin humanistik tərbiyəsi zamanı istifadə olunan pedaqoji rəhbərliyin demokratik üslubu müəllim-tərbiyəçilər və şagirdlər arasında yaranmış münasibətləri çox stabil və möhkəm xarakterizə edirdi. Belə pedaqoji rəhbərliyin üslubu ilk növbədə əməkdaşlıq və qarşılıqlı əlaqə əsasında qurulmuşdur, bu da müəllim-tərbiyəçilər kollektivinin pedaqoji təsirin məqsədyönlü, dinamik şəkildə aparılmasına geniş imkanlar yaradır.

Pedaqoji rəhbərliyin demokratik üslubu yeniyetmələrin humanistik tərbiyəsində uşaqlar tərəfindən təşəbbüskarlıq, müstəqillik, sərbəstlik kimi keyfiyyətlərə nail olmaqlarına kömək edir və bu hallarda şagird kollektivi tərəqqi xarakteri daşıyan yaradıcı-konstruktiv bir qüvvəyə dönür, onun bütün şagirdlərə pedaqoji təsir səviyyəsi qat-qat artır. «Pedaqoji rəhbərliyin demokratik üslubu yeniyetmələri ictimai işlərdə fəal iştirak etmələrinə yönəldir, onların sosial formalaşmasını sürətləndirir, humanistik tərbiyəni daha məqsədyönlü şəkildə aparılmasını təmin edir, mili, ümumdünya dəyərlər əsasında şəxsiyyət kimi formalaşmasına yönəldir» (15, 79). Böyük rus alimi, dünyaşöhrətli pedaqoq-klassik A.S.Makarenko öz pedaqoji əsərlərində hər bir vaxt pedaqoji rəhbərliyin demokratik üslubunu dəstəkləyirdi,

müəllim-şagird kollektivlərinin birgə fəaliyyət göstərmələrinin tərəfdarı idi və bu kollektivlərin tərbiyəsində iki kollektiv kimi yox, bir qüvvəli pedaqoji kollektivi kimi qəbul edirdi. Müəllim-tərbiyəçilər kollektivi yeniyetmələrin humanistik tərbiyəsi prosesində pedaqoji rəhbərliyin demokratik üslubundan istifadə etməsinin səbəblərini öyrənmək üçün biz onlarla apardığımız çoxsaylı söhbətlər zamanı bir neçə suallardan istifadə etmişik: a) «Yeniyetmələrin humanistik tərbiyə prosesində pedaqoji rəhbərliyin demokratik üslubuna nə üçün üstünlük vermisiniz?» (bu üslubun tərəqqi xarakter daşımasını arqumentləşdirin); b) «pedaqoji rəhbərliyin demokratik üslubu tərbiyə prosesində irəli sürülən məqsədlərin pozitiv həllinə nə kimi köməklik göstərir?». Aldığımız cavablar tərbiyə prosesinin müəyyən istiqamətlərini, amillərini dəqiqləşdirməyə, daha ətraflı xarakterizə etməyə imkanlar yaradırdı: 1) «Yalnız pedaqoji rəhbərliyin demokratik üslubu yeniyetmələrin daxili aləminin vəziyyətini, onların maraqlarını, tələbatlarını, özünüreallaşdırma istəklərini, inkişaflarını daha dərin və ətraflı şəkildə öyrənməyə geniş imkanlar yaradır. Yeniyetmə-şəxsiyyətin bu keyfiyyətlərini dərindən öyrənib təhlil etmədən, onların emosional-psixoloji səviyyələrini bilmədən, inkişaf motivlərinin yaranmasının daxili mexanizmini araşdırmadan gənclərin sosial-mənəvi formalaşmasını uğurlu aparmaq olmaz». 2) «Pedaqoji rəhbərliyin demokratik üslubu əsasında qurulan «müəllim-şagird» münasibətləri pedaqoji kollektivə hər bir yeniyetməni bir şəxsiyyət kimi, yaradıcı qüvvə kimi, sosial-mənəvi cəhətdən cəmiyyətin gələcəyini təmin edən amil kimi qəbul etməyə imkanlar yaradır». 3) Pedaqoji rəhbərliyin demokratik üslubu, demək olar ki, öz mahiyyətinə görə humanistik xarakter daşıyır, humanistik münasibətlərin yaranmasına yönəldilib, gənclərin humanistik tərbiyəsinə məqsədyönlü şəkildə qulluq edir, onları özünüreallaşdırmağa, sosial-mənəvi cəhətdən inkişafa yönəldir. Bizim müşahidələrimizə əsasən, müəllim-tərbiyəçi kollektivi yeniyetmələrin humanistik tərbiyə prosesi zamanı pedaqoji rəhbərliyin demokratik üslubundan istifadə edərək daha yüksək, daha uğurlu nəticələr əldə edirdilər və tərbiyə işin səviyyəsi belə hallarda çox yüksək idi.

Rusiya tədqiqatçısı V.A.Karakovskiy öz elmi əsərlərində qeyd edirdi ki, «müəllimlər-şagirdlər» münasibətlərindən çox şərtlər asılıdır, uşaqlar müəllim,

tərbiyəçilər kollektivinə hörmət bəsləyirlərsə, ümumi işin də nəticəsi yüksək səviyyədə həll olunmasına ciddi şərait yaranır, o uşaqları bir gül kimi təsəvvür edir və deyir ki, «uşaqlar-güldülər, onlar hər zaman xeyirxahlığı, günəşə üzlərini çevirəcəklər». «Yeniyetmələrin humanistik tərbiyəsinin müvəffəqiyyətlə aparılması müəllim-tərbiyəçi kollektivinin, ailədə valideynlərin yüksək kommunikativ mədəniyyətinin inkişafını nəzərdə tutur» (16, 113). Kommunikativ mədəniyyət, demək olar ki, insani qarşılıqlı əlaqələrin yüksək mədəniyyəti deməkdir. Görkəmli rus alimi, dünyaşöhrətli pedaqoq-klassik K.D.Uşinskiy öz pedaqoji əsərlərində müəllim-tərbiyəçilərin kommunikativ mədəniyyətindən söz açarkən qeyd edirdi ki, müəllimin gənc nəslin daxili aləminə təsirini heç bir dərsliklə, heç bir öyüd-nəsihətlə, heç bir rəğbətləndirmə ya da cəzalandırma sistemi ilə əvəz etmək olmaz. Müəllim, tərbiyəçi, valideynlər elə bir yüksəksəviyyəli kommunikativ mədəniyyətə malik olmalıdılar ki, gənclər onlara inansınlar, onlara dərindən hörmət etsinlər, davranışlarını özlərinə parlaq bir nümunə kimi təsəvvür etsinlər.

Yeniyetmələrin humanistik tərbiyəsində, onlara pedaqoji rəhbərlik edən müəllimlər, tərbiyəçilər, valideynlər özləri yüksəksəviyyəli mənəvi keyfiyyətlərə, peşəkarlığa, praktiki hazırlığa nail olmalıdırlar, özlərinə tələbkar olmalıdırlar və daimi şəxsiyyət nöqteyi nəzərindən inkişafda olmalıdırlar. Yeniyetmələrin humanistik tərbiyəsi zamanı həyata keçirilən pedaqoji rəhbərliyin demokratik üslubu gənclərdə mənəvi idealın formalaşmasında mühüm bir yer tutur. Yeniyetmələr bu mənəvi idealı öz şüurlarında bir abstraksiya kimi yox, konkret real insanları tuturlar, hansıların psixoloji, mənvi-iradi keyfiyyətləri onlara reallaqda bir nümunə kimi qəbul olunur. Belə insanlar (məktəbin müəllimləri, tərbiyəçiləri, qocaman işçiləri) yeniyetmələr tərəfindən yüksəksəviyyəli bir etalon kimi qəbul olunurlar və gənclər öz gələcəyini onların həyatları, praktiki fəaliyyətləri ilə uyğunlaşdırırlar.

Tədqiqat zamanı apardığımız müşahidələrə əsaslanaraq demək olar ki, yeniyetmələrin təlim-tərbiyə prosesində onların humanistik tərbiyəsində irəli çıxan çətinliklərin bir səbəbi də odur ki, bəzi müəllimlərin, tərbiyəçilərin gənclərin inkişafı məsələsində pedaqogika və psixologiya sahəsində peşə bilikləri lazımi səviyyədə deyil.

Belə hallar peşə informasiyasının onlara gec çatmasından, təhlil qabiliyyətinin lazımi səviyyədə olmamasından irəli gəlir. Çox vaxt biz məktəbin müəllimləri, tərbiyəçiləri digər məktəbdə tərbiyə prosesində istifadə olunan qabaqcıl təcrübədən, iş üsullarından xəbərsizdilər. Biz müəllimlərə, tərbiyəçilərə belə peşə çatışmamazlıqları aradan qaldırmaq üçün lazımi pedaqoji, psixoloji, sosioloji ədəbiyyatdan axından tanış olmasını məsləhət gördük və texniki elmi kitabların müəlliflərini və onların çap əsərlərinin siyahısını hazırlayıb təqdim etdik. Məsələn, «Azərbaycan Respublikasının Təhsil qanunu», «Gənclərin mənəvi tərbiyəsinin problemləri» (Y.P.Talıbov), «Pedaqogikanın qaydaları və prinsipləri» (B.A.Əhmədov, A.N.Hacıyev), «Tərbiyənin elmi-pedaqoji əsasları» (N.M.Kazımov), «Pedaqogika-konspektlər və sxemlər» (A.N.Abbasov), «Məktəblilərin fəal həyat mövqesi və mənəvi tərbiyəsi» (R.Ş.Mustafayeva), «Məktəblilərin vətəndaşlıq bazasının tərbiyəsi» (Ə.Ə.Ağayev), «Sosial pedaqogika» (X.Ə.Əlizadə, R.M.Maxmudova), «Məktəblilərin mili-mənəvi dəyərlər əsasında tərbiyəsi» (L.M.Qasımova), «Azərbaycan xalq pedaqogikası» (Ə.S.Bədəlov), «Məktəblinin etik-estetik aləmi» (V.C.Xəlilov), «Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi» (K.Z.Hüseynzadə), «Mənəviyyət: inam və əxlaq vəhdəti» (N.A.Əkbərov), «Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti» (İ.H.Cəbrayılov), «Ailə pedaqogikasının ümumi problemləri» (S.M.Quliyev), «Tərbiyə psixologiyası» (R.İ.Əliyev) və s.

Bizim fikrimizcə, müəllimlər, tərbiyəçilər yuxarıda sadaladığımız elmi çap əsərləri ilə yaxından tanış olsalar, onları dərindən təhlil etsələr və əldə olunmuş bilikləri və qabaqcıl təcrübədən geniş istifadə edib tərbiyə işində istifadə etsələr, yeniyetmələr humanistik tərbiyə prosesinin səviyyəsi yüksələr və gənclər humanistik biliklər, vəzifələri, bacarıqları daha ətraflı şəkildə mənimsəyib onları özlərinin daxili əqidələrinə çevirirlər. Biz hesab edirik ki, yeniyetmələrin humanistik tərbiyəsi prosesində pedaqoji rəhbərliyin səviyyəsini yüksəltmək üçün aşağıdakı şərtləri mütləq şəkildə həyata keçirmək lazımdır:

– şagird kollektivinin rolunu ümumi tərbiyə prosesində yüksək olması, yeniyetmələrin ümummilli mənəvi dəyərlər əsasında formalaşdırılması (humanizm,

demokratizm, vətənpərvərlik, vətəndaşlıq, şəxsi və fərdi maraqların vəhdəti, xeyirxahlıq, qayğıkeşlik, həssaslıq, hörmət, düzgünlük və s.);

– şagird və müəllimlər, tərbiyəçilər kollektivlərinin məqsədlərinin və tərbiyəvi tədbirlərinin vəhdəti;

– şagird və müəllimlər tərbiyəçilər kollektivlərinin arasında optimal təşkilati-pedaqoji, daxili-psixoloji münasibətlərin yaradılması və daimi inkişafı;

– yeniyetmə-şagirdlgrin humanistik tərbiyəsində pedaqoji rəhbərliyin düzgün tərəqqi xarakteri daşıyan üslubunun seçilməsi (demokratik üslub).

– şagird kollektivinin ümumi tərbiyə prosesində özünü obyekt və subyekt kimi reallaşdırması üçün optimal geniş şəraitlərin yaradılması.

# NƏTİCƏ

Gənc nəslin humanistik tərbiyəsi, onun humanistik keyfiyyətlərə yiyələnməsi, ölkəmizin bütün sosial tərbiyə institutlarının bu sahədə apardıqları işlərin təkmilləşdirilməsi demokratik yolu ilə inişaf edən cəmiyyətin əsas tələbatlarından birinə çevrilir. İnsansevərlik şəxsiyyətin fərdi və ictimai inkihafının ahəngdar şəkildə qurulmasının əsası kimi qəbul olunur və onun yaradıcı aləminin formalaşmasına geniş imkanlar yaradır. Gənclərin (yeniyetmələrin) humanistik tərbiyəsinin xüsusi sosial mahiyyəti ona görə də yüksəkdir ki, demoratik yol ilə inkişaf edən cəmiyyətlə fərdi xoşbəxtlik problemi yalnız şəxsi xarakter daşımır.

Şəxsiyyətin fərdi xoşbəxtliyi demokratik cəmiyyətdə aparılan ictimai dəyişkənliklərin həm məqsədidir və, eyni zamanda, cəmiyyətin və onun vətəndaşlarının rifahının yüksəldilməsinin əsas şərtlərindən biridir. Demokratik cəmiyyətin daimi inkişafı yüksək səviyyəli sosial-iqtisadi şəraitlərin olması ilə bərabər fundamental sosial-psixoloji, sosial-pedaqoji şərtlərin olmasını tələb edir. Bu şəraitlərin əsas göstəricisi gənclərarası yüksək səviyyəli humanistik münasibətlərin olmasıdır. Yeniyetmələrin humanistik tərbiyəsinin təkmilləşdirilməsi tələbatı, bir tərəfdən, elmi-tərəqqinin inkişafı ilə, o, biri tərəfdən, şəxsiyyətlərarası münasibətlərin, ünsiyyətin mürəkkəbləşməsi ilə bağlıdır. Bu nöqteyi nəzərdən, şəxsiyyətarası münasibətlərin genişlənməsi müsbət amil kimi qəbul olunması və psixoloji-pedaqoji, sosialoji gərginliyə gətirməməsi cəmiyyətin ümumi humanistik mədəniyyətin səviyyəsini mütləq şəkildə yüksəldilməsi zəruri bir amilə çevrilir. Bu səpkidə aparılan hökümət siyasətinin müsbət reallaşmasının əsas amillərindən biri də orta ümumtəhsil mətəbləridir – ictimai münasibətlərin humanistləşdirilməsi gənc nəslin yüksəksəviyyəli humanistik mədəniyyəti ilə hərtərəfli təmin olunmalıdır.

Aparılan tədqiqat aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1) Yeniyetmələrin humanistik tərbiyəsi – obyektiv və subyektiv amillərlə təyin olunmuş mürəkkəb, çoxtərəfli, çoxamilli bir prosesidir və bu prosesin müsbət şəkildə aparılması, pozitiv nəticələrə gəlməsi yeniyetmələri əhatə edən mühitdən, həyat tərzindən, şəxsiyyətlərarası münasibətlərin quruluş səviyyəsindən, onlara müəllimlər,

tərbiyəçilər tərəfindən pedaqoji təsir sistemindən birbaşa asılıdır. Subyektiv amillərin arasında bunları misal kimi gətirmək olar (pedaqoji təsirin üsul, formaların və yeniyetmələrin nəzəri və praktiki hazırlığın arasında yaranmış uyğunluluq; yeniyetmələrin mənəvi-sosial xarakteri daşıyan arzuları ilə həyatda tutduqları real mənəvi mövqe arasında qeyriuyğunluq; humanistik keyfiyyətləri dərindən mənimsənilməsi üçün, onların mənasını, mahiyyətini daha ətraflı şəkildə başa düşmək üçün yeniyetmələrin ümumi intellektual bazasının lazımi səviyyədə olmaması; yeniyetmələrdə praktiki fəaliyyətin sosial mənalı nöqteyi nəzərindən qiymət vermə qabiliyyətinin və bu fəaliyyəti dərindən təhlil etmə bacarıqlarının lazımi səviyyədə olmaması və s.). Sadaladığımız çatışmamazlıqlar müəllimlər, tərbiyəçilər tərəfindən məqsədyönlü tərbiyə işlərini aparmaqla, yeniyetmələrin özlərinin səyylərinə əsaslanaraq aradan götürülür və gənclərin humanistik tərbiyəsi məntiqi baxımdan düzgün və pozitiv şəkildə öz davamını tapır.

2) Qeyd etmək lazımdır ki, yeniyetmələrin humanistik tərbiyəsi prosesinin aparılmasında əldə olunmuş müsbət təcrübənin olması ilə bərabər bəzi hallarda bu təcrübənin lazımi səviyyədə olmamağını müşahidə etmək olar. Bizim fikrimizcə, yeniyetmələrin humanistik keyfiyyətlərinə dərindən yiyələnməsi, bu keyfiyyətlərin gənclərin həyatı əqidəsinə çevrilməsi üçün müəllimlər, tərbiyəçilər tərəfindən istifadə olunan pedaqoji təsirlər sistemi birbaşa, mütləq şəkildə, yeniyetmələrin hisslər sahəsi ilə, onların təəssüratları ilə sıx əlaqədə olmalıdır. Yeniyetmələrin yüksək emosional vəziyyəti təhsil ocağının xeyirxah sosial-psixoloji aurasının yüksək səviyyədə olmasını təmin edir və, ümumiyyətlə, aparılan təlim-tərbiyə prosesi müvəffəqiyyətlə davam edir.

3) Yeniyetmələrin humanistik keyfiyyətlərə yiyələnməsi ardıcıl şəkildə baş verir, onlar mövcud insanlararası münasibətlərə qiymət verirlər öz hisslərin və əqidələrini dərindən təhlil edirlər və bu səylərin nəticəsində şəxsiyyətlərarası münasibətlərin yüksək səviyyəli təcrübəsini gldə edirlər. Yeniyetmələrin humanistik tərbiyəsi prosesi zamanı humanitar fənnlərin tədrisi, müəllimlər tərəfindən bu fənnlərin tədrisi zamanı uğurlara humanistik keyfiyyətlərin mahiyyəti, vacibliyini çatdırmaq səyyləri qənaətbəxşdir və gənclərin humanizm ruhunda tərbiyə edilməsi

işində faydalı təcrübə toplanıb. Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, humanitar fənlərin tədrisində ilk növbədə yeniyetmələrin idrak qabiliyyətlərinə malik olmaqlarına çox fikir və üstünlük verir. Əlbəttə, yeniyetmələrin idrak qabiliyyətinin inkişaf çox vacib bir məsələdir, amma, bu prosesdə yeniyetmələrin humanizm keyfiyyətlərinə yiyələnməsi bir qədər arxa plana çəkilir. Humanitar fənlərin tədrisi zamanı müəllmlər əsas qəhrəmanların, tarixi şəxslərin həyatından danışanda, bədii əsəri təhlil edəndə, gənclərin daxili aləminin formalaşması problemini yaddan çıxartmamalıdır, onlara humanistik xarakteri daşıyan misallardan geniş ətraflı istifadə etməlidir, başqa sözlə, yeniyetmələrin daxili humanistik aləminin formalaşmasına daha ciddi fikir verməlidir.

4) Yeniyetmələrin humanistik tərbiyəsi prosesində təbiət fənnlərin tədrisi çox vacib bir yer tutur. Gənclərin fiziki, kimyəvi, bioloji, coğrafi, ekoloji biliklərinə yiyələnməsi prosesində onlarda təbiətə emosional dəyərli münasibəti daha genişləndirib inkişaf etmək lazımdır. Təbiət fənnlərin tədrisində müxtəlif elmi qanunları uşaqların nəzərinə çatdıranda, elm tarixində parlaq iz qoyan alimlərin, tədqiqatçıların həyatından, davranışından humanizm xarakteri daşıyan misallar çəkilməlidir. Dünya şöhrətli alimlərin dahiliyini yeniyetmələrə çatdırarkən, onların qoyduqları münasibətlərin humanizmindən, insansevərliklərindən, xeyirxahlığından da danışmaq lazımdır. Bu baxımdan hesab edirik ki, müəllimləri, tərbiyəçiləri humanizmin fəlsəfəsi, sosial əsaslarının bölməsi ilə silahlandırmaq lazımdır, onlar şəxsiyyətin formalaşmasının psixoloji-pedaqoji əsaslarını daha dərindən öyrənməlidirlər, yeniyetmələrin humanizm ruhunda tərbiyə olunması üçün təlim-tərbiyə prosesində istifadə olunan üsul və formaları təkmilləşdirib, daha təsirli, daha optimal iş priyomlarının daimi axtarışında olmalıdırlar;

5) Yeniyetmələrin humanistik tərbiyəsində onları «Uşaq hüquqları konvensiyası» ilə, Yuneskonun təklifi ilə yaradılmış «Dözümlülül – dünyanın astanasında» adlı sənədləri ilə tanış etmək gənclərin dünyagörüşünü genişləndirir, onlara öz hüquqlarını dərindən başa salır, humanizm ruhunda tərbiyə edilməsinə müsbət təsir göstərir. Yeniyetmələrin humanistik tərbiyəsini daha səmərəli şəkildə aparılması üçün müəllim, tərbiyəçilər kollektivini müxtəlif psixoloji-pedaqoji,

sosioloji ədəbiyyatla təmin etmək lazımdır. Məktəbarası münasibətlər möhkəmlənməlidir, müəllim, tərbiyəçilər kollektivi ayrı-ayrı təhsil osaqlarında aparılan tərbiyə işinin qabaqcıl üsulları, formaları ilə tanış olmalıdırlar. Orta ümumtəhsil məktəbin təlim-tərbiyə məkanı yeniyetmələrə humanistik xarakteri daşıyan müstəqillik prinsipinin reallaşdırılmasına geniş imkanlar yaratmalıdır və bu da öz növbəsində gənclərdə apardıqları praktiki keyfiyyətin nəticələrinə qarşı məsuliyyət hissi oyatmalıdır. Yeniyetmələrin humanistik tərbiyəsi prosesinin səmərəli şəkildə aparılması tərbiyə prosesində təlim, tərbiyə və inkişaf kateqoriyalarının mütləq şəkildə vəhdətini təşkil edib gözləmək lazımdır.

6) Yeniyetmələrin humanistik tərbiyəsi təlim prosesindən başqa sinifdənxaric tədbirlər zamanı da geniş şəkildə davam edir. Bu tədbirlərin təsirini gənclərdə artırmaq üçün onlar yeniyetmələrin marağına, tələbatlarına uyğun təşkil edilməlidir. Sinifdənxaric tədbirlər zamanı yeniyetmələr təlim prosesində əldə edilmiş humanistik bilikləri real praktiki şəraitdə sınaqdan keçirə bilərlər. Sinifdənxaric tədbirlər arasında «sual-cavab gecələri», «dairəvi masa araxasında söhbətlər», «şifahi jurnallar», «disputlar», müxtəlifistiqamətli söhbətlər, məruzələr, mühazirələr, əyani vəsaitlərdən istifadə müxtəlif dərnəklərin fəaliyyəti, fotosərgilər, müxtəlif ictimai tapşırıqların yerinə yetirilməsi, konfranslar, müxtəlif ictimai təşkilatlarda aparılan işlər, kitab sərgilərin təşkili, kinoklubların yaradılması, məhşur, hörmətli şəxslərin qonaq çağırılması, kiçikyaşlı uşaqlara kömək göstərilməsi kimi tədbirlər yeniyetmələrin humanistik tərbiyəsinə çox rəngli şəkildə təsir edirdi və onların mənəvi-sosial xarakteri daşıyan arzularını reallaşdırmaq imkanları yaradırdı. Sinifdənxaric tədbirlər zamanı məktəbdə ailənin əlbir fəaliyyəti geniş təmin edilməlidir.

7) Yeniyetmələrin humanistik tərbiyəsində məktəbdənkənar tədbirlərin öz xüsusi rolu vardır (ümumiyyətlə desək, təhsil sisteminin əsas hədəflərindən biri də məktəbdənkənar tərbiyə müəssisələridir). Məktəbdənkənar tədbirlərin formaları (kütləvi, qrup, fərdi) yeniyetmələrin daha dolğun şəkildə humanistik biliklərə, keyfiyyətlərə nail olmalarına yönəldilib. Məktəbdənkənar tədbirlərin keçirilməsi zamanı yeniyetmələr öz fərdi qabiliyyətlərinə və istedadların əsasında hərtərəfli inkişaf edir, sosial təcrübə qazanır, gələcək həyat yolunu təyin edir, humanistik

keyfiyyətlərlə varlanır, xalqımızın adət-ənənələrini daha drindən başa düşür, milli, ümumbəşəri dəyərlərə yiyələnir və cəmiyyətin aparıcı konstruktiv bir qüvvəsi kimi formalaşır. Məktəbdənkənar tərbiyə müəssisələri (idman məktəbləri, uşaq kitabxanası, musiqi məktəbləri, uşaq kinoteatrı, gənc texniklər stansiyası, gənc təbiətçilər stansiyası, rəssamlıq, xoreoqrafiya məktəbləri, uşaq düzgün studiyaları və s.) öz tərbiyə işlərini o səviyyədə qurub aparmalıdırlar ki bu tədbirlərdə yeniyetmələrin humanist hissləri zənginləşsin, insanlara qarşı qayğıkeş, xeyirxah, həssas, hörmət, ehtiram münasibətlərin yaranmasına təkan verilsin.

8) Yeniyetmələrin humanistik tərbiyəsinin səmərəli şəkildə qurulub aparılması bu prosesə pedaqoji rəhbərliyin səviyyəsindən ciddi şəkildə asılıdır. Pedaqoji rəhbərliyin ən pozitiv, tərəqqi xarakteri daşıyan üslubun seçilməsi (demokratik üslub), müəllimlərin, tərbiyəçilərin pedaqogika, psixologiya, sosiologiya sahəsində biliklərinin dərinləşdirilməsi, genişləndirilməsi, yeniyetmələrin maraqlarını, tələbatlarını, nəzəri və praktiki hazırlığının nəzərə alınması gənclərin humanistik tərbiyəsini daha da zənginləşdirir, humanistik keyfiyyətlərə nail olmaqlarını yeniyetmələrin daxili aləmlərinin tələbatına çevirir. Yeniyetmələrin humanistik tərbiyəsi məktəb, ailə, ictimaiyyətin birgə apardıqları tərbiyə işlərində yüksək səmərə səviyyəsinə çatır, belə kompleks şəklində aparılan iş pedaqoji rəhbərliyin (digər sosial tərbiyə institutların köməyi ilə) vəhdətini təmin edir və tərbiyə işində daha zəngin nailiyyətlərə malik olmağının əsasını qoyur.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2010, 260 s.

2. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2015, 320 s.

3. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Bakı: Renessans, 2000, 450 s.

4. Abbasova G.M., Mahmudova R.M., Əlizadə H.Ə. Təhsilin sosial-pedaqoji məsələləri. Bakı: Bakı Universiteti, 2008, 280 s.

5. Abbasova L.A. Tərbiyənin milli zəmində qurulmasında sinif müəlliminin rolu. Bakı: Mütərcim, 2006, 220 s.

6. Abdulov R.A. Məktəbdə sosial-pedaqoji işin əsasları. Bakı: Adiloğlu, 2005, 240 s.

7. Abdulov R.A. Sənin sosial fəallığın. Bakı: Adiloğlu, 2002, 266 s.

8. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005, 340 s.

9. Ağayev Ə.Ə., Rzayeva Y.T., Hüseynova T.M. Vahabova T.Ə. Sosial pedaqogika. Bakı: ADPU, 2008, 380 s.

10. Ağayev M.H. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı: Təhsil, 2011, 340 c.

11. Ağayev M.H. Təlim-tərbiyə prosesində Heydər Əliyev irsindən istifadə. Bakı: ADPU, 2009, 126 s.

12. Arzulu H.Ə. Müəllim-şagird dünyası. Bakı: Çənlibel, 2002, 120 s.

13. Bədəlova Ə.S. Azərbaycan xalq pedaqogikası. Bakı: Müəllim, 2009, 220 s.

14. Bağırova S.S. Azərbaycan Respublikasının dövlət atributları vasitəsilə şagirdlərin vətəndaşlıq tərbiyəsi. Bakı: TPİ, 2007, 240 s.

15. Cabrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2012, 326 c.

16. Cabrayılov İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı: Mütərcim, 2011, 260 s.

17. Camalov K.H. Sosial psixopedaqogikada istedadlı uşaqlar problemi. Bakı: Elm və Təhsil, 2011, 358 c.

18. Əliyev İ.İ. Ümumtəhsil məktəblərində etnopedaqoji materiallardan istifadənin nəzəri və əməli məsələləri. Bakı: Nurlan, 2004, 446 s.

19. Əkbərov N.A. Mənəviyyat: inam və əxlaq vəhdəti. Bakı: Nurlan, 2006, 220 s.

20. Əliyev R.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006, 246 s.

21. Əliyev R.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006, 228 s.

22. Əliyev P.A., Talıbova X.M., Məmmədova Ş.İ. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla tərbiyə işinin təşkili. Bakı: Mütərcim, 2011, 380 s.

23. Əliyev R.İ. Mentalitet. Bakı: Nurlan, 2009, 288 s.

24. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 300 s.

25. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı: Nurlan, 2000, 328 s.

26. Əliyeva E.M. Disputların orta ümumtəhsil məktəblərin şagirdlərinin mənəvi xüsusiyyətlərinin formalaşmasına təsiri. Bakı: ADPU, 2009, 344 s.

27. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Nurlan, 2004, 246 s.

28. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika. Bakı: Bakı Universiteti, 2013, 388 s.

29. Qasımova L.M. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004, 420 s.

30. Quliyev S.M. Ailə pedaqogikasının ümumi problemləri. Bakı: Mütərcim, 2005, 366 s.

31. Həmzəyev M.A. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Nurlan, 2000, 460 s.

32. Həsənov A.M., Ağayev Ə.Ə. Pedaqogika. Bakı: Nasir, 2011, 440 s.

33. Hüseynzadə R.Z., Əkbərov N.A. Məktəbdə pedaqoji prosesin təşkili. Bakı: ABTM, 2013, 466 s.

34. Hüseynzadə R.Z., İsmailova M.C. Tərbiyə işi və onun metodikası. Bakı, ADPU, 2012, 244 s.

35. Hüseynzadə R.Z. Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi. Bakı, Müəllim, 1997, 320 s.

36. Xəlilov S.A. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti, 2005, 448 s.

37. Xəlilov S.A. Məktəblinin etik-estetik aləmi. Bakı: Nərgiz, 2011, 340 s.

38. İbrahimov F.N. Ümumi pedaqogikadan mühazirələr. Bakı: Mütərcim, 2010, 280 s.

39. Kazımov Y.Ş. Təlim metodları. Bakı: Nasir, 2007, 340 s.

40. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Nurlan, 2011, 344 s.

41. Kərimova Z.M. Asudə vaxtlarda şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində diyarşünaslıq materiallarından istifadənin imkan və yolları. Bakı, ADPU, 2003, 288 s.

42. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Çaşıoğlu, 2007, 266 s.

43. Mehrabov A.O. Şagird intellektinin inkişafı. Bakı: Mütərcim, 2000, 336 s.

44. Məmmədov R.F., Rəhimova G.M., Camalov Ş.V., Məmmədova A.İ. Məktəblərdə insan hüquqları. Bakı: Nurlan, 2006, 288 s.

45. Mustafayev R.Ş. Təlim prosesində milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1994, 440 s.

46. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı: Çaşıoğlu, 2012, 460 s.

47. Rəsulov S.Ə., Əzizov R.M. Orta ümumtəhsil məktəbin idarə edilməsinin əsas istiqamətləri. Bakı: Mütərcim, 2011, 244 s.

48. Seyidov N.M. və b. İctimai fəal məktəb: Məktəb-İcma-Ailə əməkdaşlığı. Bakı: Ümidli gələcək təşkilatı nəşri, 2006, 288 s.

49. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Çaşıoğlu, 2010

50. Talıbov Y.R., Sadıqov F.B., Quliyev S.M. Gənclərin mənəvi tərbiyə problemləri. Bakı: Təhsil, 2000, 346 s.